Xalqın qəzeti!
# Xalq qəzeti
№ 103 (30219) 18 may 2023-cü il, cümə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün xəbəri

**Azərbaycan əhalisi artmaqda davam edir. Bu günlərdə ölkə əhalisinin sayı 10 milyon 140 min nəfəri keçib. Əhalinin 54,6 faizi şəhər, 45,4 faizi kənd sakinləridir; 49,8 faizi kişilər, 50,2 faizi isə qadınlardır.**

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva XVI “Caspian Agro” və XXVIII “InterFood Azerbaijan” sərgiləri ilə tanış olublar



**Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində XVI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - “Caspian Agro” və XXVIII Azərbaycan Beynəlxalq Qida Sənayesi - “InterFood Azerbaijan” sərgiləri ilə tanış olublar.**

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov dövlətimizin başçısına və birinci xanıma sərgilərlə bağlı məlumat verdi.

Bildirildi ki, hər il olduğu kimi bu il də sərgilərə iştirakçılar və ziyarətçilər tərəfindən böyük maraq göstərilir. Bakı Ekspo Mərkəzinin bütün mümkün pavilyonlarını və açıq sahəsini əhatə edən sərgilərdə rekord sayda milli və regional stendlər nümayiş olunur. Ümumilikdə sərgilərdə 31 ölkədən 479 şirkət iştirak edir, 9 ölkə isə milli stendlərlə təmsil olunur. “Caspian Agro” və “InterFood Azerbaijan” sərgilərində ABŞ, Almaniya, Belarus, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, Rusiyanın regional qrupları, eləcə də builki debütant ölkə Tunis və Çexiyadan olan milli qruplar iştirak edirlər.

(ardı 2-ci səhifədə)

## İlham Əliyev Kasım-Jomart Tokayevi təbrik etdi

**Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edib.**

Dövlətimizin başçısı Kasım-Jomart Tokayevi yubileyi münasibətilə təbrik edib, ona möhkəm cansağlığı, Qazaxıstanın inkişafı və firavanlığı naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Qazaxıstan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Azərbaycan Prezidenti bu ilin aprelində Qazaxıstana səfərini məmnunluqla xatırlayaraq, göstərilən qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirib, səfərin uğurla nəticələndiyini və ikitərəfli münasibətlərin inkişafına güclü təkan verdiyini vurğulayıb.

Telefon söhbəti zamanı dövlət başçıları Azərbaycanla Qazaxıstan arasında dostluq və qardaşlıq münasibətlərinin gələcək inkişafı ilə bağlı məsələləri müzakirə ediblər.

**Azərbaycan Prezidentinin Mətbuat Xidməti**

## Şuşa artıq Türk dünyasının da mədəniyyət paytaxtıdır



Səhifə ⇨ 12

## Bütün parametrlər üzrə parlaq uğur qazanılıb



Səhifə ⇨ 13

## Moskvadan İrəvana açıq mesaj: Sabitlik istəyirsənsə, bizə güvənməlisən

Səhifə ⇨ 4

## Azərbaycan mötəbər nəqliyyat-logistika tərəfdaşıdır




Səhifə ⇨ 8

## Yeddi oğul istərəm

Səhifə ⇨ 14



## “Brüssel formatı” və Ermənistandakı isterik durum





Səhifə ⇨ 3

## Fransa Qafqazda döyüşəmi hazırlaşır?

Səhifə ⇨ 4

## Ölkəmiz süni intellekt ideyalarına əsaslanan yeni sosio-texnoloji inkişaf mərhələsinə keçid ərəfəsindədir



Səhifə ⇨ 9

## Ermənistan–Rusiya: uçurum dərinləşir

Səhifə ⇨ 7

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva XVI “Caspian Agro” və XXVIII “InterFood Azerbaijan” sərgiləri ilə tanış olublar



qəbul etdiyi qərarlar, imzaladığı fərman və sərəncamlar ölkə iqtisadiyyatının, o cümlədən aqrar sektorun davamlı inkişafına real zəmin yaradır.

Pavilyonda, həmçinin Elmi-Tədqiqat İnstitutlarının ən son nailiyyətləri, yaşıl enerji mənbələrinə dair qurğu və məhsullar nümayiş olunur.

Burada müxtəlif yarış və müsabiqələrin qalib aqrar startapçıları tərəfindən arıçılıqda “varatoz” gənəsinə qarşı mübarizə, ənənəvi balıqyetişdirmə üsullarını hidroponik əkinçiliklə birləşdirən sistem, bioqaz, alternativ enerji mənbələrindən əldə edilmiş hidrogen qazı, ağıllı istixana idarəetmə sistemi, alaq otlarını lazer sistemi ilə təmizləyən aqrorobot, avtomobillər üçün portativ qida bloku, külək və günəş izləmə qurğuları, idarəolunan günəş panelləri, uzaqdan idarəolunan sayğaclar, külək turbinləri, iqlim stansiyası, dəqiq suvarma idarəçiliyi üçün sensor, suvarmada istifadə olunan günəş enerjisi ilə işləyən inventorlar sərgilənir.



(əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısı və birinci xanım sərgidə “Grow Group Azərbaycan”, “Maschio Gaspardo”, “New Holland”, “Rostselmaş”, “MySilo”, “Rauch Landmaschinen”, “SwissGrow”, “AfiMilk”, “Gowan”, “Can-Pa” şirkətlərinin, Çexiyanın, İtaliyanın, Belarusun, Gürcüstanın, ABŞ-ın və Niderlandın stendləri ilə tanış oldular. Stendlərdə ən müasir kənd təsərrüfatı texnikaları, əkin-biçin aqreqatları və kənd təsərrüfatı məhsulları təqdim olunur.

Naxçıvan Muxtar Respublikasının stendi ilə tanışlıq zamanı bildirildi ki, kənd təsərrüfatı məhsullarının istehsalında ərzaq və qida təhlükəsizliyi başlıca şərtlərdən biridir və Naxçıvan fermerləri daha çox orqanik məhsulları yetişdirməyə üstünlük verirlər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kənd Təsərrüfatı Nazirliyinin pavilyonu ilə tanış oldular. Burada ümummilli lider Heydər Əliyevə həsr olunan xüsusi təqdimat hazırlanıb. Bildirildi ki, bu il xalqımız müasir Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Buna görə də sərgilər də məhz ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Azərbaycanda aqrar sahənin inkişafı ulu öndərin fəaliyyəti ilə sıx bağlıdır. Ümummilli lider Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının

Bildirildi ki, “Caspian Agro” və “InterFood Azerbaijan” sərgilərində KOBİA-nın dəstəyi ilə qida sənayesi və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektləri də öz məhsul və xidmətlərini təqdim edirlər.

Sərgi çərçivəsində açıq sahədə kənd təsərrüfatında istifadə olunan texnikalar nümayiş olunur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Azərtexnika” MMC, “Agritex” MMC, “Agromotors” şirkətlərinin və Gəncə avtomobil zavodunun texnikaları ilə tanış oldular.

**AZƏRTAC**

# Slovakiya ilə dialoq məmnunluq doğurur



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Slovakiya parlamentinin sədri Boris Kolları qəbul edib.**

Dövlətimizin başçısı Boris Kolların rəhbərlik etdiyi nümayəndə heyətinin ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakına görə təşəkkürünü bildirdi, bunu ölkələrimiz arasında əlaqələrin yaxşı göstəricisi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında fəal dialoqun həyata keçirilməsindən məmnunluğunu bildirərək Boris Kolların səfərinin əməkdaşlığın perspektivləri ilə bağlı müxtəlif sahələrdə, o cümlədən parlamentlərarası əlaqələrin inkişafı üzrə müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını dedi.

Enerji sahəsində əlaqələrə toxunan dövlətimizin başçısı bu ilin aprelində Sofiyada Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumunun imzalanmasının önəmini qeyd etdi, “Həmrəylik Halqası” STRİNG layihəsi çərçivəsində də ölkələrimiz arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu bildirdi. Prezident İlham Əliyev ticarət, qarşılıqlı investisiya qoyuluşu, nəqliyyat sahələrində də əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğuladı.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən qonaq ulu öndərin anadan olmasının 100 illiyi münasibətilə keçirilən tədbirdə iştirak etməkdən şərəf duyduqlarını vurğuladı. ulu öndərin böyük müdrikliyə və güclü iradəyə malik, xarizmatik şəxsiyyət olduğunu, Azərbaycanın dövlətçiliyinin əsasını qoyduğunu deyən Slovakiya parlamentinin sədri məhz onun uzaqgörənliyi nəticəsində ölkəmizin davamlı surətdə inkişaf etdiyini diqqətə çatdırdı.

Azərbaycanın çox müasir və gözəl olduğunu vurğulayan Boris Kollar ölkəmizə ikinci dəfə gəldiyini dedi, ötən il Şuşaya səfərini məmnunluqla xatırladı.

Slovakiyanın Azərbaycanın ərazi bütövlüyünü tam və qəti şəkildə dəstəklədiyini deyən Boris Kollar işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərini qeyd etdi, orada Slovakiya şirkətlərinin də fəaliyyət göstərməkdə və müxtəlif layihələrdə iştirak etməkdə maraqlı olduğunu diqqətə çatdırdı.

Minatəmizləmə sahəsində Azərbaycanın Slovakiya şirkətləri ilə səmərəli əməkdaşlığına toxunan qonaq ölkəsində istehsal olunan minatəmizləmə maşınlarının humanitar minatəmizləmə fəaliyyəti üçün ərazidə səmərəli şəkildə tətbiq olunmasını xüsusi vurğuladı.

Söhbət zamanı ölkələrimiz arasında enerji sahəsində gələcək əməkdaşlıq məsələləri müzakirə olundu, bu yaxınlarda Bolqarıstanda əsası qoyulmuş “Həmrəylik Halqası” təşəbbüsü çərçivəsində Azərbaycan qazının Slovakiyaya çatdırılması istiqamətində böyük perspektivlərin olduğu bildirildi.

Görüşdə Slovakiyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığına verdiyi dəstək yüksək qiymətləndirildi.

**AZƏRTAC**

# Azərbaycanla Avrasiya İqtisadi Komissiyasının əlaqələri genişlənir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri Mixail Myasnikoviçi qəbul edib.**

Mixail Myasnikoviç ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı, ulu öndərin böyük tarixi şəxsiyyət kimi Azərbaycanın inkişafında müstəsna rolunu qeyd etdi.

Görüşdə Azərbaycanın Avrasiya İqtisadi İttifaqına daxil olan üzv dövlətlərlə ticarət dövriyyəsinin və ticarət imkanlarının genişləndirilməsi barədə müzakirələr aparıldı.

Mixail Myasnikoviç Prezident İlham Əliyevə əməkdaşlıq istiqamətləri barədə təkliflər verdi.

**AZƏRTAC**

# Milli Məclisdə xarici qonaqlarla görüşlər

**Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikası Parlament Məclisinin Sədri Yerlan Koşanovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Parlamentin rəhbəri Qazaxıstan nümayəndə heyətinə Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin 100 illik yubileyində iştirakına və bu məqsədlə Milli Məclisin xüsusi iclasında çıxışına görə Yerlan Koşanova təşəkkür edib.**

Görüşdə qeyd olunub ki, Azərbaycan və Qazaxıstan dost və qardaş ölkələrdir: “Ölkələrimiz arasında münasibətlərin əsası ulu öndər Heydər Əliyevin dönəmində qoyulub və bu gün hər iki ölkə liderləri tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan–Qazaxıstan əlaqələri siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə yüksələn xətlə inkişaf etməkdədir. Parlamentlərarası əlaqələrimiz də bu münasibətlərin tərkib hissəsidir. Deputatlarımızın qarşılıqlı səfərləri, mütəmadi görüşləri ümumi işin mənafeyinə xidmət edir”.

Söhbət zamanı Qazaxıstan Parlament Məclisinin Sədri görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinə dəvətə görə Azərbaycan tərəfinə minnətdarlığını bildirib. O, Heydər Əliyevin daim Qazaxıstanda dərin ehtiramla anıldığını söyləyib. Qeyd edib ki, Qazaxıstan dost ölkə kimi Azərbaycanın uğurlarına daim sevinir.

Qazaxıstanın parlament rəhbəri Bakıya hər səfərində Azərbaycandakı inkişafın şahidi olduğunu söyləyib. Qeyd edib ki, Heydər Əliyevin memarı olduğu Azərbaycan bu gün onun arzuladığı nailiyyətləri qazanır və bu böyük şəxsiyyətin ideyaları həyata keçirilir. Azərbaycan inkişaf edən stabil ölkədir və yerləşdiyi bölgədə özünəməxsus önəmli yer tutur.

Tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***

Mayın 17-də Milli Məclisin Sədri Sahibə Qafarova ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Milli Məclisin xüsusi iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Rusiya Federal Məclisinin Federasiya Şurası sədrinin birinci müavini Andrey Yatskin, həmçinin Belarus Respublikası Milli Məclisinin Respublika Şurasının sədr müavini Valeri Belski və Nümayəndələr Palatasının sədr müavini Valeri Mitskeviç ilə görüşüb.

S.Qafarova Rusiyanın Dövlət Dumasında və Federal Şurada Heydər Əliyevin yubileyi ilə bağlı təşkil olunmuş sərgilərə görə Rusiya tərəfinə təşəkkür edərək, görkəmli dövlət xadiminin xatirəsinə göstərilən ehtiramı yüksək qiymətləndirib və bunu iki ölkə arasında dostluq münasibətlərinin təzahürü kimi dəyərləndirib.

Qonaqlar bu əlamətdar iclasa dəvətə və tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkürlərini ifadə ediblər. Qeyd olunub ki, dünya miqyaslı siyasi xadim Heydər Əliyevin əziz xatirəsi Belarusda da böyük ehtiramla yad edilir.

Söhbət zamanı ulu öndər Heydər Əliyevin mənalı həyat yolu, zəngin dövlətçilik təcrübəsi barədə danışılıb, onun Azərbaycanın müstəqilliyinin qorunması və inkişaf etdirilməsi sahəsində gördüyü işlər xüsusi vurğulanıb.

Bildirilib ki, ulu öndərin müəyyən etdiyi yol bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadi qüdrətinin gücləndirilməsi və ölkəmizin beynəlxalq nüfuzunun artması istiqamətində mühüm addımlar atılır.

***

Milli Məclisin Sədri Sahibə Qafarova həmin gün Ukrayna Ali Radası Sədrinin



müavini Olena Kondratiukla ilə də görüşüb. Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Milli Məclisin xüsusi iclasında iştirak etdiyinə görə qonağa təşəkkürünü bildirən S.Qafarova ölkələrimiz və xalqlarımız arasında münasibətlərin çox böyük tarixi olduğunu xatırladıb. Deyib ki, xalqlarımız uzun illər dostluq şəraitində yaşayıblar və bu gün də həmin münasibətlər davam edir. Azərbaycan dost ölkələrlə, o cümlədən Ukrayna ilə əlaqələrin inkişafına həmişə böyük diqqət yetirib və hazırda ölkələrimiz arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir.

İki ölkənin qanunverici orqanları arasında da münasibətlərin yüksək səviyyədə olduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, Azərbaycan və Ukrayna həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edirlər. Azərbaycanla Ukrayna arasında parlamentlərarası dostluq qrupları fəaliyyət göstərir. Bu ilin fevralında Ukrayna Radası dostluq qrupunun üzvləri Azərbaycanda, ölkəmizin parlamentariləri isə Ukraynada səfərdə olublar.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

**Əliqismət BƏDƏLOV,**
**“Xalq qəzeti”**

# Ordumuz Ermənistanın mövqelərinə atəş açmayıb

**Mayın 17-si saat 16:15 radələrində guya Azərbaycan Ordusunun bölmələrinin Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Zod istiqamətində yerləşən mövqelərini atəşə tutması barədə yayılan məlumat tamamilə yalandır, bunu qəti surətdə təkzib edirik.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

“Qeyd edək ki, gündüz saatlarından həmin ərazidə qatı duman var. Bu cür məhdud görmə vəziyyətində bölmələrimizin qarşı tərəfi atəşə tutması qeyri-mümkündür”, – məlumatda deyilir.

**“Xalq qəzeti”**

# “Brüssel formatı” və Ermənistandakı isterik durum

## Antipaşinyançıların “qlobal siyasi mikser” effekti nəyə hesablanıb?

**Hayastanda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın mayın 14-də “Brüssel formatı” çərçivəsində Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə keçirilmiş görüşü ilə bağlı isteriya artmaqdadır. Qəzetimizin dünənki sayında mövzuya toxunmuş, isterik vəziyyətin müxtəlif məqamlarından söz açmışdıq. Vurğulamışdıq ki, belə yanaşma N.Paşinyanın mövqeyinə təsir göstərmək, sözügedən görüşdən sonra üfüqdə közərən sülh işartılarının üstünü qara buludlarla örtmək niyyətindən irəli gəlir. Ermənistanın Rusiya yönümlü mediasının mövcud istiqamətdə qol çırmadığını da diqqətə çatdırmışdıq. Qeyd edək ki, İrəvanda ictimai rəyin formalaşmasına məsul olanlar “Brüssel formatı” çərçivəsində əldə edilmiş razılaşmanı heçə saymaq yönündə sistematiklik nümayiş etdirməkdədirlər. Yəni, əvvəl əsasən Rusiya ekspertlərinin fikirlərini tirajlayırdılarsa, indi Qərbin fikir adamlarından, necə deyələr, mədət umurlar.**

Nəzərə alaq ki, Rusiya ekspertləri Şarl Mişelin vasitəçiliyinə Brüssel–Moskva ziddiyyətləri, birincinin ikincini Cənubi Qafqazdan sıxışdırmaq müstəvisində yanaşır və mövcud xüsusda Qarabağ münaqişəsinin Rusiya üçün önəmindən söz açırlarsa, Avropanın fikir adamları Qərbin sülh nizamlanmasının səmərəsizliyinə dair qənaət formalaşdırmaları ilə ermənipərəstliyin Qərb seqmenti rolunda çıxış edirlər. Şübhəsiz, hər iki baxış bucağı xəstə erməni təfəkkürünün durumla barışmamaq yönümlü “potensialının” işə düşməsinə bəraət qazandırmağa hesablanıb.





***

Hiss olunur ki, belə təqdimatlar Ermənistan daxilindəki anti-Paşinyan ritorikasını gücləndirmək məramından irəli gəlir. Bu məramda iki aydın xətt var:

1. Ermənistanın baş nazirinin fikirlərinə təsir göstərərək, onun razılaşmanı pozmasına, sözünə xilaf çıxmasına nail olmaq. Bu tendensiya 44 günlük müharibədən sonra dəfələrlə müşahidə edilib.
2. Paşinyan administrasiyasına qarşı etiraza yeni ovqat gətirib kütləviliyi təmin etmək və beləliklə, baş nazirin devrilməsini gerçəkləşdirmək. Xüsusən də ikinci məqsəd həm dünya erməniliyi, həm də Rusiya üçün vacibdir.

Dünya erməniliyi, yəni xaricdəki erməni lobbi və diaspor təşkilatlarının təmsilçiləri hesab edirlər ki, Nikol ümumerməni maraqlarına xəyanət etmiş durumdadır və getməlidir. Moskvada isə belə düşünürlər ki, Ermənistan yolunu azıb və 2018-ci ildə Paşinyanı hakimiyyətə gətirən inqilabın gerçəkləşməsi Rusiyaya münasibətdə böyük xəyanətdir.

Onu da diqqətə çatdıraq ki, Ermənistanda ölkənin Azərbaycanla sülh müqaviləsinin imzalanmayacağını təlqin edənlər, buna yol verməmək niyyəti güdənlər, həmçinin kollektiv Qərb nizamlanmasında Avropa–ABŞ ziddiyyəti də axtarmaq məqsədinə kökləniblər. Yəni, əvvəllər Qərb–Rusiya qarşıdurması fonunda məsələyə münasibət var idisə, hazırda haqqında söz açdığımız ziddiyyət ritorikasının qabardılması aktualdır. Görünür, sülh müqaviləsinin əngəllənməsi planı yolunda, necə deyərlər, “günah keçiləri”nin sayının artırılması prinsipi əsas götürülür və beləliklə, alınmayacaq proses görüntüsünə qanunauyğunluq libası geyindirilir. Bir sözlə, erməni politexnoloqlarının “qlobal siyasi mikser” effekti göz önündədir.

***

Əlqərəz, Rusiyanın siyasi analitikləri ilə yanaşı, Qərbin bəzi ekspertləri də bildirirlər ki, “Brüssel formatı” bölgəyə sülh gətirməyəcək. Bu baxımdan, Ermənistan mediasının fikirlərinə önəm verdiyi şəxslərdən biri almaniyalı politoloq Aleksandr Rardır. Rar, ilk növbədə, az öncə haqqında danışdığımız ABŞ–Avropa qarşıdurmasına fokuslanmaqdadır. O, ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin söylədiklərinə “ilişir” və bildirir ki, Blinkenin İrəvan və Bakı arasında sülh müqaviləsinin imzalanmasının yaxın olması barədə fikrinə inanmır. Çünki bu, Amerikanın özünü reklamıdır.

“Ən pis sülh müharibədən yaxşıdır” deyiminə əsaslanan ekspert bir neçə aydır bu və ya digər danışıqlar masası arxasında təklif olunan sülh müqaviləsinin imzalanmamasını tərəflər arasındakı ciddi əks baxışların mövcudluğu ilə əlaqələndirir: “Bəli, əgər bu müqavilə ABŞ-ın səyləri ilə imzalanarsa və sonra ratifikasiya olunarsa, o zaman Vaşinqton Qafqazda uğurlu diplomatiya apardığını deyəcək. ABŞ-ın da buna, həqiqətən, ehtiyacı var, çünki amerikalılar Rusiyanın oradakı mövqeyini zəiflətməyə, postsovet məkanında təsirlərini artırmağa çalışırlar”.

Göründüyü kimi, almaniyalı politoloq son dərəcə incə məqamlara toxunmaqdadır. O, Cənubi Qafqaz müstəvisində Aİ–Rusiya ziddiyyətləri ilə yanaşı, ABŞ–Rusiya qarşıdurmasından da söz açır, beləliklə, istər-istəməz bölgə xüsusunda Avropanın maraqları ilə Birləşmiş Ştatların maraqlarını toqquşdurur. Bu cür mürəkkəb konfiqurasiya isə ancaq sülhdən yayınmaq istəyənlərin karına gələ bilər. Yəni, “vəziyyət çox gərgindir, sülh necə yaranacaq?” – dilemması qəsdən aktuallaşdırılır.

Yeri gəlmişkən, mövcud müstəvidə Bakı ilə İrəvanın hazırkı mövqeyi, ümumiyyətlə, yada salınmır. Təxminən, belə bir baxış ortaya qoyulur: sülhü qlobal oyunçular yarada bilər, onlar isə öz aralarında razılığa gəlmirlər, deməli, sülh də mümkün deyil. Politoloq Rarın növbəti fikirləri də məhz bu məntiqi rəhbər tutur.

Almaniyalı politoloq bildirir ki, amerikalıların əvvəllər, daha doğrusu, son 30 ildə ATƏT-in Minsk qrupu formatında vəziyyətə təsir etmək imkanları çox idi. Lakin onlar az şey etdilər: “Məni indi ABŞ-ın siyasətinin bu qədər ciddi şəkildə intensivləşməsi təəccübləndirir. Bu, tərəflərin razılığa gəlməsinə mane olmasa, müsbət təsir göstərəcək”.

***

Qeyd edək ki, Ermənistan cəmiyyətində “Brüssel formatı”nın sülh müqaviləsinin imzalanmasına gətirəcəyi ilə bağlı da diskussiyalar yer almaqdadır. Bu diskussiyalar ölkə hakimiyyətinin bütün maneələri aşaraq, Bakı ilə ortaq məxrəcə gəlməsinin rəsmiləşməsindən sonrakı zaman kəsiyini hədəf seçməkdədir. Məsələyə bir qədər ətraflı aydınlıq gətirək.

Ermənistanın müxalif kəsimi və ermənipərəst dairələr Paşinyanın bir andaca sülh müqaviləsi imzalamağa getmək əzmini görürlər. Ümumən, erməni əks cinahı Nikola qarşı o qədər də güclü deyil. Yəni, söhbət onu devirmək üçün olan gücdən gedir. Bu gücsüzlük birinciləri Paşinyanın onları saya salmamasından sonrakı perspektiv barədə ciddi düşünməyə vadar edir və ona görə bildirirlər ki, hətta, sülh müqaviləsi imzalansa belə, bu, heç nəyi dəyişməyəcək. Yeri gəlmişkən, məsələ Rusiya ekspertləri tərəfindən də gündəmə gətirilməkdədir. Doğrudur, onlar daha çox Moskvanın Cənubi Qafqazdakı münaqişə zonasında yalnız sülhməramlılarla təmsil olunduğunu vurğulayır və sülhməramlıların mandatının başqa hərəkətlərə imkan vermədiyini qabardırlar.

***

Deməli, həm Rusiya siyasi dairələrinin, həm də Qərb ermənipərəstlərinin sülh müqaviləsinin imzalanması durumuna, necə deyərlər, sərmayə yatırmaqla, gələcək destruktivizmi və təxribatçılığı düşünmələri labüddür. Bu baxımdan, almaniyalı politoloq Rarın öz baxışı var. O deyir ki, sülh müqaviləsinin imzalanması, çətin ki, vəziyyəti tam sakitləşdirsin. “Hərbi hərəkətlər olmasa yaxşıdır, amma hər şey xarici aktorlardan asılıdır. Çünki son 30 ildə Qarabağdakı münaqişə hadisələrin gedişatına təsir etmək istəyən və öz təsirləri uğrunda mübarizə aparan xarici aktorlarla əlaqələndirilib. Söhbət ABŞ, Türkiyə, Rusiya, Çin, Avropa İttifaqından gedir”.

Yəni, əgər xarici aktorlar Ermənistan–Azərbaycan münaqişəsindən öz geosiyasi məqsədləri üçün istifadə edərək, bir-biri ilə rəqabət aparmağa başlamasalar, o zaman, müsbət dönüşdən danışmaq olar. “Amma xarici oyunçular geosiyasi oyunlar oynamağa və münaqişədən öz məqsədləri üçün istifadə edərək bir-birilərini sıxışdırmağa başlasalar, vəziyyət sakitləşməyəcək”, – deyə Rar fikirlərinə aydınlıq gətirir.

***

Qeyd edək ki, “Brüssel formatı” çərçivəsində Azərbaycan və Ermənistan liderlərinin mayın 14-də keçirilmiş görüşündən sonra Ermənistan siyasi dairələrində belə fikir gündəmə gəlməyə başladı ki, ABŞ və Aİ Rusiyaya qətiyyən əhəmiyyət vermədən hərəkət edir. Cənubi Qafqaz regionu isə Moskvanın təsir zonası olduğundan, belə yanaşma təhlükəlidir. Həm də ona görə ki, Ermənistan və Azərbaycan ABŞ və Aİ-dən fərqli olaraq, coğrafi baxımdan Rusiyaya yaxın ölkələrdir.

Maraqlıdır ki, erməni mediasının fikirlərinə istinad edən almaniyalı politoloq Aleksandr Rar da eyni düşüncəni bölüşməkdədir. Onun sözlərinə görə, indiki durumda münaqişənin nizamlanmasında Birləşmiş Ştatlar və Aİ təşəbbüsə yiyələnibsə, Rusiya ilə yanaşı, Türkiyə də fəallıq göstərməlidir. Yalnız bu halda münaqişənin sona çatmasında uğur şansı daha yüksək olacaq.

***

Sonda qeyd edək ki, haqqında söz açdığımız yanaşmalar Cənubi Qafqazdakı sülh yolunun çətinliyindən və manipulyasiyalara açıqlığından xəbər verməkdədir. Azərbaycanın iradəsi və mövqeyi ortadadır. Bu mövqe sabitdir və sülh gündəliyinə sadiqdir. Ermənistan hakimiyyəti isə görünür, ilk növbədə, təzyiqlərə sinə gərməyi bacarmalı, qətiyyət nümayiş etdirməlidir. Bunu bacaracaq yoxsa yox, zaman göstərəcək.

***Ə.CAHANGİROĞLU,***
***“Xalq qəzeti”***

# USCIRF, “okey”mi, yaxud ermənipərəstliyin ABŞ təzahürünə cavab

## Dövlət Departamenti komissiyasının Azərbaycana qarşı qərəzində nələr var?

**ABŞ Dövlət Departamentinin Beynəlxalq Dini Azadlıq Komissiyası (USCIRF) 2022-ci il üçün Dini Etiqad Azadlığına dair hesabatında Azərbaycanı xüsusi nəzarətdə olan ölkələr siyahısına daxil edib. Guya, ölkəmizdə ötən il dini etiqad azadlığı təqib olunurmuş. İddia o qədər cəfəngdir ki, deməyə söz tapmırsan. Amma tapmağa çalışacağıq. Həm də ona görə ki, hesabatda Azərbaycanla Ermənistan arasındakı münaqişəli durumun, həssas məqamına kortəbii yanaşma meyli var. Belə mövqenin qarşısında isə susmaq olmaz.**

Beləliklə, USCIRF iddia edir ki, ötən il Azərbaycanda dini etiqad azadlığının vəziyyətinə mənfi tendensiya hakim kəsilib. “Hökumət din xadimləri üzərində ciddi nəzarəti davam etdirib, həmçinin onları təqibə və həbsə atmağa davam edib”, – deyə qurumun hesabatında vurğulanıb. Məlum olur ki, komissiya 2022-ci ilin sonunda özünü dindar adlandıran kəsimin nümayəndələrinin saxlanılması üzərinə fokuslanıb. Paradoksal durum yaranır. İzah edək, nə üçün.

Azərbaycan öz ərazisində din pərdəsi altında fəaliyyət göstərən İran agenturasının üzvlərini sıradan çıxarır, Tehranla soyuq münasibətlərdə olan Birləşmiş Ştatlar bunu ölkəmizə nöqsan kimi dəyərləndirir. Sual olunur: belə məntiqsiz mənzərənin dini etiqad azadlığının pozulması əlaməti sayılması kimə və ya kimlərə lazım ola bilər? Cavab birmənalıdır – Ermənistana və onun havadarlarına. Hərçənd, İranın müəyyən dairələri də amerikalıların hesabatından “faydalana” bilər ki, hələlik, bunun üzərində dayanmırıq...

Görünür, ABŞ-dakı erməni lobbi və diaspor təşkilatları özlərinin anti-Azərbaycan ritorikalarını Dövlət Departamentinin sözügedən komissiyasına qədər daşımağı bacarıblar. Əlbəttə, bu, ölkə adına böyük utancdır. Ancaq təəccüblü deyil. Çünki əvvəllər də analoji hallar müşahidə olunub. Yəni, ölkəmizdə dini etiqad azadlığı ilə bağlı reallıqların nəzərə alınmadığını çox görmüşük. Hələ müxtəlif hesabatlara sırınan başqa müstəvidəki qərəzli yanaşmaları da...

***

Bəli, USCIRF nəzərə almır ki, Azərbaycanda kifayət qədər tolerant mühit mövcuddur. Ölkəmizdə müxtəlif dinlərin və konfessiyaların nümayəndələrinin dinc şəkildə, heç bir problemsiz ibadətlərini həyata keçirdikləri, müxtəlif dinlərə məxsus müqəddəs sayılan yerlərin dövlətimiz tərəfindən qorunduğu, onların restavrasiyasının aparıldığı da əsla inkar edilə bilməz.

Bundan başqa, hər il Azərbaycanda dini mövzuda müxtəlif nüfuzlu toplantıların təşkili, respublikamızın Cənubi Qafqazda multikultural obrazının formalaşdığı, ümumən din-dövlət, din-cəmiyyət münasibətlərində nümunəvi loyal mühitin yarandığı, dini dəyərlərin ölkəmizdəki müxtəlif xalqların və etnik qrupların ənənələr sistemi kimi qavrandığı da hesaba alınmır. Əlbəttə, hesaba alınmaz, çünki bu işdə, erməni barmağı var. Təəssüf ki, ABŞ Dövlət Departamenti kimi nüfuzlu qurumun tərkibindəki komissiya həmin barmaqla hərəkətə gətirilməkdədir.

Əlbəttə, böyük “görüntü” yaratmaq məqsədi də ortadadır. Axı, Azərbaycan dövləti ayrı-ayrı beynəlxalq platformalarda ermənilərlə dinc birgə yaşam məntiqini qabardır. Ermənilər xristian dininə mənsubdurlarsa, ölkəmizdə dini etiqad azadlığı ilə bağlı durumun pis olduğunu iddia etmək, rəsmi Bakının mövcud istiqamətdə verdiyi təminatların yalan olduğu barədə yanlış rəy formalaşdırmağa hesablanıb. Başqa cür düşünməyə əsas yoxdur. Digər tərəfdən, hesabatın ermənipərəst çevrələr tərəfindən tərtib edildiyini sənədin başqa müddəalarına diqqət yetirərkən də duymaq mümkündür.

***

Keçək ən başlıca məqama. Hesabatda Qarabağda, Azərbaycanın nəzarəti altında olan ərazilərdə, guya, erməni mənəvi irsinin məhv edildiyi vurğulanır: “Beynəlxalq orqanlar və digər təşkilatlar Azərbaycan hökumətinin Dağlıq Qarabağda və Azərbaycanın nəzarəti altında olan ona bitişik ərazilərdə dini və mədəni irsin qorunmasına və qorunub saxlanmasına hazır olduğunu şübhə altına almaqda davam edir. Fevral ayında o vaxtkı mədəniyyət naziri Anar Kərimov “uydurma” adlandırdığı kilsələrdən erməni apostol yazılarının yığışdırılması üçün işçi qrupunun yaradıldığını elan etmişdi. Görünür, bu plan beynəlxalq qəzəbdən sonra hökumət tərəfindən tərk edilib və mart ayında Avropa Parlamenti Azərbaycanın Dağlıq Qarabağ və onun ətrafında erməni mədəni irsini silmək və inkar etmək siyasətini davam etdirməsini pisləyib”.

Əvvəlcə, bu iqtibasdakı ifadələrə diqqət yetirək. Birinci vurğulanmalı cəhət “Dağlıq Qarabağ” adının işlədilməsidir. Azərbaycanın hüquqi ərazilərində Dağlıq Qarabağ inzibati ərazi vahidi yoxdur. Bəs, bu ifadəni qabardan kimlərdir? Əlbəttə, erməni millətçiləri və separatçıları, həmçinin onların Ermənistan daxilindəki və xaricindəki havadarları. İkincisi, “Azərbaycanın nəzarəti altında olan ona bitişik ərazilərdə” nə deməkdir? Bu ifadə də amerikalıların öz başlarının məhsulu olmaqdan uzaqdır və həmin deyimdə, əslində, qəsbkarlıq niyyətlərinin işartıları var.

Yada salaq ki, Ermənistan 44 günlük müharibədən sonra Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə erməni mədəni və dini mirasının məhvə məruz qaldığı iddiası ilə beynəlxalq məhkəmələrə üz tutmuşdu. Təsəvvür edin, İrəvan tərəfindən qaldırılmış iddialarda qanuni Azərbaycan ərazisindəki abidələrin hüquqi baxımdan Ermənistana məxsusluğunun təsbit olunması tələbi qoyulurdu. Loru dildə desək – torpaq sənin adınadır, içindəki tikilinin sənədi mənim adıma olmalıdır, – Ermənistanın istəyi bu olmuşdu. Yəni, həyasızlığın pik həddi.

Ancaq məsələni adi qarşılamaq olmaz. İrəvan dairələri, belə gedişlərin baş tutacağı təqdirdə, gələcəkdə torpaq üzərində də mülkiyyət hüququnun rəsmiləşməsinə çalışmağı və işğalçılığa hüquqi don geyindirmək üçün rıçaqlar qazanmağı düşünürlər... Təbii ki, haqqında söz açdığımız bu mənfur iddia rədd edilmişdi. Onu da qeyd edək ki, İkinci Qarabağ müharibəsindən sonra bu sayaq məkrli iddiaların sayı yetərincədir. Belə olan halda, Dövlət Departamentinin komissiyası hansı ağılla Azərbaycanı qınayır? Sual ritorikdir. Çünki ortada erməni barmağı olduğu kimi, erməni ağlı da var. Bəli, erməni ağlı bu cür hesabatları sonradan əldə bayrağa çevirib işğalçı niyyətlərə köklənməyi düşünür.

Digər tərəfdən, bu, bir faktdır ki, Azərbaycan torpaqları işğal altında qalanda oradakı abidələrin erməniləşdirilməsi həyata keçirilmişdi. Yəni, söhbət qədim alban dini abidələrinə münasibətdəki təcavüzdən gedir. Əlbəttə, hansı abidəni ki, erməniləşdirmək mümkün deyil, onların vandalcasına dağıdıldığı da məlumdur. Nədənsə, USCIRF buna və mövcud istiqamətdə Azərbaycanın apardığı təbliğatın motivlərinə diqqət yetirmir. Hesabatda adı çəkilən Avropa Parlamentinin qətnaməsinə gəldikdə isə həmin mənasız kağız parçasının hər hansı hüquqi əhəmiyyətinin olmadığı aşkardır.

***

Yekunda onu da deyək ki, USCIRF ABŞ hökumətinə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinə və Birləşmiş Ştatların Azərbaycandakı səfirliyinə Qarabağda və ətraf ərazilərdə ibadət yerlərinin və digər dini, yaxud mədəni obyektlərin bərpası, qorunması üçün maliyyə ayırmağı tövsiyə edir. Bəs, bu tövsiyəni necə başa düşək? Yadımıza “O olmasın bu olsun” filmindəki zərb-məsələ çevrilmiş məşhur fraqment düşür. Qısaca xatırladaq – mənə meymun deməyin az deyil, hələ bir salam da verirsən?!

USCIRF-in nəzərində Azərbaycan erməni dini mirasını dağıdan tərəfdirsə (dağıtmayıb, Azərbaycanın dini abidələrini yerlə-yeksan edən ermənilər olublar - red), ölkəmiz həmin mirası niyə bərpa etmək istəsin? Axı, məntiq olmalıdır. Yox, əgər USCIRF ölkəmizin ərazilərindəki abidələrin bərpasına maliyyə ayrılmasını istəyirsə, bilməlidir ki, bu yardımın erməni abidələrinin bərpası adı altında rəsmiləşməsinə razı olmayacağıq. Əslində, belə qərəzli yanaşmadan sonra, ümumiyyətlə, söhbət bu yönümdə yardım qəbul etməkdən gedə bilməz. “Okey”mi?

***Ə.RÜSTƏMOV,***
***“Xalq qəzeti”***

# Liparidyan: **Ermənistan yolun sonuna çatıb**

## Hayastanın ilk prezidenti Levon Ter-Petrosyanın müşaviri ölkəsini Azərbaycanla qonşuluq münasibətləri yaratmağa çağırıb

**Baş nazir Nikol Paşinyanın Çexiyanın “Respekt” nəşrinə verdiyi müsahibəsində Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətlərini yaxşılaşdırmağın vacibliyini deməsinin ardınca praqmatik düşüncəyə malik daha bir erməni eyni mövqedən çıxış edib. Hazırda ABŞ-ın Miçiqan Universitetində Erməni Araşdırmaları Proqramının direktoru vəzifəsində çalışan Jirayr Liparidyan Qarabağda silahlı qarşıdurmaya son qoyan 10 noyabr 2020-ci il il tarixli Bəyanatla əldə olunmuş razılaşmanın nəticələrini şərh edib.**





Erməni əsilli tarixçi-alim, keçmiş diplomat bu barədə Türkiyənin ingilisdilli “Ahval” saytının Hot Purcuit proqramına müsahibə verib. O, müsahibəsində Qarabağ münaqişəsində qazanan və uduzan tərəflər, Azərbaycanın qələbəsi ilə başa çatmış 44 günlük müharibənin ardınca Cənubi Qafqazda yaranmış yeni geosiyasi vəziyyət, aparılan sülh danışıqlarında düzgün strategiya tapmağın çətinlikləri barədə danışıb.

Beyrutda doğulmuş 78 yaşlı Jirayr Liparidyan Azərbaycan, Ermənistan, Türkiyə və Rusiyanın müharibədən faktiki nə əldə etdiyini təhlil etməyə çalışıb. Kifayət qədər geniş təhlilin rezyümesini çıxarmalı olsaq, onun fikirlərinin leytmotivi bundan ibarətdir: Azərbaycan ərazilərini qaytarıb, Türkiyə Qafqazdakı nüfuzunu genişləndirib, Rusiya isə Azərbaycanda hərbi mövcudluğunu bərpa edib. Burada ən çox itirən tərəf isə Ermənistandır.

***

Bu, həmin Liparidyandır ki, Birinci Qarabağ savaşından sonra İrəvanla Bakı arasında sülhün əldə olunmasından ötrü hər iki tərəf üçün uyğun variantlar axtarır, Azərbaycanın işğal olunmuş, keçmiş DQMV ətrafındakı rayonlarını qaytarmaq, qonşularla normal münasibətlər qurmaq təklifləri ilə çıxış edirdi. Yeri gəlmişkən, məhz buna bənzər təşəbbüsləri irəli sürdüyünə görə Liparidyanın patronu, Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan 1998-ci ildə postundan getməyə məcbur edildi. Buna qədər isə beyrutlu alim-diplomat Qarabağ uğrunda yeni müharibə təhlükəsindən və bu dönəmdə Moskvanın münaqişəyə hərbi müdaxilə ehtimalından danışarkən belə deyirdi: “Rusiya yalnız öz sülh şərtlərini qəbul etdirmək məqsədilə müdaxilə edə bilər. O, Ermənistan tərəfindən Azərbaycana qarşı çıxış etməyəcək. Rusiyanın hamıya qarşı Ermənistanın müttəfiqi olması barədə ehtimal artıq tarixi mifdir”.

Üstündən iki onillik keçəndən sonra Liparidyanın nə qədər haqlı olduğunu bölgədə yaranmış yeni reallığa söykənən tarix sübuta yetirdi. İndi isə Nikol Paşinyan iqtidarı praqmatik diplomatiyadan çıxış edərək, qonşularla münasibətləri normallaşdırmaq barədə danışmağa başlayıb. Bəs Hayastanın hakim isteblişmentinin ilk baxışda sağlam və məntiqi görünən qonşularla sülh şəraitində birgəyaşayış çağırışlarını erməni cəmiyyəti qəbul edəcəkmi? Paşinyan siyasi şinelindən çıxdığı Levon Ter-Petrosyanın 25 il əvvəl üzləşdiyi aqibətə uğramayacaq ki?

**Milli Məclisin deputatı, politoloq Rasim Musabəyovun bununla bağlı fikirləri maraq doğurur:**



***“Liparidyan praqmatik diplomatdır, mövqeyini hansısa siyasi təsirlərə görə müəyyən etmir. O, əvvəllər də sülhün əldə olunmasının tərəfdarı kimi çıxış edir, bu, olmadan Ermənistanı itirəcələrini açıq söyləyirdi. Bu halda, Rusiyanın qanadının altına girməyə məcbur olacaqlarını da dilə gətirirdi. Onun dediklərinin hamısı baş verdi. Yəni, İkinci Qarabağ müharibəsinə qədər münaqişəni kompromisə gəlməklə həll etməyin tərəfdarı olan Liparidyan indi haqlı olaraq İrəvanı 44 günlük savaşın nəticələrini qəbul etməyə çağırır. Amerikada yaşayan, öz fikirlərini sərbəst bildirən diplomatın bu mövqeyinə erməni ictimaiyyəti, əlbəttə ki, mənfi yanaşır. Amma düşünürəm ki, Ermənistan gec-tez reallığı qəbul edəcək, çünki başqa yolu qalmayıb”.***

R.Musabəyovun qənaətincə, tezliklə Ermənistanın realist düşüncəyə malik siyasətçiləri, alimləri, jurnalistləri Liparidyanın dediyinə yaxın mövqedən çıxış etməyə, konkret addımlar atmağa başlayacaqlar:

***“İndi əsas məsələ Nikol Paşinyanın, nəhayət, konkret qərar qəbul etməsidir. Biz görürük ki, o, bu qərarları sözdə səsləndirir, amma son məqamda gözləmə mövqeyini seçir. Bu məqamın yetişdiyini Paşinyana Vaşinqtonda da deyiblər, Avropada da. Rusiyaya getdi və gördü ki, Ukraynadakı vəziyyətə görə, Moskva ona hansısa dəstəyi vermək iqtidarında deyil”.***

***

Paşinyanın qonşularla normal münasibətə, sülhə doğru atdığı vacib addımlardan biri Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etməsidir. Yeri gəlmişkən, Hayastan baş naziri dörd gün əvvəl Brüsseldə dilə gətirdiyi məlum tezisi dünən Avropa Şurasının İslandiyanın paytaxtı Reykyavik şəhərində keçirilən sammitində də təkrar edib: “Biz Fransa Prezidenti Emmanuel Makronun və Aİ Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Alma-Ata Bəyannaməsi əsasında münasibətləri normallaşdırmaq barədə razılığa gəldik. İrəliyə doğru addım atdıq və vurğuladıq ki, Ermənistan Azərbaycanın 86,6 min kvadratkilometr, Azərbaycan isə Ermənistanın 29,8 min kvadratkilometr ərazisini tanıyır”.

Paşinyan bu mövqeyinin doğruluğunda israrlı olsa, deməli bunun ardınca Azərbaycanın sülh sazişinin mətnində irəli sürdüyü 5 prinsipə uyğun qərar qəbul etməyə də cürət tapacaq. Bölgədə hadisələrin inkişaf istiqaməti artıq başqa yol tanımır.

*İmran BƏDİRXANLI,*
*“Xalq qəzeti”*

**İsrailin "i24NEWS" nəşri “Fransa Qafqazdakı döyüşə qoşulur – İsrailin müttəfiqi Azərbaycan üçün təhlükə” başlıqlı analitik yazı dərc edib. Məqalədə deyilir ki, Fransa Ermənistanı öldürücü silahlarla təchiz etmək qərarına gəlib. Nəşr bu məlumatı Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsindəki (GUR) mənbələrdən aldığını gizlətmir.**

Mənbəyin dediyinə görə, yaxın vaxtlarda Paris Ermənistana 50 zirehli transportyor göndərəcək və gələcəkdə “Minstrel” hava hücumundan müdafiə raketlərinin tədarükü də nəzərdən keçirilir. "i24NEWS" nəşri qeyd edir ki, Paris Ermənistana silah ixracı üçün nizamlı sistem qurmağa hazırlaşır. Fransa–Ermənistan dostluq qrupunun rəhbəri Gilbert-Luc Devinaz hətta qarşıdakı silah tədarükü barədə açıqlama verib: “Biz Ermənistana şərait yaratmalıyıq ki, sərhədlərinin təhlükəsizliyini təmin etsin. Buna görə onun silahlanmasına yardım göstərməliyik”.

Məlum olub ki, Ukrayna kəşfiyyatının Parisdən İrəvana hərbi tranzit yüklərini izləməkdə məqsədi bu silahların daha unutmaq olmaz. Moskva heç bir halda Fransanın Ermənistanda, yəni Cənubi Qafqazda bu tip silahları yerləşdirməsi ilə razılaşmayacaq.

Onu da qeyd edək ki, bir müddət əvvəl Fransanın məxfi xidmət orqanının ideoloji tribunası sayılan "Intelligence Online” nəşrinin yaydığı məlumatda deyilirdi ki, İrəvana təyin edilmiş yeni hərbi attaşe Fransanın ölümcül silahlarının Ermənistana tədarükünə nəzarət edəcək. Guya Parisin Ermənistana öldürücü silahların verilməsi ilə bağlı qərarına əsas dəstək şəxsən prezident Emmanuel Makrondan gəlib.

Bəli, Paris İrəvana diplomatik dəstək verir, hər zaman onun tərəfini tutur, vaxtaşırı maliyyə yardımı da göstərir. Amma

# Fransa Qafqazda döyüşəmi hazırlaşır?



sonra Rusiyaya ötürüləcəyi versiyasını izləməkdir. Bu versiyanı ağlabatan edən amil son illər İrəvanla Moskva arasında hərbi-texniki əməkdaşlığın genişlənməsi, eləcə də Rusiyanın iki hərbi bazasının Hayastan ərazisində yerləşməsidir.

Fransadan Ermənistana silah tədarükünə start verilməsi Parisin az qala İsraillə kəllə-kəlləyə gəlməsinə səbəb olub. Bunu vurğulayan "i24NEWS" nəşri yazır ki, Tel-Əvivin rəsmi siyasətinə görə, yəhudi dövləti özünü Azərbaycanın strateji tərəfdaşı hesab edir və onun müdafiə qüvvələrini müasir tələblərə uyğun şəkildə silahla təmin edən əsas dövlətlərdən biridir.

NATO-nun Avropada ən güclü ordusuna malik Fransanın strateji əhəmiyyətli silahlarını Ermənistana verəcəyinə inanmaq çətindir. Əgər bu ehtimal öz təsdiqini taparsa, onda Fransanın Cənubi Qafqazda yeni müharibəni körüklədiyi qənaətinə gəlmək mümkündür. Hətta nəinki körüklədiyini, Ermənistanın tərəfində birbaşa savaşa hazırlaşdığını iddia etmək olar. Amma hadisələrin bu müstəvidə inkişafına yol verməyəcək Rusiya amilini düşünürük ki, onun Ermənistana ölümcül silahlar verəcəyi barədə Fransa mətbuatında gedən informasiyaları təbliğat xarakterli, diplomatik savaşın tərkib hissəsi adlandırmaq daha məntiqə uyğun olardı. Sınaqdan çıxmış belə üsulla Parisin bəlkə də Bakını sülh danışıqlarında müəyyən şərtlə razılaşmağa, İrəvana güzəştə getməyə, yaxud hansısa konkret addım atmaqdan çəkindirməyə çalışdığını fərz etmək olar. Görünən odur ki, hələ tam çözülməmiş münaqişədə Fransa özünü tərəf kimi aparmağa başlayıb. Öldürücü silahlarla bağlı yazılanlar və deyilənlər öz təsdiqini taparsa, bu halda beynəlxalq təşkilatların məsələyə münasibət bildirməli olacaqları şəksizdir. Axı, Fransanın Ermənsitanla humanitar sahədən savayı müttəfiqliyi yoxdur. Onlar bir-birinə yalnız etnik-mənəvi cəhətdən bağlıdırlar. Fransız-erməni qan qardaşlığı barədə isə Fransanın xarici işlər naziri Ketrin Kolonna bölgəyə rəsmi səfəri zamanı İrəvan təmaslarında söyləmişdi.

*İ.HƏSƏNQALA,*
*“Xalq qəzeti”*

# Moskvadan İrəvana açıq mesaj: Sabitlik istəyirsənsə, bizə güvənməlisən

**Ermənistan İkinci Qarabağ müharibəsindən sonra özünə yeni ağa axtarır. Baş nazir Nikol Paşinyan və komandasının üzvləri artıq gizlətmirlər ki, Ermənistanın təhlükəsizlik sistemi problemi var və məmnunluqla Qərbin təhlükəsizlik çətiri altına girməyə hazırdır. Amma günün reallığı budur ki, Qərb Ermənistana missiya göndərməkdən başqa ciddi təhlükəsizlik zəmanət verə bilmir. Bu, həmin missiyadır ki, fəaliyyətindən nə Azərbaycanda, nə Rusiyada, nə də Ermənistanın özündə razıdırlar. Ermənilərin niyə razı olmadıqlarını yaxşı bilirik. Amma Azərbaycan və Rusiyanın narazılıqlarının ciddi əsasları var.**

Avropa İttifaqının (Aİ) Ermənistandakı missiyası (EUMA) fevral ayından Ermənistanda fəaliyyət göstərir. Ötən müddət ərzində EUMA Ermənistanın sərhəd bölgəsində patrul həyata keçirir və Aİ-yə hesabat göndərir. Rəsmi İrəvan Aİ missiyasının regiona gəlməsindən razılığını bildirir. Ermənistan hökuməti düşünür ki, “missiya regionda təhlükəsizliyin, uzunmüddətli sülhün və etimadın möhkəmlənməsinə böyük töhfə verəcək”. Ancaq Azərbaycan və Rusiya Ermənistanın nikbinliyini bölüşmürlər. Yeni missiyanın regiona göndərilməsi Moskvada narazılıq yaradıb. Rusiyada əmindirlər ki, Aİ missiyasının Ermənistan–Azərbaycan sərhədində yerləşdirilməsi qeyri-məhsuldar ola bilər. Hələ yanvar ayında mətbuata açıqlamasında Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirmişdi ki, Aİ missiyası Azərbaycanın razılığı olmadan yerləşdirilərsə, bu, sadəcə olaraq, əks nəticə verər: “Bu, sərhəddə inam yaratmaq əvəzinə, əlavə qıcıq yarada bilər”.

Təbii ki, Azərbaycan da Aİ-nin “mülki” də olsa, regiona yeni missiyası göndərilməsindən razı qalmadı. Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi zamanı demişdi ki, Avropa İttifaqının Ermənistana növbəti missiyanı göndərməsi çox xoşagəlməz haldır. Dövlət başçısı həmin müsahibəsində qeyd etmişdi ki, Praqa görüşündə missiyanın qısamüddətli olacağı və cəmi iki ay çəkəcəyi razılaşdırılmışdı. Ancaq sonra əldə edilmiş razılaşma pozuldu: “Bu, əlbəttə ki, çox məyusedici bir məqamdır. Çünki biz ciddi adamlarıq. Burada ciddi söhbətlər gedir. Biz nəyisə razılaşdırırıqsa, hətta şifahi olsa belə, buna əməl etməliyik”. Prezident İlham Əliyev müsahibəsində Aİ-nin missiya ilə bağlı manipulyasiya etməsinə diqqət çəkmişdi. Dövlət başçısı birmənalı şəkildə xəbərdarlıq etmişdi ki, Aİ-nin Ermənistana yeni missiya göndərməsi təhlükəsizliyi artırmayacaq.

Xatırladaq ki, hazırda Moskva və İrəvan arasında ikitərəfli razılaşmalar çərçivəsində Azərbaycan–Ermənistan şərti sərhədini Rusiya sərhədçiləri qoruyur. Bundan başqa, Rusiya hərbçiləri Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli bəyanatına uyğun olaraq birbaşa Qarabağ zonasında öz sülhməramlı funksiyalarını yerinə yetirirlər. Aİ-nin ilk missiyası ötən il oktyabrın 19-da Ermənistana gəlmişdi. Azərbaycan Prezidenti İlham Əliyev buna cavab olaraq bildirmişdi ki, Bakı Avropa missiyasının Azərbaycan ərazisində yerləşdirilməsinin əleyhinədir, lakin Azərbaycan tərəfinin lazım bildiyi dərəcədə onunla əməkdaşlığa qarşı deyil. Missiyanın uzadılması və avropalı müşahidəçilərin yerləşdirilməsinin ikinci mərhələsinin başlanması Azərbaycanın iştirakı və razılığı olmadan baş verdi ki, bu da Bakıda və Moskvada narazılıq yaratdı.

Əlbəttə ki, Aİ-nin Ermənistandakı vətəndaş missiyası qeyri-legitimdir. Əgər onun fəaliyyəti iki dövlət arasında münasibətlərin normallaşdırılması istiqamətində aparılırsa, bu, hər iki tərəflə razılaşdırılmalıdır. Bundan başqa, vətəndaş missiyasına Fransa və Almaniyanın güc strukturlarının nümayəndələrinin daxil olması narahatlıq doğurur. Bütün bunlar onu göstərir ki, missiya mülki xarakter daşımır. Mütəxəssislərin fikrincə, Avropa belə bir addım atmaqla, Rusiyanı regiondan kənarlaşdırmaq istəyir. Rusiyalı ekspertlər də baş verənləri Avropa İttifaqının, ilk növbədə Fransanın Ermənistan vasitəsilə Cənubi Qafqaza daxil olmaq cəhdi kimi qiymətləndirirlər. Mütəxəssislərin əksər hissəsi Avropa missiyasının regionda sülhün bərqərar olmasına xidmət edəcəyinə inanmadığını da bildirir. Belə bir fikir irəli sürülür ki, Aİ missiyasının praktiki faydası olmayacaq və dünya bunu Fransanın həmsədr olduğu ATƏT-in Minsk qrupunda gördü.



Oxşar fikri Rusiya Xarici işlər nazirinin müavini Mixail Qaluzin də səsləndirmişdi. Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar ilə telefon danışığı zamanı, o, bəyan etmişdi ki, Aİ-nin Ermənistanda missiya yerləşdirmək barədə qərarının konkret geosiyasi fonu var və regionda münasibətlərin nizamlanmasına töhfə vermir. Rusiyalı diplomat Bakı ilə İrəvan arasında bu məsələdə konsensusun olmamasına da diqqət çəkmişdi.

Qeyd edək ki, Rusiya Ermənistana şərti sərhəd zonasında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) qoşun hissələrinin yerləşdirilməsini təklif etmişdi. Dünən Rusiyanın Xarici işlər naziri Sergey Lavrov “Çarqrad” telekanalına müsahibəsində bildirib ki, Ermənistan öz ərazisində KTMT-nin müşahidəçi missiyasını yerləşdirməyə razılıq verərsə, daha stabil vəziyyət əldə edəcək. O, həmçinin jurnalistin ABŞ və müttəfiqlərinin MDB-də vəziyyəti “sarsıtmaq” istəməsi ilə bağlı dediyi fikirlərlə razılaşıb. “Onlar bunu istəyirlər və fəal şəkildə edirlər. Bilirəm ki, ermənilərə deyirlər ki, (bizdə belə məlumatlar var-S.L.), rusları öz ərazinizdən qovun, sərhədçilər də hərbi bazanı çıxarsınlar. Amerikalılar təhlükəsizliyin təmin olunmasına kömək edəcəklər. Açıq desək, bu, təxribatdır, diplomatiya deyil”. Göründüyü kimi, rusiyalı nazir ermənilərə mesaj göndərir ki, Moskvanı hesabdan silmək tezdir və rahatlıq və təhlükəsizlik istəyirsinizsə, Aİ missiyasına yox, Rusiyaya etibar etməlisiniz.

Missiya Ermənistanın özündə də birmənalı qarşılanmır. Məsələn, politoloq Beniamin Matevosyan hesab edir ki, Aİ-nin mülki missiyasında alman polisi və fransız jandarmlarının olması onların Rusiya və İran qoşunlarının hərəkətini izləmələrinə imkan verir. Digər erməni ekspertlər də eyni sözləri təkrarlayırlar. Ermənilər açıq şəkildə deyirlər ki, əllərində ancaq bloknot tutan avropalı missionerlərdən ciddi nəticə gözləməyə dəyməz.

Bəs Aİ Cənubi Qafqazda nəyi güdür və buna nail olmaq üçün hansı vasitələrdən istifadə edir? Mütəxəssislərin fikrincə, avropalı siyasətçilər Cənubi Qafqazda yaranmış yeni reallıqları doğru qiymətləndirmirlər. Öz dəyərlərinə və beynəlxalq qlobal siyasətin onu Aİ-də təmsil etdikləri yol olduğuna inanırlar. Baxmayaraq ki, bu, belə deyil. Amma digər tərəfdən, Aİ üçün, bu, Rusiyanı regiondan sıxışdırmaq cəhdi kimi də qiymətləndirilir. Lakin bu gün heç kimə sirr deyil ki, Avropa hazırda Rusiyanı əvəz edə bilməyəcək, çünki onun regionda qoşunu yoxdur. Ekspertlərin sözlərinə görə, Cənubi Qafqaz elə bir ərazidir ki, orada ilk növbədə ordunun olması zəruridir. Yalnız dəyərlər haqqında danışıb regiona mülki missiya göndərməklə uzağa getmək olmaz. Bu gün Aİ-nin istifadə etməyə çalışdığı regiona təsir rıçaqı maliyyə resursudur. Amma indiki halda bu rıçaq postmüharibə dövründə Ermənistanın təhlükəsizlik problemlərini həll etməyə imkan vermir. Ermənistan yalnız siyasətinin qurbanıdır və regiondankənar təhlükəsizlik çətiri altına sığınmaq istəyi arzu olaraq qalacaq.

*S.ELAY, “Xalq qəzeti”*

# Azərbaycanı beynəlxalq münasibətlər orbitinə çıxaran lider



**XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və 23 aylıq fəaliyyətindən sonra əsrin sonuncu onilliyində dövlət müstəqilliyinin bərpası xalqımızın tarixi taleyinin qəti olaraq müəyyən edilməsində ən önəmli hadisə oldu. Keçmiş ittifaq dövləti daxilində ölkəmizin müstəqillik epoxasına hazırlanması, SSRİ-nin süqutundan sonra isə qazanılmış suverenliyin qorunub saxlanması və möhkəmləndirilib əbədi prosesə çevrilməsi isə ümummilli lider Heydər Əliyevin adı və gerçəkləşdirdiyi tədbirlərlə sıx bağlıdır.**

Müstəqilliyin ilk illərində gənc respublikanın qarşısında hansı yolu seçmək, hansı ictimai-siyasi modelə üstünlük vermək sualı dayanırdı. Problemi mürəkkəbləşdirən bir də o idi ki, ölkə hələ dövlət müstəqilliyini elan etməzdən əvvəl Ermənistanla münaqişə vəziyyətinə düşmüşdü. Xəyanətkar qonşu dövlət müstəqilliyin ilk addımında səriştəsiz siyasi rəhbərliyin fəaliyyətsizliyindən və daxildə hərbi-siyasi qarşıdurma yaratmasından istifadə edərək, eyni zamanda, xarici himayədarlarının köməyi ilə Azərbaycana təcavüz etmiş, ölkəmizin ərazisinin 20 faizini işğal etmişdi.

1993-cü ilin böhranlı yayında ümummilli lider Heydər Əliyev xalqın tələbi ilə respublikaya rəhbərliyi üzərinə götürərək gənc dövləti müstəqilliyini itirməkdən, ərazilərimizin daha çox hissəsini işğal altına düşməkdən, xalqı fəlakətli milli qarşıdurmadan xilas etdi. Eyni zamanda, qanlı müharibəni dayandırmaq, ölkədə sabitlik yaratmaq, milli birliyi möhkəmləndirmək, gənc dövlətin daxili və xarici siyasət konsepsiyasını hazırlamaq, çağdaş dünyada suveren Azərbaycanın tanınmasına nail olmaq, onun dünya birliyində yerini və rolunu müəyyən etmək zəruri idi. Heydər Əliyev gərgin və çoxcəhətli fəaliyyəti ilə bütün bu vəzifələrin öhdəsindən məharətlə gəldi.

Azərbaycan diplomatiyasının, onun milli konsepsiyasının, inkişaf və hərəkət konturlarının əsasını Heydər Əliyev hələ 1969-cu ildə qoymuşdu. O, istər keçmiş Sovet İttifaqında, istərsə də dünyada respublikamızı tanıtmaqla, xarici ölkələrlə mədəni əlaqələr yaratmaqla xalqımızın mövcudluğunu beynəlxalq aləmə təqdim etmişdi. Bu vaxtadək SSRİ-nin xarici siyasi əlaqələrində nəzərəçarpan mövqeyi olmayan Azərbaycan məhz Heydər Əliyev fitri istedadı və diplomatik məharəti sayəsində bir çox dünya dövlətləri rəhbərlərinin, siyasətçilərin, elm və incəsənət xadimlərinin ziyarət yeri oldu. Onların arasında Finlandiya prezidentləri U.Kekkonen və M.Koyvisto, Meksika prezidenti A.Lopes, Portuqaliya prezidenti M.Soares, Vyetnam və ADR rəhbərləri L.Van Donq və V.Ulbrixt və bir çox başqaları vardı. Azərbaycana gəlib, bu gözəl diyarı görəndən sonra onlar vətənlərinə xoş duyğularla qayıdır, xalqımız barədə həqiqəti öz ölkələrinə və xalqlarına çatdırırdılar.

Sovet dövründə Azərbaycan rəhbəri Heydər Əliyev dəfələrlə xarici ölkələrə səfər edən ittifaq və respublika nümayəndə heyətlərinə başçılıq etmişdi. Onun şəxsiyyəti, davranışı, çıxış və nitqlərinə əsasən xalqımız barədə keçmiş ittifaqda və xarici aləmdə yüksək təəssürat yaranmışdı. Ulu öndərin məqsədyönlü fəaliyyəti ilə Azərbaycanın xarici ölkələrdə beynəlxalq sərgilərdə, sovet mədəniyyət günlərində iştirakı, müxtəlif ölkələrin Azərbaycanda təqdimat günlərinin keçirilməsi də ənənə halını almışdı.

Ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıtması isə Azərbaycanın çağdaş milli tarixində yeni mərhələnin başlanğıcını qoydu. Görülmüş tədbirlər nəticəsində dövlətçiliyin zəruri prinsipləri müəyyən edildi və formalaşdırıldı. İqtisadiyyat, siyasət, müdafiə, diplomatiya və s. strukturlar əsaslı surətdə quruldu. Azərbaycan Respublikası nüfuzlu beynəlxalq təşkilatların – Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Şurası və digər təşkilatların tamhüquqlu üzvü kimi beynəlxalq aləmdə fəaliyyətinin genişləndirdi. Biz dünya birliyinə fəal qoşulmağa başladıq. Bütün bunlar isə Heydər Əliyevin böyük səyi və diplomatik istedadı nəticəsində mümkün oldu.

Dünya Prezident Heydər Əliyevin simasında böyük tarixi şəxsiyyəti görürdü. O, dünya diplomatiyasının ulduzları ilə bir sırada dayanır və çox vaxt onlara üstələyirdi. Heydər Əliyev haqqında çağdaş diplomatiyanın H.Kissincer, Z.Bjezinski, Butros B.Qali kimi nəhəngləri, habelə dünyanın ən iri dövlətlərinin başçıları – ABŞ prezidentləri B.Klinton, C.Buş, Fransa prezidentləri F.Mitteran və J.Şirak, Böyük Britaniyanın baş nazirləri M.Tetçer və T.Bleyer, Rusiya prezidenti V.Putin, Ukrayna prezidenti L.Kuçma, Qazaxıstan prezidenti N.Nazarbayev, Özbəkistan prezidenti İ.Kərimov, Gürcüstan prezidenti E.Şevardnadze, Türkiyə prezidentləri S.Dəmirəl, A.Gül, Ə.Sezər və başqaları dəfələrlə dərin hörmətlə söz açmışlar.

Azərbaycan Prezidenti Heydər Əliyevin tarixin şəxsiyyət kimi böyüklüyü və siyasi-diplomatik istedadı ATƏT-in Budapeşt, Lissabon və İstanbul zirvə görüşlərində, BMT-nin sessiyalarında, İƏT-nin Kasablanka və Tehran sammitlərində, Vaşinqton, Paris, Pekin, London, Moskva, Tokio, Ankara, Kiyev, Ər-Riyad, Varşava, Vyana, Roma, Berlin, Madrid və s. paytaxt şəhərlərə səfərlər zamanı aparılmış söhbət və danışıqlarında özünü xüsusilə büruzə vermişdir.

Sərhədlərimizin toxunulmazlığını müdafiə edərək Heydər Əliyev ATƏT üzvü olan dövlətlər tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyü barədə bəndlərin ATƏT sammitlərinin qərarlarına daxil edilməsinə nail oldu. Heydər Əliyev Azərbaycan rəhbərliyinə gəldikdən sonra onun Qarabağ münaqişəsinə dair BMT-nin sonuncu 3 qətnaməsində Dağlıq Qarabağın Azərbaycanın ərazisi olması əksini tapdı. Heydər Əliyev rəhbərliyə gəlməzdən əvvəl isə BMT Təhlükəsizlik Şurasının 1993-cü il aprelin 30-da qəbul etdiyi qətnaməsində Dağlıq Qarabağın Azərbaycana məxsusluğu barədə heç bir söz deyilməmişdi.

BMT-nin Minillik yubiley sessiyasında Azərbaycan Respublikası Prezidenti kimi heydər Əliyevin nitqi dünya görmüş bir çox siyasətçi və diplomatlarda yüksək təəssürat yaratdı. BMT Baş Assambleyasının sessiyasında çıxış edərkən o, çox böyük cəsarətlə həmin beynəlxalq təşkilatı Ermənistan–Azərbaycan münaqişəsinin nizama salınmasında fəaliyyətsizliyinə görə ciddi qınadı. Böyük dövlətlərin paytaxtlarına rəsmi səfərlərə gedərkən də Heydər Əliyev həmin ölkələrin rəhbərlərinin və ictimaiyyətin diqqətini Ermənistan–Azərbaycan münaqişəsinə, bir milyon qaçqın və məcburi köçkünün probleminə, ərazimizin 20 faizinin işğalına, Qarabağ probleminin ədalətli həllinə cəlb edirdi. Ulu öndər sənəd və faktları ortaya qoyub sübut edirdi ki Ermənistan işğalçı dövlətdir. Bu dövlət Azərbaycan xalqına və deməli, bəşəriyyətə qarşı cinayətlər törətdiyinə görə məsuliyyət daşımalıdır.

Heydər Əliyevin diplomatik istedadı qonşu dövlətlərlə bağlı təmkinli və tarazlaşdırılmış siyasətində də öz təcəssümünü tapmışdır. Onun əzmkarlığı və məntiqi, ölçülü-biçili siyasəti sayəsində qonşumuz olan Rusiya Federasiyası ilə normal və dostluq münasibətləri quruldu. Gürcüstan və Türkiyə ilə əlaqələrimiz yüksək səviyyəyə qalxdı. Dövlətimizin başçısı 30 milyondan çox azərbaycanlının yaşadığı İran İslam Respublikası ilə münasibətlərədə son dərəcə həssaslıqla yanaşırdı. Azərbaycan Prezidenti Heydər Əliyevin diplomatik fəaliyyətində Səudiyyə Ərəbistanı, Misir, Pakistan, İordaniya, Mərakeş və başqa dövlətlərlə münasibətlərin möhkəmləndirilməsi və inkişafı xüsusi yer tuturdu.

İslam Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin rəhbərlərinin Kasablankadakı görüşündə Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən iki qətnamə, xüsusən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə qətnamə qəbul olunmuşdu. Həmin qətnamədə erməni silahlı qüvvələrinin Azərbaycan ərazisinə təcavüzü ilk dəfə beynəlxalq səviyyədə pislənmiş, Ermənistan isə birmənalı surətdə təcavüzkar dövlət hesab edilmişdi. Qətnamədə erməni qoşunlarının işğal edilmiş bütün Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılması tələbi də əksini tapmışdı.

Rəsmi, işgüzar səfərlərdə, yaxud beynəlxalq konfranslar və zirvə görüşlərində olarkən Heydər Əliyev həmişə Azərbaycan diasporu və müxtəlif səbəblər üzündən müxtəlif vaxtlarda dünyanın ayrı-ayrı ölkələrinə köçüb yaşayan azərbaycanlılarla ünsiyyət yaratmağa çalışırdı. Xaricdə yaşayan vətəndaşlarımızla bütün görüş və söhbətlərində Heydər Əliyev onlarda Vətənə, doğma dilə, mədəniyyətə, mənəvi köklərə məhəbbət oyatmağa çalışır, onlara Azərbaycan Respublikasının qarşısında duran problemlər haqqında məlumat verir, dədə-baba torpaqlarını unutmamağı, ona əllərindən gələn köməyi əsirgəməməyi tövsiyə edirdi.

Azərbaycan dövləti Heydər Əliyevin məqsədyönlü diplomatik fəaliyyəti və özünün nadir coğrafi siyasi mövqeyi sayəsində çağdaş beynəlxalq münasibətlərdə möhkəm yer tutur. Müstəqilliyimizin 30 ili ərzində Heydər Əliyevin həyata keçirdiyi müstəqil Azərbaycanın milli diplomatiyası zəngin irsi yolu keçib və gələcəyə nikbin nəzərlərlə baxmağa hər cür əsas verir.

***Ağalar ABBASBƏYLİ,***
***BDU beynəlxalq münasibətlər kafedrasının müdiri, professor***

---

*Ulu öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir və biz – onun davamçıları onun yolu ilə gedirik. 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Şuşa, 10 may 2023-cü il**

*Cümhuriyyətimizin 100-cü ilini qeyd edəcəyimiz 2023-cü ilin Azərbaycanda da "Heydər Əliyev İli" olaraq qəbul edilməsindən məmnunluq duyuruq. Ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsini birlikdə yaşatmağa davam edəcəyik.*

***Rəcəb TAYYİB ƏRDOĞAN***

**Cəbrayıl şəhəri, 20 oktyabr 2022-ci il**

# "Heydər Əliyev İli" dünyanı gəzir

**Azərbaycan Prezidentinin sərəncamı ilə elan edilən, bütün dövlət qurumları və xalqımızın hər bir fərdi tərəfindən məmnunluq və mütəşəkkilliklə icra olunan, üstəlik, demək olar ki, bütün dünyanı gəzib-dolaşan "Heydər Əliyev İli"nin beynəlxalq aləmdəki əks-sədası barədə qəzet materialı hazırlamaq o qədər də asan deyil. Çünki həm bu məqsədlə müxtəlif ölkələrdə keçirilən tədbirlər çoxdur, həm də dünyanın görkəmli simalarının ulu öndərimiz haqqında söylədiyi dəyərləndirmələr.**



Ona görə də biz bu yazının girişini məşhur qazax şairi, yazıçısı, ictimai xadim və siyasətçisi Oljas Süleymenovun ulu öndər barədə söylədiyi fikirlərlə başlayırıq: "Heydər Əliyev ilə tez-tez görüşmürdüm. Amma hər görüşün bir ömürlük xatirəsi var. O, demək olar ki, mənim müəllimim idi. Heydər Əliyev, Dinmuhammed Kunayev – bu insanlar mənim siyasi və ümumtürk dünyagörüşümü formalaşdırıblar".

Ümummilli liderin həyat və fəaliyyətini xarakterizə edən çoxsaylı çıxış və müsahibələrdən, məqalə və sitatlardan məhz bu ifadələri seçməyimiz təsadüfi deyil. Çünki bu gün "Heydər Əliyev İli" münasibətilə Türk dünyasının istənilən guşəsində keçirilən tədbirdə "Heydər Əliyevin ümumtürk dünyagörüşü" ifadəsi, demək olar ki, hər gün təkrar olunur. Ancaq, bu o demək deyil ki, o böyük tarixi şəxsiyyət təkcə ümumtürk dünyagörüşü tərəfdarları tərəfindən yüksək qiymətləndirilir. Elə deyil.

Dünyanın mütərəqqi siyasətçilərinin və ziyalılarının hamısı onu başəri dəyərlərə böyük önəm verən, daim sülhə can atan, elm, təhsil və mədəniyyətin himayədarı, ən başlıcası, böyük qurucu insan kimi qiymətləndirir. Təsadüfi deyil ki, 2003-cü il dekabrında – ulu öndərin dəfnində iştirak edən gürcüstanlı siyasətçilərdən biri demişdi ki, Bakının hansı prospekti ilə getsən, Heydər Əliyevin 1969–1982-ci illərdə tikdirdiyi yaşayış binasını, təhsil müəssisəsini və ya sənaye mərkəzini görəcəksən.

"Heydər Əliyev İli" dünyanı gəzir" arqumentimizi konkret faktlarla əsaslandıraq. Məsələn, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda oxuyuruq ki, adı çəkilən tədbirlə bağlı bu Orta Asiya ölkəsində keçirilən müxtəlif məzmunlu tədbirlərin sayı-hesabı yoxdur: "Mübaliğəsiz qeyd etmək olar ki, bu əlamətdar yubiley münasibətilə Özbəkistanda Heydər Əliyevin mənalı həyat yoluna və örnək fəaliyyətinə həsr olunmuş çoxsaylı "dəyirmi masa"lar, müxtəlif mədəni-maarif tədbirləri, elmi-bədii ədəbiyyatların nəşri özbək xalqının bu dahi şəxsiyyətə hədsiz ehtiramının parlaq ifadəsidir".

Yaxud, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko dövlət başçımıza göndərdiyi məktubda qeyd edir ki, mən əsl strateji düşünmə qabiliyyətini Heydər Əlievdən öyrənmişəm: "Mən onun 25 il əvvəl söylədiyi sözləri xatırlayıram: "Azərbaycan mənim ürəyimdir. Azərbaycan mənim nəfəsimdir. Azərbaycan mənim həyatımdır". Əminəm ki, həyatının mənasını ölkəsinə xidmət etməkdə görən belə vətənpərvər şəxsiyyəti əbədi olaraq xatırlayacaqlar. Mənə nadir insan, böyük siyasi xadim, müasir Azərbaycan dövlətinin banisi hörmətli Heydər Əlirza oğlunu şəxsən tanımaq nəsib olub. Ondan siyasi müdrikliyi, təmkinliliyi, əsl strateji düşünmə qabiliyyətini məmnunluqla öyrənmişəm".

Ulu öndərin ən çox önəm verdiyi məsələlərdən biri də, yaxın qonşumuz olan ölkələrlə dostluq və tərəfdaşlıq münasibətinin daim qorunması və inkişaf etdirilməsi idi. Bu faktın təsdiqini Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda da görürük: "Gürcüstan ilə Azərbaycan arasında strateji münasibətlərin qurulmasında dahi Heydər Əliyevin fundamental rolunu vurğulayaraq qeyd etmək istəyirəm ki, onun bu xidmətləri daim yaşayacaqdır. İnanıram ki, biz birgə səylərimizlə strateji tərəfdaşlığımızı xalqlarımızın və bütün regionun rifahı naminə daha da inkişaf etdirməyə davam edəcəyik".

Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill Azərbaycan Prezidentinə ünvanladığı məktubda isə ulu öndərimizin siyasi fəaliyyətinin başqa bir istiqaməti yüksək qiymətləndirilir: "Sizin atanızın... dinlərarası dialoqun inkişafına, millətlərarası sülhün və vətəndaş barışığının yaradılmasına verdiyi böyük şəxsi töhfəni minnətdarlıqla qeyd etmək istəyirəm".

"Rossiya-24" telekanalının "Heydər Əliyev İli" münasibətilə hazırladığı bir saatlıq müəllif proqramı başda olmaqla, Avrasiyanın müxtəlif mətbuat vasitələrində verilmiş məqalələr, dost ölkələrin, demək olar ki, əksəriyyətində yazılan kitablar, ucaldılan abidələr, salınan xiyaban və küçələr, keçirilən ictimai-siyasi, elmi-kütləvi məzmunlu konfrans, simpozium və görüşlər ulu öndərimizin bir əsrlik yubileyinə verilən önəm, qiymət və dəyərin göstəricisidir.

Bu möhtəşəm yubiley ilə bağlı olan fikirlərimizi mühüm faktlardan birini xatırlatmaqla yekunlaşdırmaq istəyirik. Belə ki, mayın 16-da Azərbaycan Respublikası Milli Məclisinin xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında, ümumilikdə 228 nəfər, o cümlədən, 12 parlament sədri, 15 parlament sədrinin müavini, 57 parlament üzvü, 4 beynəlxalq parlament təşkilatının, eləcə də diplomatik korpusun təmsilçiləri qismində əcnəbi dostlarımız istirak edirdi. Fikrimizcə, bu rəqəmlər adiu bir say göstəricisi deyildi. Bu rəqəmlər Azərbaycan xalqının böyük oğlunun xatirəsinə göstərilən ehtiramın təsdiqi, sübutu idi.

Dövlət başçımızın dediyi kimi, Heydər Əliyev siyasi kursu uğurla davam etdirilir və bu siyasət bizi daha böyük nailiyyətlərə aparacaq.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

---

# Özbəkistanda Heydər Əliyevin yubileyi münasibətilə poçt markası buraxılıb

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin sifarişi ilə Dövlət Poçt İdarəsi Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş poçt markası buraxılıb.**

Üzərində ulu öndərin portreti əks olunan poçt markası 2023-cü ilin Azərbaycan Prezidenti tərəfindən "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar olaraq hazırlanıb.



Poçt markası xatirə məqsədilə Azərbaycan və Özbəkistanın muzeylərinə, hər iki ölkənin dövlət və hökumət nümayəndələrinə göndərilməklə yanaşı, Özbəkistanda daxili və beynəlxalq dövriyyəyə də buraxılacaq.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzindən mətbuata bildirilib ki, ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər davam edir.

***Qulu KƏNGƏRLİ,***
***"Xalq qəzeti"***

**Daşkənd**

# “Pasportlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1305-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 noyabr tarixli 349 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Pasportlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1305-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 noyabr tarixli 349 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2262) 3.2-ci bəndində “həyata keçirir” sözləri “və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti həyata keçirirlər” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 may 2023-cü il**

# Vyetnamda Heydər Əliyev Fondunun tikdirdiyi məktəbdə ulu öndərin xatirəsi anılıb

**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi tədbirləri çərçivəsində Heydər Əliyev Fondunun Vyetnamın Hazianq əyalətində inşa etdirdiyi məktəbin müəllim-şagird kollektivi ilə görüş keçirilib.**





Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən qəzetimizə bildirilib ki, əyalətin Bakme rayonunun Ziap Çunq qəsəbə məktəbində keçirilən tədbirdə çıxış edən ölkəmizin Vyetnamdakı səfiri Şövqi Mehdizadə görkəmli dövlət xadimi Heydər Əliyevin öz xalqına xidmətdə keçmiş həyatından danışıb, onun ölkələrimiz arasında dostluq əlaqələrinin möhkəmlənməsindəki əvəzsiz rolunu vurğulayıb.

Görüşdə bildirilib ki, ulu öndərin adını daşıyan, onun ideyalarını yaşadan Heydər Əliyev Fondu ölkəmizdə və xaricdə bir sıra sosialyönümlü layihə həyata keçirib. Ziap Çunq qəsəbəsində ibtidai məktəb binasının inşası Heydər Əliyev Fondunun xeyirxahlıq missiyasının göstəricisi olmaqla yanaşı, Azərbaycanın Vyetnam ilə münasibətlərə verdiyi önəmin təzahürüdür.

Məktəbin direktoru qeyd edib ki, ulu öndərin adını daşıyan fondun dağlıq Ziap Çunq qəsəbəsində inşa etdirdiyi məktəb binası burada yaşayan uşaqlara müasir təhsil almaq imkanları yaradıb. O, bu humanist addıma görə Azərbaycana və Heydər Əliyev Fonduna dərin təşəkkürünü ifadə edib.

Sonda məktəbin şagirdlərinə ölkəmizin milli suvenirləri hədiyyə edilib.

***“Xalq qəzeti”***

# ABŞ Dövlət Departamentinin dini azadlıqlarla bağlı hesabatı ölkəmizdə etirazla qarşılandı

**Dünən Azərbaycanda fəaliyyət göstərən bir qrup qeyri-hökumət təşkilatı Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti tərəfindən bu günlərdə açıqlanan dünyada dini azadlıqların vəziyyətinə dair növbəti illik hesabatına qarşı etiraz bəyanatı yayıb. Sənəddə deyilir:**

“Bu yaxınlarda ABŞ Dövlət Departamentinin rəsmi saytında 2022-ci il üzrə beynəlxalq dini azadlıqla bağlı hesabatda Azərbaycan barədə yazı dərc olunub. Hesabatda ölkəmizin dini və mədəni obyektlərin, xüsusilə də bu yaxınlarda Ermənistanın nəzarətindən azad edilmiş ərazilərinin mühafizəsinə səhlənkar yanaşıldığı göstərilir. Bu, təəssüf doğuran təhrifdir.

Azərbaycanın işğal olunmuş ərazilərinə vurulan zərərə və dağıntılara, xüsusilə də Ağdam, Füzuli və digər ərazilərin demək olar tamamilə dağıdılması və talan edilməsi, habelə son 30 il ərzində mədəni irsin istismarına görə Ermənistan tərəfi məsuliyyət daşıyır. Ermənistanın nəzarəti altında olarkən bu ərazilərdə yüzlərlə abidələr, məscid, ziyarətgah talan edilib, qəbiristanlıqlarımız vandalizmə, təhqirlərə məruz qalıb və ya tamamilə dağıdılıb, torpaqlarımız minalanmış sahəyə çevrilib.

Necə olur ki, bizim həmişə azadlıq və demokratiya çırağı kimi qəbul etdiyimiz ABŞ heç vaxt bu hərəkətlərdən narahat olmayıb. ABŞ dini fanatiklərin əməllərindən əziyyət çəkdi. Bu ölkə dinindən asılı olmayaraq, “Allahın döyüşçüləri”nin gətirdiyi dəhşətlərdən xəbərdardır. Ancaq görünən odur ki, BMT ölkəmizi öz vətəndaşlarını qorumaq əzminə görə ittiham edir”.

Bəyanatın sonunda qeyd edilir ki, ermənilərin işğal zamanı törətdikləri vandallıqlara heç nə haqq qazandıra bilməz. Ancaq məsələ ondadır ki, Azərbaycan tərəfindən heç vaxt belə bir addım atılmayıb: “Biz Azərbaycanın istənilən dini və ya mədəni irsini qoruyub saxlamağa sadiqik. Bununla belə, biz heç kimə tariximizi təhrif etməyə, yenidən yazmağa imkan verməyəcəyik”.

**“Xalq qəzeti”**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 156** **Bakı şəhəri, 15 may 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə” 1999-cu il 15 mart tarixli 40 nömrəli, “İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydalarının təsdiq edilməsi haqqında” 2000-ci il 28 fevral tarixli 27 nömrəli, “Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə” 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli, “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli, “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” 2010-cu il 3 noyabr tarixli 196 nömrəli, “Ünvanlı dövlət sosial yardımı almaq hüququna malik olan aztəminatlı ailələrə məxsus yaşayış evlərinin və mənzillərin icbari sığortası üzrə sığorta haqlarının dövlət büdcəsinin vəsaitləri hesabına ödənilməsi Qaydası”nın təsdiq edilməsi barədə” 2012-ci il 24 fevral tarixli 43 nömrəli və “Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobuslara və taksi minik avtomobillərinə, onların sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair Tələblər”in təsdiq edilməsi haqqında” 2019-cu il 4 mart tarixli 73 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

“İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 18 oktyabr tarixli 610-VIQD nömrəli Qanununun tətbiqi və “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanunun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 12 noyabr tarixli 1877 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 196; 2001, № 10, maddə 663; 2003, № 6, maddə 342; 2005, № 4, maddə 386; 2006, № 5, maddə 463, № 9, maddə 822; 2008, № 2, maddə 125, № 8, maddə 782; 2011, № 5, maddə 455; 2012, № 5, maddə 487, № 7, maddə 776, № 9, maddə 921; 2013, № 6, maddə 575, № 8, maddə 1021, № 11, maddə 1462; 2015, № 4, maddələr 463, 467; 2016, № 2 (II kitab), maddə 386, № 4, maddə 810; 2017, № 4, maddələr 620, 646; 2018, № 5, maddə 1119, № 10, maddələr 2166, 2175, № 11, maddə 2442; 2021, № 7, maddə 881) ilə təsdiq edilmiş “Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasnamə”nin 3.2-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 5-ci yarımbənd ləğv edilsin;

1.2. aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

“Avtonəqliyyat vasitələri “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sahiblərinin mülki məsuliyyəti icbari qaydada sığortalandıqda, sərnişin daşımaları xidmətini həyata keçirən avtonəqliyyat vasitələrinə münasibətdə isə habelə sərnişinlərinin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortası həyata keçirildikdə texniki baxışa buraxılır. Bu halda müvafiq icbari sığorta müqaviləsinin mövcudluğu “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan elektron informasiya sistemi vasitəsilə yoxlanılır.”.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 28 fevral tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 123; 2005, № 11, maddə 1061; 2006, № 9, maddə 822; 2008, № 2, maddələr 116, 130, № 5, maddə 430; 2010, № 3, maddə 264; 2011, № 5, maddə 449; 2013, № 6, maddə 723; 2015, № 7, maddə 901; 2018, № 12 (II kitab), maddə 2737; 2019, № 3, maddə 512; 2021, № 10, maddə 1199; 2022, № 9, maddə 1098) ilə təsdiq edilmiş “İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.2-ci bəndin yeddinci abzasının ikinci cümləsinə “sənədlər” sözündən sonra “və məlumatlar” sözləri əlavə edilsin;

2.2. 3.5-ci bəndi üzrə:

2.2.1. birinci abzasa “sənədlər” sözündən sonra “və məlumatlar” sözləri əlavə edilsin;

2.2.2. on birinci abzasda “müqaviləsinin surəti” sözləri “müqaviləsi barədə məlumatlar (müqavilənin tarixi, tərəfləri və zərərçəkənin sığorta təminatı)” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693; 2001, № 11, maddə 722; 2002, № 3, maddə 148, № 7, maddə 455, № 10, maddə 635; 2003, № 10, maddə 629; 2005, № 4, maddə 386, № 6, maddə 534, № 8, maddə 782, № 10, maddə 977, № 11, maddə 1061, № 12, maddələr 1228, 1231; 2006, № 3, maddə 297, № 8, maddə 731, № 9, maddə 830, № 10, maddə 902, № 11, maddə 994; 2008, № 2, maddə 108, № 4, maddə 316, № 8, maddə 787; 2009, № 2, maddə 148, № 10, maddələr 846, 849, № 12, maddə 1079; 2010, № 6, maddə 555; 2011, № 10, maddə 971; 2012, № 3, maddə 263, № 5, maddələr 489, 495, № 7, maddə 777, № 11, maddə 1206, № 12, maddə 1354; 2013, № 4, maddə 444, № 5, maddə 578; 2014, № 1, maddə 74, № 5, maddələr 552, 589, № 6, maddə 746, № 8, maddə 1019, № 12, maddə 1685; 2015, № 12, maddə 1580; 2016, № 3, maddə 611, № 4, maddələr 777, 814, № 6, maddə 1226, № 8, maddə 1449, № 11, maddə 1937; 2017, № 1, maddə 135, № 3, maddə 493, № 6, maddə 1245, № 7, maddə 1491, № 9, maddə 1721, № 10, maddə 1883, № 12 (II kitab), maddə 2545; 2018, № 2, maddə 347, № 3, maddə 628, № 4, maddə 789, № 5, maddə 1122, № 6, maddələr 1360, 1367, № 9, maddə 1929, № 10, maddə 2166; 2019, № 1, maddə 169, № 3, maddələr 513, 564, № 5, maddələr 938, 967, № 6, maddə 1172, № 7, maddələr 1325, 1338, № 10, maddə 1674; 2020, № 6, maddə 783, № 10, maddələr 1282, 1299, № 12 (V kitab), maddə 1580; 2021, № 3, maddə 302, № 12, maddə 1509; 2022, № 4, maddə 414) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat”ın 7-ci hissəsinin otuzuncu abzası otuz birinci abzas hesab edilsin və aşağıdakı məzmunda otuzuncu abzas əlavə edilsin:

“İcbari sığortalar haqqında” Azərbaycan Respublikası Qanununun 34-2.0.9-cu maddəsində nəzərdə tutulmuş məlumatlar (daşınmaz əmlakın və nəqliyyat vasitəsinin icarə və ya digər əşya hüquqlarına dair müqavilədə, yaxud nəqliyyat vasitəsindən istifadə edilməsi və ya ona dair sərəncam verilməsi hüquqları ilə bağlı etibarnamədə əks olunan məlumatlar) “Elektron notariat” informasiya sistemindən sorğu əsasında real vaxt rejimində İcbari Sığorta Bürosuna ötürülür.”.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 745; 2010, № 11, maddə 1041, № 12, maddə 1125; 2011, № 4, maddə 372; 2013, № 8, maddə 1025, № 12, maddə 1629; 2014, № 7, maddə 945, № 8, maddə 1014; 2016, № 2 (II kitab), maddə 354, № 3, maddə 592, № 4, maddələr 779, 804, 817, № 5, maddə 964; 2017, № 4, maddələr 633, 650, № 5, maddə 980, № 8, maddə 1609; 2018, № 4, maddə 806, № 5, maddə 1107, № 7 (II kitab), maddə 1625, № 9, maddə 1920, № 10, maddə 2175, № 11, maddələr 2443, 2444; 2019, № 1, maddə 161, № 3, maddələr 515, 569, № 12, maddə 2094; 2020, № 9, maddə 1239, № 10, maddələr 1281, 1291; 2021, № 4, maddə 411; 2022, № 4, maddə 383, № 9, maddə 1099, № 12, maddə 1552) ilə təsdiq edilmiş “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları”nın 3.5.4-cü yarımbəndi ləğv edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 noyabr tarixli 196 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1031; 2013, № 9, maddə 1139; 2014, № 2, maddə 204, № 7, maddə 903, № 10, maddə 1298; 2019, № 3, maddə 514) ilə təsdiq edilmiş “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə sığorta ödənişinin təyin edilməsi üçün sənədlərin Siyahısı”nın 1.1.1-ci yarımbəndi ləğv edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 fevral tarixli 43 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 186; 2016, № 8, maddə 1436; 2017, № 3, maddə 505) ilə təsdiq edilmiş “Ünvanlı dövlət sosial yardımı almaq hüququna malik olan aztəminatlı ailələrə məxsus yaşayış evlərinin və mənzillərin icbari sığortası üzrə sığorta haqlarının dövlət büdcəsinin vəsaitləri hesabına ödənilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.1-ci bəndə “Qanununun” sözündən sonra “(bundan sonra – Qanun)” sözləri əlavə edilsin;

6.2. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.1. Aztəminatlı ailələrə məxsus yaşayış evlərinin və mənzillərin sığortalanması üzrə müvafiq icbari sığorta müqavilələri bağlamış sığortaçı həmin müqavilələrdə nəzərdə tutulan sığorta haqlarını dövlət büdcəsi vəsaiti hesabına almaq üçün tərtib olunan rüblük hesabatı və aşağıdakı sənədləri Azərbaycan Respublikasının Mərkəzi Bankına (bundan sonra – Mərkəzi Bank) təqdim edir:”;

6.3. 3.1.1-ci yarımbənddə “surətini” sözü “xarici təqdimat forması” sözləri ilə əvəz edilsin;

6.4. 3.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.2. Mərkəzi Bank bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulmuş hesabata və sənədlərə onlar Mərkəzi Banka daxil olduğu tarixdən 10 iş günü müddətində baxır və müvafiq icbari sığorta müqaviləsinin mövcudluğunu Qanunda nəzərdə tutulan elektron informasiya sistemi vasitəsilə yoxlayır.”;

6.5. 3.6.1-ci yarımbənddən “təqdim olunmuş hesabata əlavə edilməli olan” sözləri çıxarılsın;

6.6. mətn üzrə ismin müvafiq hallarında “Palata” sözü ismin müvafiq hallarında “Mərkəzi Bank” sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli 73 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 507; 2020, № 9, maddə 1239, № 10, maddələr 1281, 1291, № 11, maddə 1408; 2019, № 12, maddə 1532; 2022, № 3, maddə 261, № 12, maddə 1552) ilə təsdiq edilmiş “Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobuslara və taksi minik avtomobillərinə, onların sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair Tələblər”in 6.6-cı bəndindən “icbari sığorta şəhadətnamələri,” sözləri çıxarılsın və həmin bəndə “və digər” sözlərindən əvvəl “icbari sığorta şəhadətnamələri barədə” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 158** **Bakı şəhəri, 16 may 2023-cü il**

***“İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun tərkibi, təşkili və fəaliyyəti qaydası”nın təsdiq edilməsi haqqında***

“İnsan alverinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 616-VIQD nömrəli Qanununun tətbiqi və “İnsan alverinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 6 dekabr tarixli 1895 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun tərkibi, təşkili və fəaliyyəti qaydası” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Ceyhun Bayramov: İspaniya ilə çoxtərəfli əlaqələr genişlənir



**Mayın 17-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Avropa Şurasının Dövlət və Hökumət Başçılarının 4-cü Zirvə Görüşü çərçivəsində İspaniya Krallığının xarici işlər, Avropa İttifaqı və əməkdaşlıq naziri Xose Manuel Albares Bueno ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, görüşdə Azərbaycan ilə İspaniya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində duran aktual məsələlər, o cümlədən regionda baş verən hadisələr müzakirə olunub.

Nazir Ceyhun Bayramov iki ölkə arasında müxtəlif sahələr, o cümlədən siyasi, iqtisadi, enerji təhlükəsizliyi, mədəni, humanitar, turizm və s. sahələr üzrə əməkdaşlıq gündəliyindən bəhs edərək, əlaqələrin inkişafı perspektivlərinin geniş olduğunu bildirib. Bu xüsusda, iki ölkə arasında alternativ enerji resurslarının inkişafı sahəsində də əməkdaşlıq imkanlarının olduğu qeyd edilib.

İkitərəfli münasibətlərin inkişafında qarşılıqlı səfərlərin, eləcə də siyasi dialoqun gücləndirilməsi baxımından təmasların artırılmasının əhəmiyyəti vurğulanıb.

Postmünaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycanın bölgədə bərpa, quruculuq və sülh səyləri barədə qarşı tərəfi məlumatlandıran nazir Ceyhun Bayramov Ermənistan tərəfinin davamlı hərbi-siyasi təxribatlarının, mina təhdidini davam etdirməsinin sülh prosesinin irəlilədilməsinin qarşısında duran əsas çağırışlardan olduğunu vurğulayıb. Azərbaycanın ərazi bütövlüyü və suverenlik prinsipləri əsasında sülh prosesinə sadiqliyi diqqətə çatdırılıb.

Nazir Xose Manuel Albares Bueno Azərbaycanla həm ikitərəfli səviyyədə, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqda maraqlı olduqlarını bildirib. Bu xüsusda, iki ölkə arasında münasibətlərin inkişafında keçirilmiş siyasi məsləhətləşmələrin rolu müsbət qiymətləndirilib. Nazir Xose Manuel Albares Bueno İspaniyanın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində danışıqlar prosesini dəstəklədiyini qeyd edib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*“Xalq qəzeti”*

# Paşinyansayağı demokratiya, Qarabağ və Azərbaycanın ərazi bütövlüyü

*Yaxud Ermənistan baş nazirinin Avropa Şurası sammitindəki çıxışı ilə bağlı qeydlər*

**“Ermənistan Azərbaycanın 86600 kvadratkilometrlik ərazi bütövlüyünü tanıyır. Azərbaycan da öz növbəsində, Ermənistanın 29800 kvadratkilometrlik ərazi bütövlüyünü tanıdığını bəyan edib”. Bunu Ermənistan baş naziri Nikol Paşinyan dünən Avropa Şurasının İslandiyanın paytaxtı Reykyavikdə keçirilmiş sammitindəki çıxışında deyib.**

Görünür, Paşinyan mayın 14-də “Brüssel formatı” çərçivəsində, Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi nəticəsində Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüşdə əldə olunmuş razılaşmanı həm beynəlxalq, həm də yerli ictimai rəyə yeritmək istəyir. Nəinki yeritmək, bunu özünün uğuru kimi təqdim etmək niyyəti güdür. Halbuki, söhbət onun şəxsən qazandığı uğurdan getmir. Çünki rəsmi İrəvan Brüssel görüşünədək, 1975-ci il xəritələrinə baş vurub avantüra gerçəkləşdirmək xəyalına düşmüşdü, amma alınmamışdı.

Qeyd etdiyimiz sonuncu məqamı bir kənara qoyub, erməni baş nazirin daha bir fikrinə diqqət yetirmək istərdik. Nikol bildirir ki, uzun illər Qarabağ münaqişəsinin mövcudluğu Ermənistanda demokratiyanın olmamasının bəraətinə çevrilmişdi. Özünün hakimiyyətə gəldiyi 2018-ci ilin məxməri inqilabı isə, sən demə, demokratik inkişaf üçün şərait yaradıbmış.

Paşinyanın bu formada münasibət bildirməsi heç də təsadüfi deyil. O, Qarabağ müstəvisində özünə ünvanlanmış qəzəbi sıradan çıxarmaq naminə demokratiya amilinə söykənir. Nəzərə alaq ki, demokratiya Nikolun, kifayət qədər, ciddi sığortasıdır. Yəni, Paşinyan demək istəyir ki, Qarabağ əldən getdiyi üçün inqilab nəticəsində yaranmış hakimiyyət təhlükə qarşısındadır. Faktiki olaraq, o, beynəlxalq ictimaiyyətdən öz iqtidarının qorunması naminə səfərbərliyi gücləndirməyi tələb edir. Paşinyanın nəzərində Ermənistanın indiki hakimiyyətinin müdafiə olunması, Cənubi Qafqazda demokratiyanın sıradan çıxmasına yol verməməkdir. Əlbəttə, onun sözlərində vurğunu 2018-ci ilədək mövcud olmuş və dünyanın qeyri-demokratik kimi gördüyü Ermənistan iqtidarının üzərinə qoymaq motivi də var. O iqtidara ki, Rusiya tərəfindən idarə olunurdu...

Qeyd edək ki, Paşinyanın demokratiyanı alətə çevirməsi halları bundan əvvəl də yaşanıb. O, dünən İslandiyanın paytaxtında çıxış edərkən, 2020-ci ildə Azərbaycanın Qarabağa hücum etdiyini vurğulayır və bildirir ki, bunun nəticəsində ölkəsi müharibəyə cəlb olundu. Halbuki, özünün səsləndirdiyi “Qarabağ Ermənistandır” bəyanatını unudur. Yəni, müharibəyə səbəb olmuş, həmin vaxtadək Qarabağ münaqişəsi müstəvisindəki danışıqların ruhuna xələl gətirən bəyanatı. Ermənistanın 2018-ci ilə qədərki və anti-demokratik sayılan hakimiyyətlərinin heç biri bu cür hədsizliyə yol verməmişdilər. Demokratik Paşinyan isə bunu etdi və beynəlxalq hüququ tapdaladı. Təbii, cəzasını da aldı.

Bəli, Paşinyan “Qarabağ Ermənistandır” deyib bağıranda da dünyanın Ermənistan demokratiyasını qoruyacağını düşünmüş, özünü isə demokratiyanın qladiatoru saymışdı. Azərbaycan hücuma keçib öz doğma torpaqlarını işğaldan azad edərkən, birincisi, Bakı İrəvanın daha böyük ərazilər ideyasını gerçəkləşdirmək məqsədli təxribatına cavab verdi. İkincisi isə Qarabağ bu gün Paşinyanın tanımaq məcburiyyətində qaldığı 86600 kvadratkilometrlik əraziyə daxildir. Belədə sual olunur: “Qarabağ Ermənistandır” deyib meydan oxumağa ehtiyac var idimi? Nəinki ehtiyac, heç sözün arxasında duracaq güc də yox idi. Bunu anlamayan Paşinyanın 86600 kvadratkilometrlik ərazini tanıdığını bildirməsi isə yalnız son dörd günün işidir. Bunadək, o, rəqəmi dilə gətirməmək yolu tutur, Qarabağ məsələsini mübahisələndirməkdə davamlılıq göstərirdi.

Reykyavikdəki çıxışında 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat barədə söz açmış N.Paşinyanın çıxışından anlaşılan budur ki, sözügedən sənədi imzalamaq ona baha başa gəlib: Ermənistanda dövlət qurumlarına hücumlar baş verib, lakin ölkə iqtidarı demokratik nizamı qoruya bilib. Bunu anladıq. Anlaya bilmədiyimiz Paşinyanın 2021-ci ilin növbədənkənar parlament seçkiləri öncəsi, daha doğrusu, mayın 12-də Azərbaycanın Ermənistan ərazisini işğal etdiyini bildirməsidir.

Deyəsən, Nikol Ermənistan hərbi birləşmələrinin törətdikləri təxribatları unudur. Özünün sülhə gəlməmək üçün həyata keçirdiyi manipulyasiyaları da, həmçinin. Növbədənkənar seçkilərdə komandasının “dinc gündəm” təqdim etməklə, uğur qazandığını vurğulayan Paşinyanın məntiqindən belə çıxır ki, 2021-ci ilin noyabrında və 2022-ci ilin sentyabrında baş vermiş hərbi toqquşmalarda dinclik pozulub və Ermənistan ərazisi işğala məruz qalıb. Deməli, Paşinyan həmin hərbi təxribatları öz ordu birləşmələrinin reallaşdırdığını da unudur...

Göründüyü kimi, erməni hökumət başçısı nə danışdığının fərqində deyil. Bəlkə də fərqindədir, sadəcə, necə deyərlər, ənənəvi erməni xislətinə xas xarakterləri dəf edib səmimi davranmağı bacarmır. Onun indiki məqamda bu cür fikirlər səsləndirməsi özünü gülünc hala salmaqdan başqa bir şey deyil. Əvvələ, dünya əsl həqiqətləri bilir. İkincisi, lap tutalım, beynəlxalq ictimaiyyət erməni yalanlarına inanır. Fakt budur ki, hazırda öz qonşusunun, yəni Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirən və Qarabağ münaqişəsi səbəbindən ölkəsində uzun müddət demokratiyanın olmadığını deyən odur. Məntiq olmalıdır. Paşinyanın məntiqi də qərarları kimi qısırdır.

***R.ƏVƏZ, “Xalq qəzeti”***

# Ermənistan–Rusiya: uçurum dərinləşir

**Ermənistan–Rusiya münasibətlərində yaranmış uçurum getdikcə dərinləşir. Hayastanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın Latviyada rus və ingilis dillərində çıxan “Novaya qazeta Evropa”ya müsahibəsində səsləndirdiyi fikirlər belə deməyə əsas verir.**

Qəzetin müxbirinin A.Qriqoryana ilk sualı belə olub: “Artıq bir ildir ki, Ermənistan hökuməti Şərqlə Qərb arasında qəribə rəqslər edir. Vaşinqtonda görüş – Moskvada görüş. KTMT-nin tənqidi – KTMT-nin tərifi... Beynəlxalq Cinayət Məhkəməsinin Putinlə bağlı qərarının cəsarətlə tanınması və bir neçə həftə sonra hər şeyin o qədər də sadə olmadığına dair çoxlu qeyd-şərtlər. Nəhayət, Paşinyanın 9 may paradında iştirak üçün Moskvaya getməsi. Bir addım irəli – bir addım geri. Bu, nə ilə bağlıdır?” A.Qriqoryanın cavabı belə olub: “Burada qəribə heç nə yoxdur. Son illər dünyada, o cümlədən, regionumuzda təhlükəsizlik arxitekturası kəskin şəkildə dəyişib. Əvvəllər hər şey aydın və anlaşılan idi. Şərti desək, düşünürdük ki, telefonla zəng edib “Bizim problemimiz var” demək olar. Düşünürdük ki, cavab olaraq deyəcəklər: “Yaxşı, əzizim, kömək edəcəyik”. Biz bunu sınaqdan çıxarırıq və görürük ki, bu mexanizm işləmir. Müqavilə öhdəliklərinə əməl edilmir. Bizim bütün təhlükəsizlik konsepsiyamız bunun üzərində qurulub, hələlik yenisi yoxdur. Ermənistanın təhlükəsizliyini təmin etməli olan mexanizmlər iflasa uğrayıb, yeniləri isə yaradılmayıb. Bu isə böhrandır”.

Gəlin, burada A.Qriqoryanın diplomatik şəkildə dediklərinə sadə dillə aydınlıq gətirməyə çalışaq. Məlumdur ki, Nikol Paşinyanın hakimiyyətə gəlişinədək Ermənistan Cənubi Qafqazda Rusiyanın əsas müttəfiqi hesab olunurdu. Əsas beynəlxalq məsələlərin əksəriyyətində Rusiya və Ermənistanın mövqeləri üst-üstə düşür və ya çox yaxın idi. Hayastan Rusiyanın Avrasiya İqtisadi İttifaqının möhkəmlənməsinə yönəlmiş yanaşmalarını bölüşürdü. Ermənistanın KTMT formatında əməkdaşlığı, İrəvanın fikrincə, onun milli təhlükəsizliyinin vacib elementi idi. Dövlətlərarası münasibətləri müəyyən edən müqavilə və sazişlər arasında 1997-ci ilin avqustun 29-da imzalanan Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında Müqaviləni, habelə Rusiyanın Ermənistan ərazisində hərbi hissəsinin olmasını tənzimləyən bir sıra sənədləri göstərmək olar. 2016-cı ilin aprel döyüşləri, 2020-ci ilin iyulunda Tovuz istiqamətində törədilən hərbi təxribat və nəhayət, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın hərbi gücü ilə müqayisəedilməz dərəcədə zəif olan və bunu yaxşı bilən Ermənistanın hərbi-siyasi rəhbərliyi məhz yuxarıda adı çəkilən sənədlər əsasında Rusiyaya arxalanaraq, Moskvanın onlara ciddi dəstək verəcəyini düşünərək, həmçinin KTMT-yə güvənərək, bu hərbi avantüralara getmişdir. Vətən müharibəsinin ilk günlərində N.Paşinyan Azərbaycanın Zəfər yürüşünü dayandırması üçün Rusiya Prezidentinə zəng edərək yalvarırdı. Müharibənin ilk 8 günü ərzində Paşinyan V.Putinə bu məqsədlə 5 dəfə zəng etdi. Ancaq məlum olduğu kimi, bu yalvarışlar heç bir nəticə vermədi. İndi Armen Qriqoryanın müsahibəsinin telefon zəngi ilə bağlı olan hissəsi məhz bu məqamı özündə ehtiva edir.

**Ekspert rəyi**



**İlyas HÜSEYNOV, politoloq**

– Ermənistan–Rusiya münasibətlərindəki ziddiyyətlər birbaşa rəsmi İrəvanın yürütdüyü siyasətlə bağlıdır. Paşinyan daha çox Qərb istiqamətində münasibətlərin gücləndirilməsi, Qərbə doğru inteqrasiya kursunun formalaşmasının tərəfdarı idi. Bu da təbii ki, Kreml tərəfindən böyük narahatlıqla qarşılanırdı. Ziddiyyətlər getdikcə daha da dərinləşir. Çünki İrəvan Qərbə doğru daha böyük addımlar atır, Avropa İttifaqının mülki missiyasını öz ərazisində yerləşdirib. KTMT ilə bağlı çoxsaylı fikir ayrı-seçkiliyi mövcuddur. Məhz hərbi sahədə öhdəliklərin yerinə yetirilməməsi, bu sahədə ciddi problemlərin olması, hətta pulun ödənilməsinə rəğmən Rusiyanın Ermənistana silah verməyi yubatması birbaşa Ermənistanın siyasi isteblişmentinin mövqeyi ilə əlaqəli olan məsələdir. Rusiya–Ermənistan münasibətlərinin pisləşməsi Rusiyanın maraqları ilə bağlı deyil, əksinə, İrəvanın Moskvaya qarşı yürütdüyü demarş siyasətinin nəticəsidir.




Ermənistan TŞ katibinin müsahibə zamanı qeyd etdiyi “müqavilə öhdəliklərinə əməl edilmir” fikri isə KTMT-dən istədikləri dəstəyi ala bilməməyə verilən reaksiyadır. Rəsmi İrəvan qeyd etdiyimiz kimi, həm Vətən müharibəsi, həm 2021-ci ilin mayında Qaragöl ətrafında yaranmış vəziyyət, həm də 2022-ci ilin sentyabr döyüşləri zamanı KTMT-yə kömək üçün müraciət edib, lakin lazımi dəstəyi ala bilməyib. Bütün bunlar isə Ermənistan hakimiyyətinin müxtəlif mənsubları, o cümlədən baş nazir səviyyəsində KTMT-yə yönəlik ittihamların meydana çıxmasına səbəb olub. Özü də bütün bunlar Ermənistanın təşkilata sədrliyi dövründə baş verib. İş o yerə çatıb ki, Ermənistan rəhbərliyi 2023-cü ilin noyabrın 23-də İrəvanda keçirilən KTMT Sammitinin yekun bəyannaməsini imzalamaqdan imtina edib.

A.Qriqoryan müsahibə zamanı “Nə etməli?” sulına cavab olaraq deyib ki, yeni mexanizmlər və silah təchizatçısı axtarmaq lazımdır, çünki biz obyektiv olaraq Rusiyaya sifariş verdiyimiz və pulunu ödədiyimiz silahları ala bilmirik. Onun səsləndirdiyi bu fikir aydın səmada çaxan şimşək effekti yaradıb. Erməni jurnalistlər TŞ katibinin səsləndirdiyi fikirlə bağlı əlavə məlumat axtarışına çıxıblar. Onlar parlamentdə olarkən xarici işlər nazirinin müavini Mnatsakan Səfəryandan açıqlama alıblar. Nazir müavini Ermənistanın Rusiyadan lazımi silahlar almadığına dair A.Qriqoryanın dediklərini təsdiqləyib: “İşlər gedir, həqiqətən də, Ermənistana silahlar gəlməyib. Biz işi davam etdirməyə çalışırıq, əlavə edəcək heç nə yoxdur”. M.Səfəryan silahların niyə Ermənistana çatmadığını açıqlamayıb. Rusiya tərəfinə nə qədər pul ödənildiyini də açıqlamayan nazir müavini “çatdırılma həyata keçirilib, lakin silahlar gəlməyib” deyib.

***

Ermənistan–Rusiya münasibətlərində uçurumun dərinləşməsinin daha bir əlaməti Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun “Çarqrad” telekanalına verdiyi müsahibədə səsləndirdiyi fikirlərdir. Rusiya XİN-in saytında dünən mətni yerləşdirilən müsahibə zamanı S.Lavrov deyib ki, ABŞ Ermənistana Rusiya hərbi hissəsindən və sərhədçilərindən imtina etməyi tövsiyə edir, bunun müqabilində təhlükəsizliyi təmin edəcəyinə vəd verir: “Bizdə olan məlumata görə, ABŞ və müttəfiqləri ermənilərə deyirlər ki, rusları öz ərazinizdən qovun, sərhədçiləri də, hərbi bazanı da çıxarın. Amerikalılar təhlükəsizliyi təmin etməkdə sizə kömək edəcək. Bu, diplomatiya deyil, açıq-aşkar təxribatdır. Bu, rüşvətlə ələ almadır”.

S.Lavrov qeyd edib ki, 2022-ci ilin payızında İrəvanda keçirilən KTMT sammiti zamanı erməni müttəfiqlərimizin müraciətinə uyğun olaraq KTMT-nin müşahidə missiyasının Ermənistan ərazisində yerləşdirilməsinə dair sənəd hazırlanıb. “Sənəd xarici işlər nazirləri səviyyəsində razılaşdırılıb. Sonra son anda sammitin özündə erməni dostlar onun qəbulunu təxirə salmağı xahiş etdilər. İndiyə qədər o, kağız üzərində qalır və həyata keçirilə bilmir. Amma əgər İrəvan artıq razılaşdırılmış sənədi təsdiqləsə, imzalanmağa və qüvvəyə minməyə hazır olsa, əminəm ki, Ermənistan bundan faydalanacaq və daha sabit vəziyyət əldə edəcək”, – deyən Rusiyanın baş diplomatı KTMT ilə bağlı İrəvanın iddialarının əsassız olduğunu vurğulayıb.

***

Göründüyü kimi, rəsmi İrəvanın apardığı eyni vaxtda iki stulda əyləşmək siyasəti onun sonda bir stuldan da məhrum olmasına gətirib çıxarıb. İndi Ermənistan nə Rusiyanın, nə də Qərbin simasında özünə etibarlı müttəfiq tapa bilir. Həm Qərblə, həm də Rusiya ilə geosiyasi oyunlar oynamasının İrəvana baha başa gələcəyi gözlənilən idi. Ermənistan rəhbərliyinin düşdüyü bu vəziyyətdən çıxması üçün yalnız bir yolu var: Azərbaycanla tezliklə sülh sazişi imzalamaq və normal qonşuluq münasibətləri quraraq, regionda kommunikasiyaların açılmasının yaradacağı üstünlüklərdən faydalanaraq ölkəni inkişaf etdirmək. Bu sadə həqiqəti İrəvanda nə qədər tez dərk etsələr, onlar üçün bir o qədər yaxşı olar.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

# Azərbaycan mötəbər nəqliyyat-logistika tərəfdaşıdır

**Son illər Azərbaycanda nəqliyyat-logistika sahəsində həyata keçirilən mühüm tədbirlər ölkəmizə beynəlxalq marağı getdikcə artırır. Artıq ölkəmizin ərazisində bütün magistrallar yüksək səviyyədə yenidən qurulub, həmin yolların üzərində logistik mərkəzlər yaradılıb. İndi ölkəmiz Xəzər sahilində ən böyük dəniz limanına malikdir. Hazırda həmin limanın ötürücülük imkanlarının ildə 15 milyon tondan 25 milyon tona çatdırılması məqsədilə layihələr icra olunur.**

Bununla yanaşı, Xəzərdə ən böyük dəniz donanması, eləcə də Cənubi Qafqazda güclü hava nəqliyyatı parkı da məhz Azərbaycana məxsusdur. Bütün bunların nəticəsidir ki, qlobal nəqliyyat və logistika layihələrinin fəal iştirakçılarından olan Azərbaycan son illər beynəlxalq yükdaşımalara mühüm töhfələr verir. Təkcə onu qeyd etmək kifayətdir ki, 2022-ci ildə ölkəmizin




üzərindən aşırılan tranzit yüklərin həcmi 75 faiz artıb.

Ölkəmizin əlverişli coğrafi məkanda yerləşməsi, eləcə də tranzit yüklərin daşınması üçün müasir infrastruktura malik olması diqqəti getdikcə daha çox cəlb edir. Elə bu səbəbdəndir ki, mühüm nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Azərbaycanla bu sahədə əməkdaşlıq etməyə calışan beynəlxalq maliyyə qurumlarının və dünya ölkələrinin sayı ilbəil artır. Yaxın vaxtlarda isə ölkəmiz Avropa Yenidənqurma və İnkişaf Bankı ilə yükdaşımalar sahəsində əməkdaşlıq edəcək. Artıq adıçəkilən bankla Azərbaycan İnvestisiya Holdinqi bununla bağlı razılıq əldə ediblər.

İqtisadiyyat Nazirliyinin məlumatına görə, mayın 16-da Avropa Yenidənqurma və İnkişaf Bankı Rəhbərlər Şurasının Özbəkistanın Səmərqənd şəhərində keçirilən 32-ci illik toplantısı çərçivəsində bankla Azərbaycan İnvestisiya Holdinqi arasında niyyət sənədi imzalanıb.

Azərbaycan iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin də iştirak etdiyi toplantı çərçivəsində ölkəmizin investisiya imkanlarının təqdimatına dair sessiya keçirilib. Tədbir zamanı Azərbaycanda yaradılan əlverişli biznes və investisiya mühiti, bərpaolunan və "yaşıl enerji", eləcə də nəqliyyat-tranzit potensialı barədə məlumat verilib.

Ölkəmizdə xarici investorlar üçün yaradılan əlverişli imkanlar barədə məlumat verən E. Əliyev bildirib ki, Azərbaycan Orta Dəhlizin əsas iştirakçısı kimi əməkdaşlığın əhatə dairəsini genişləndirmək məqsədilə yol-nəqliyyat infrastrukturuna böyük sərmayə qoyub. Qeyd olunub ki, hazırda Azərbaycanın Xəzər dənizində böyük donanması var. Ələt Azad İqtisadi Zonası müasir limanlara və böyük nəqliyyat dəhlizlərinə əlçatanlığı ilə xarici investisiyaların üzünə açıqdır. Bu baxımdan ölkəmizin Şərqlə Qərb arasında nəqliyyat-tranzit, enerji resursları və humanitar sahələrdə əlaqələrin möhkəmləndirilməsində mühüm rol oynaya biləcəyi diqqətə çatdırılıb.

Yeri gəlmişkən, son illər ölkəmiz, bir qayda olaraq, nəqliyyat-logistika ilə bağlı keçirilən beynəlxalq səviyyəli mühüm tədbirlərdə fəal iştirakı ilə seçilir. Bu baxımdan ötən həftə Almaniyanın Münxen şəhərində keçirilən "Nəqliyyat və Logistika-2023'' adlı beynəlxalq sərgi də ölkəmiz üçün əhəmiyyətli olub. Belə ki, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmovun rəhbərlik etdiyi nümayəndə heyətinin qatıldığı sərgi zamanı beynəlxalq yükdaşımalar sahəsində fəaliyyət göstərən şirkətlərin rəhbərləri ilə keçirilən ikitərəfli görüşlərdə Orta Dəhliz ilə konteyner yüklərinin Çindən Avropaya sürətlə daşınması, tranzit vaxtının optimallaşdırılması, yük həcmlərinin artırılması və yeni yüklərin cəlb olunması məsələləri geniş müzakirə edilib.

Bütövlükdə isə, Azərbaycanın nəqliyyat-logistika ilə bağlı keçirilən tədbirlərdə iştirakı tranzit yükdaşıma sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə, yük dövriyyəsinin artırılmasına təkan verir. Bu da ölkəmizin beynəlxalq nəqliyyat dəhlizlərinin fəal iştirakçısına çevrilməsinə zəmin yaradır.

***Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"***

### Ekspert rəyi



**Təbriz YADİGAROV, ETN İqtisadiyyat İnstitutunun xarici iqtisadi fəaliyyətin tənzimlənməsi şöbəsinin aparıcı elmi işçisi, dosent**

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan uğurlu iqtisadi siyasətin nəticəsi olan əlverişli investisiya mühiti öz bəhrəsini verir. Məhz bunun nəticəsidir ki, son illər ölkəmizə investisiya yatıran şirkətlərin sayı getdikcə artır, investorların coğrafiyası genişlənir. Təkcə onu qeyd etmək kifayətdir ki, 1995-2022-ci illər ərzində Azərbaycan iqtisadiyyatına 323 milyard 104 milyon dollar investisiya qoyulub ki, onun da 50,5 faizi və ya 163 milyard 222 milyon dolları xarici investisiyalar olub.

Azərbaycanda mövcud investisiya mühiti, sərmayədarlar üçün yaradılan imkanlar, eləcə də bərpaolunan və "yaşıl enerji", nəqliyyat-tranzit potensialı dünyanın güc mərkəzlərinin də diqqətini cəlb edib. Avropa Yenidənqurma və İnkişaf Bankının Rəhbərlər Şurasının 32-ci illik toplantısı çərçivəsində ölkəmizin investisiya imkanlarına dair keçirilən sessiyada Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan İnvestisiya Holdinqi arasında yükdaşımalarla bağlı imzalanmış niyyət protokolu bərpaolunan və "yaşıl enerji", həmçinin nəqliyyat-tranzit potensialından istifadənin səmərəliliyinin artırılması məqsədi daşıyır. Bu əməkdaşlıq mövcud nəqliyyat dəhlizləri üzrə Azərbaycanın dəniz, avtomobil və dəmir yolu nəqliyyatının iştirakı ilə multimodal daşımaçılığın səmərəliliyini artıraraq iqtisadiyyatın şaxələndirilməsinə mühüm töhfə verəcək.

Qeyd edək ki, 2023-cü ilin birinci rübü üzrə Azərbaycanda bütün növ nəqliyyat vasitələri ilə yükdaşımaların həcmi 52 milyon 474 min 100 ton təşkil edib ki, bu da 2022-ci ilin birinci rübü ilə müqayisədə 6,4 faiz çoxdur. Hesabat dövründə daşımaların 8,5 faizi (4 miyon 442 min 400 tonu) tranzit yüklər də daxil olmaqla dəmir yolunun payına düşüb ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 16,6 faiz artıqdır. Yanvar-mart aylarında Azərbaycanın dəniz nəqliyyatı ilə 1 milyon 824 min 300 ton yük daşınıb. Bu isə ümumi daşımaların 3,5 faizi deməkdir. Bundan əlavə, cari ilin ilk rübündə hava nəqliyyatı ilə 37 min 300 ton, avtomobil nəqliyyatı vasitəsilə 28 milyon 374 min 700 ton yük daşınıb. Bu da ümumi yükdaşımaların 54,1 faizi deməkdir. Ötən ilin eyni dövrü ilə müqayisədə avtomobil nəqliyyatında yükdaşımalar 3 faiz, dəniz nəqliyyatında isə 28 faiz artıb.

Gələcəkdə Şərqi Zəgəzur dəhlizinin istifadəyə verilməsindən sonra Azərbaycanın nəqliyyat sektorunda yükdaşımaların həcmi xeyli artacaq. Bu da ölkəmizdə yaradılan nəqliyyat hablarına yönəldiləcək investisiyaların səmərəliliyinin daha yüksəlməsinə səbəb olacaq.

## Rəşt–Astara dəmir yolu Şimalı Cənubla birləşdirəcək



**"Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması sahəsində qarşılıqlı fəaliyyət Azərbaycan ilə sıx əməkdaşlıq şəraitində həyata keçirilir. Biz Azərbaycan tərəfinin iştirakı ilə üçtərəfli formatda dəmir yolu infrastrukturunun inkişafı və Şimal-Cənub marşrutu üzrə yük daşımalarına dair əməkdaşlıq haqqında sazişin imzalanmasına hazırlığın tezliklə başa çatacağına ümid edirik. Bununla da üç ölkənin gələcək uğurlu koordinasiyası üçün zəruri hüququ baza yaranacaq".**

Rusiya mediası bildirir ki, bu sözləri Rusiya Prezidenti Vladimir Putin Rəşt–Astara dəmir yolunun İrandan keçən hissəsinin inşası barədə iki ölkə arasında sazişin imzalanma mərasimində söyləyib.

Sazişi iki ölkənin nəqliyyat nazirləri imzalayıblar. Mərasimdə Rusiya Prezidenti Vladimir Putin videoəlaqə vasitəsilə iştirak edib.

Sazişə əsasən, Rusiya və İran uzunluğu 170 kilometr olan və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizini birləşdirən Rəşt-Astara dəmir yolunun layihələndirilməsi və inşasını birgə maliyyələşdirəcəklər. İran Astarası ilə Azərbaycan Astarası arasında olan sahə isə Azərbaycan, Rusiya və İranın iştirakı ilə inşa olunacaq.

Rusiya Prezidenti Vladimir Putin Rəşt–Astara dəmir yolunun tikintisini dünya nəqliyyat infrastrukturu üçün mühüm hadisə adlandırıb. O vurğulayıb ki, Şimal-Cənub nəqliyyat arteriyasının bir hissəsi olacaq Rəşt–Astara dəmir yolu yük daşımalarını şaxələndirməyə imkan verəcək.

**"Xalq qəzeti"**

## 3 sənaye parkımız "TOP-10"da

**İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Mingəçevir, Pirallahı, Qaradağ sənaye parkları 40 belə müəssisə arasında ilk onluqda yer alıb.**

İZİA-dan bildirilib ki, bu barədə "BIK Ratings" agentliyinin hazırladığı siyahıda qeyd edilib. Belə ki, sənaye parklarının reytinq siyahısında Azərbaycanla bərabər, Belarus, Qazaxıstan, Latviya, Litva, Moldova, Polşa, Rusiya, Özbəkistan və Estoniya yer alıblar.

Reytinq hazırlanarkən, sənaye parklarının vergi mühiti, infrastrukturu, ölkəyə giriş şəraiti, ölkədə insan inkişafı indeksi, makroiqtisadi və siyasi mühit üzrə göstəricilər təhlil edilib. Nəticədə ilk onluğa İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Mingəçevir Sənaye Parkı (3-cü yer), Pirallahı Sənaye Parkı (7-ci yer) və Qaradağ Sənaye Parkı (10-cu yer) daxil olublar. Bu reytinqdə ilk yeri "Velikiy Kamen" Çin–Belarus Sənaye Parkı tutub.

## Sosial ödəmələr üzrə daxilolmalar artıb

**Cari ilin yanvar-aprel ayları ərzində muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 1 milyard 625 milyon manat olmaqla ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,2 faiz və ya 176,1 milyon manat artıb.**

Dövlət Vergi Xidmətinin məlumatına əsasən, qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 13,8 faiz artaraq 1 milyard 37,7 milyon manat təşkil edib.

İşsizlikdən sığorta haqları üzrə daxilolmalar isə ötən ilin eyni dövrü ilə müqayisədə 15,1 faiz artaraq 56,7 milyon manata çatıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 15,8 faiz artıb və 41,8 milyon manat təşkil edib.

Həmçinin icbari tibbi sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 17,6 faiz artaraq 291,5 milyon manat olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 21,1 faiz artıb və 204,3 milyon manat təşkil edib.

***"Xalq qəzeti"***

# "Qaradağ" GES-də ilk günəş paneli quraşdırılıb

## *Əraziyə 500 mindən çox belə lövhə gətiriləcək*

**Energetika naziri Pərviz Şahbazov "Masdar" şirkətinin (BƏƏ) baş icraçı direktoru Mohamed Jameel Al Ramahi ilə birlikdə gücü 230 MVt olan "Qaradağ" Günəş Elektrik Stansiyasının (GES) tikildiyi əraziyə baxış keçirib.**

Energetika Nazirliyinin bu barədə yaydığı məlumatda daha sonra adıçəkilən şirkət tərəfindən sözügedən layihə çərçivəsində GES-in yerləşdiyi ərazidə yolların çəkilməsinin başa çatdırıldığı, günəş panellərinin quraşdırıldığı sahənin hasarlandığı bildirilib. Məlumatda hər iki üzü elektrik enerjisi istehsal edə bilən və hər birinin gücü 545-550 Vt olan 500 mindən çox günəş panelinin quraşdırılmasının planlaşdırıldığı, hazırda panellərin tədricən əraziyə gətirildiyi, onların təmizlənməsi üçün avtomatlaşdırılmış qurğuların sınaqdan keçirildiyi qeyd edilib. Eyni zamanda, 330/35 kV-luq yarımstansiyanın tikintisinin davam etdirildiyi, tək oxlu günəş izləmə sistemi ilə təchiz olunacaq



GES-in cari ilin sonuna qədər istismara veriləcəyi də vurğulanıb.

"Masdar" şirkətinin Mərkəzi Asiya və Rusiya üzrə İnkişaf və investisiya departamentinin rəhbəri Məryəm Rəşid Əl Məzrui bir müddət bundan əvvəl mətbuata verdiyi açıqlamada "Qaradağ" GES-in 110 mindən çox evin tələbatını qarşılayacağını, karbon qazı tullantılarını isə il ərzində 200 min tondan çox azaldacağını bildirib. Şirkət nümayəndəsinin sözlərinə görə, "Masdar" Azərbaycanda alternativ enerji sahəsində böyük layihələrin həyata keçirilməsində fəal iştirak edir. Bu, cari il yanvarın 15-də Prezident İlham Əliyevin BƏƏ-yə işgüzar səfəri çərçivəsində Əbu-Dabi şəhərində Azərbaycan Respublikası SOCAR ilə adıçəkilən xarici şirkət arasında imzalanan sazişlə öz təsdiqini tapıb.

"Qaradağ" GES-in tikilməsi, həm də Azərbaycanın bərpaolunan enerji sahəsində zəngin potensiala sahibliyinin göstəricisidir. Quruda 27 giqavatt (günəş və külək enerjisi), dənizdə isə 157 giqavatt enerji potensialının mövcudluğu bunun bariz ifadəsidir.

ADA Universitetinin təşkilatçılığı ilə mayın 3-də Şuşada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda bərpaolunan enerji ilə bağlı məsələyə münasibət bildirən Prezident İlham Əliyev deyib: "İstər hidro, istər külək enerjisi sahəsində həm Gürcüstanda, həm də Azərbaycanda, o cümlədən Qarabağda böyük potensial var. Artıq dediyim kimi, biz 25 qiqavat enerjini istehsal etmək məqsədilə bərpaolunan enerji sahəsində məşhur olan bir neçə əsas beynəlxalq şirkətlə müqavilə və anlaşma memorandumları imzalamışıq. Onun təxminən 500 meqavatı üçün artıq tikinti işləri gedir. 230 meqavatlıq güclərin açılışını biz bir neçə ay ərzində planlaşdırırıq. 700 meqavatdan artıq günəş və külək enerjisini biz ola bilsin, maksimum 2025-ci ilə qədər təmin edəcəyik. Qalan güclərin yaradılması plandadır. Bir sözlə, gələcəyimizin böyük üfüqləri var və biz hər zaman bir yerdə olmalıyıq".

Dövlətimizin başçısının diqqətə çatdırdığı bütün bu fikirlər Azərbaycanın Avropa üçün vacib "yaşıl enerji" təchizatçısına çevrilməsi yolunda atdığı uğurlu addımlardan xəbər verir.

Bu məqamda onu da xatırladaq ki, respublikamızda iqtisadi cəhətdən əlverişli və texniki baxımdan istifadəsi mümkün güclü bərpaolunan enerji mənbələri hesabına yeni elektrik stansiyalarının istifadəyə verilməsi nəticəsində hazırda ölkəmizin ümumi elektrik enerjisi istehsalı gücü 7953,9 meqavata çatıb. Bununla da ötən illə müqayisədə 392,4 meqavat və ya 4,9 faiz artım yaranıb.

Hazırda respublikamızda elektroenergetika sistemində ümumi gücü 6642 meqavat olan 22 istilik elektrik stansiyası, ümumi gücü 1158,1 meqavat olan 30 su elektrik stansiyası, 37 meqavat gücündə bərk məişət tullantıları elektrik stansiyası, 63,3 meqavat gücündə 4 külək elektrik stansiyası, ümumi gücü 46,1 meqavat olan 8 günəş elektrik stansiyası və ümumi gücü 7,4 meqavat olan 3 hibrid elektrik stansiyası fəaliyyət göstərir. Su elektrik stansiyaları daxil olmaqla bərpaolunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1311,9 meqavatdır ki, bu da ümumi istehsal gücünün, təxminən, 16,5 faizini təşkil edir.

Növbəti illərdə elektrik enerjisinin istehsal dinamikası artıq bərpaolunan enerji mənbələrinə əsasən formalaşacaq. Bunun üçün zəngin potensial, bərpa olunan enerjinin inkişafını prioritetləşdirən dövlət siyasəti, yeni qanunvericilik bazası və xarici investisiyaların cəlbi kimi bütün zəruri şərtlər mövcuddur.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

### Ekspert rəyi

**Mirağa ƏHMƏDOV, iqtisadçı-ekspert**



Azərbaycanın bərpaolunan enerji mənbələrindən əldə etdiyi elektrik enerjisinin ixracı və bunun üçün yeni texnologiyaların tətbiqi, eyni zamanda, bu sahədə təcrübə mübadiləsi vacibdir. Azərbaycanlı mütəxəssislərin vaxtaşırı müxtəlif beynəlxalq tədbirlərdə iştirakı, ölkəmizin əldə etdiyi təcrübə bu məqsədin reallaşmasında mühüm rol oynayır.

Prezident İlham Əliyevin müxtəlif enerji mənbələrinin inkişafı üçün həyata keçirdiyi siyasət, uzaqgörən siyasi qərar və qətiyyətli addımların ardıcıllığı, bir-birini tamamlaması nəinki Azərbaycanın eyni zamanda, tərəfdaşlarımızın enerji təhlükəsizliyinə töhfə verir və "yaşıl enerji"yə problemsiz keçidə təminat yaradır.

Dövlətimizin başçısının müxtəlif müzakirələrdə diqqətə yönəltiyi bərpaolunan enerji potensialının reallaşdırılması ilə bağlı bir məqamı xatırlatmaq istərdim. Əvvəlcə onu deyim ki, ötən ilin dekabrında Buxarestdə Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya tərəfindən Avropa Komissiyası sədrinin iştirakı ilə "yaşıl enerji"nin ötürülməsinə dair saziş imzalanıb. Həmin saziş əsasında Azərbaycandan Avropaya dənizdəki külək enerjisi stansiyalarından ötürmə xəttinin çəkiləcəyi təsdiqlənib. Bu ötürmə xəttinin bir hissəsinin Qara dənizin dibi ilə gedəcəyi qərara alınıb. Bununla bağlı hazırda respublikamızda texniki əsaslandırma prosesinə başlanılıb.

Ötən müddətdə Azərbaycan dünyanın bir neçə aparıcı enerji şirkəti ilə müqavilə və anlaşma memorandumları imzalayıb. Bunun nəticəsində respublikamızda Günəş və külək enerjisindən 25 qiqavat həcmində "yaşıl enerji" əldə olunacağı proqnozlaşdırılıb.

Respublikamızda bərpaolunan enerji potensialının reallaşdırılması istiqamətində icra olunan layihələr xüsusilə diqqət çəkir. Son dövrlərdə "Masdar", "ACWA Power" və "Fortescue Future Industries" şirkətləri ilə 25 QVt həcmində "yaşıl enerji" layihələri üzrə əməkdaşlıq sənədlərini imzalanması bunun bariz ifadəsidir. 2040-cı ilədək mərhələli şəkildə istifadəyə verilməsi planlaşdırılan bu istehsal gücləri tələbatımızdan, potensialımız isə yaradılacaq güclərdən dəfələrlə çoxdur. 157 QVt külək enerji potensialı olan Xəzər dənizinin ölkəmizə aid sektoru, azad edilmiş ərazilər və Naxçıvan "yaşıl investisiya" üçün ən cəlbedici məkanlardır.

# Ölkəmiz süni intellekt ideyalarına əsaslanan yeni sosio-texnoloji inkişaf mərhələsinə keçid ərəfəsindədir

*(əvvəli qəzetin 2023-cü il 17 may nömrəsində)*

**– Rasim müəllim, qeyd etdiniz ki, süni intellekt texnologiyalarının təsiri ilə bütün dünyada, həmçinin ölkəmizdə tamamilə yeni xüsusiyyətlərə malik əmək bazarı formalaşır. Bu da, əlbəttə ki, müasir biliklərə malik yüksəkixtisaslı kadrların hazırlanmasını zəruri edir. Ölkəmizdə bu istiqamətdə hansı işlər görülür?**

– Ölkəmizdə müasir dövrün çağırışlarına adekvat yeni nəslin formalaşması üçün texnoloji biliklərə, bu biliklərin əsaslarını təşkil edən riyaziyyat, fizika, kimya və digər elmlərə böyük ehtiyac yaranır. Başqa sözlə, rəqəmsal transformasiyalar ölkə təhsilinin də qarşısında yeni vəzifələr qoyur, müvafiq dövlət orqanları vətəndaşların İKT sahəsində minimum biliklərə malik olması, texnoloji və informasiya mədəniyyətinin formalaşması istiqamətində tədbirlər həyata keçirirlər.

Məlum olduğu kimi, ölkəmizdə Elm və Təhsil Nazirliyi tərəfindən STEAM (Science, Technology, Engineering, Art and Math – red.) layihəsi həyata keçirilir. Bu layihə elm, texnologiya, mühəndislik, yaradıcılıq məharəti və riyazi bilikləri özündə əks etdirən modern təhsil konsepsiyasıdır. Layihənin əsas məqsədi şagirdlərdə texnoloji biliklərə həvəs yaratmaq, onların innovativ texnologiyalardan istifadə qabiliyyətini yüksəltmək və gələcəkdə dəqiq elmlər sahəsində ali təhsil almaları üçün imkanlar təqdim etməkdir. Ölkənin ümumtəhsil məktəblərində müvafiq sahədə fəaliyyət göstərən mütəxəssislər STEAM layihəsi çərçivəsində müxtəlif tədbirlər həyata keçirirlər.



Elm və Təhsil Nazirliyi bu istiqamətdə, həmçinin "Sabahın alimləri" kimi çox qabaqcıl, böyük əhəmiyyətə malik respublika müsabiqəsi təşkil edir. Ölkəmizdə ali məktəb tələbələri və orta təhsil müəssisələrinin şagirdləri yerli və beynəlxalq səviyyəli sərgilərdə, yarışlarda iştirak edirlər.

Misal olaraq qeyd edim ki, ötən ilin may ayında Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" festivalında ölkəmiz tərəfindən təqdim olunan eksponatlar və layihələrin əksəriyyəti süni intellekt texnologiyalarına əsaslanırdı.

Bu gün ölkənin ali təhsil sistemində də süni intellekt sahəsində kadr hazırlığına xüsusi diqqət yetirilir, yeni ixtisaslar açılır. Eyni zamanda, Azərbaycanın ən istedadlı şagird və tələbələrinin "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində dünyanın reytinqli universitetlərində İKT və süni intellekt sahəsində oxumaları üçün şərait yaradılır. Hesab edirəm ki, bütün bu addımlar, dünyada gedən rəqəmsal transformasiya proseslərinə uyğun olaraq yeni nəsil kadrların hazırlanması yaxın zamanlarda öz bəhrəsini verəcəkdir.

Əminliklə demək olar ki, süni intellekt texnologiyaları, kompüter elmləri, onunla əlaqəli olan proqram mühəndisliyi, kompüter mühəndisliyi və digər İKT profilli ixtisaslar ölkəmizdə sürətlə populyarlaşır. Sevindirici haldır ki, xüsusən, son illərdə əksər valideynlər gələcəkdə övladlarının kompüter elmləri istiqamətində təhsil almaları üçün səy göstərirlər.

**– Şübhəsiz, bütün bunlar ölkənin inkişafı və strateji potensialının gücləndirilməsi üçün mühüm əhəmiyyətə malikdir. Lakin süni intellekt texnologiyalarının inkişafı ilə əlaqədar müəyyən risklərin yaranması da proqnozlaşdırılır və bu da cəmiyyətdə müəyyən narahatlıqlar doğurur. Bu haqda düşüncələrinizi öyrənmək istərdik.**

– Əlbəttə, süni intellektin və digər rəqəmsal texnologiyaların tətbiqi və inkişafı ilə bağlı risklərin yaranmasına dair mülahizələrlə razılaşmaq olar. Çünki istənilən texnologiyanın meydana gəlməsi ilə onun yaratdığı risk və təhlükələr də aktuallaşır, onun müsbət tərəfləri ilə yanaşı, mənfi cəhətlərinə də diqqət yetirmək zərurəti yaranır. Sadəcə olaraq, müvafiq risklərin haradan qaynaqlandığını dərindən araşdırmaq, anlamaq və müəyyən tədbirlər görmək lazımdır. Digər tərəfdən, risklərin yaranmasının başlıca səbəblərindən biri bütün bu proseslərin virtual məkanda baş verməsi ilə bağlıdır.

Xüsusilə də, Əşyaların İnterneti texnologiyalarına əsaslanan kritik infrastrukturlarda bu risklər daha çoxdur. Çünki kritik infrastrukturlara kənardan müdaxilə edilməsi, onların fəaliyyətinin dayandırılması və s. ilə bağlı başqa ölkələrdə bəzi mənfi təcrübələr də vardır. Bu baxımdan, müvafiq sahədə həyata keçirilən dövlət siyasəti və aparılan əsaslı islahatların Azərbaycan alimləri və texnoloqlarının qarşısında qoyduğu yeni vəzifələri rəhbər tutaraq, ölkədə kibertəhlükəsizlik və kiberdayanıqlılıq məsələlərinə xüsusi diqqət göstərmək lazımdır.

Ümumiyyətlə, hər növ yeni texnologiyalarda müəyyən boşluqlar və çatışmazlıqlar olur. Rəqib və ya düşmən tərəf də bundan istifadə edərək, ölkəyə, müxtəlif qurumlara və vətəndaşlara ciddi ziyanlar vura bilər. Məsələ burasındadır ki, kibertəhlükələrin özləri də intellektuallaşır. Yəni, bütün bu intellektual texnologiyalar, eyni zamanda, bədniyyətli insanların əlində çox güclü vasitəyə, silaha çevrilir. Ona görə də, ölkənin bu istiqamətdə kibertəhlükəsizliyinin təmin olunması, kiberdayanıqlılığının daha da yüksəldilməsi üçün aidiyyəti qurumlar, alimlər və mütəxəssislər intellektual potensialını səfərbər edərək kompleks işlər həyata keçirirlər.

Məlumdur ki, süni intellekt texnologiyaları ən mürəkkəb funksiyaları üzərinə götürür və bu funksiyaları həyata keçirərkən süni neyron şəbəkələri əsasında qurulan dərin təlim metodlarından istifadə edir. Smart texnoloji mühitdə generasiya olunan biliyin, qərarın özünün əldə olunmasının qeyri-şəffaflığı və izah oluna bilinməməsi kimi ciddi bir məqam süni intellekt sisteminin gələcəkdə özünü necə aparacağını proqnoz etməyə imkan vermir və bu səbəbdən də ciddi risklər yaranır.

Enerji, nəqliyyat və s. kimi digər kritik infrastrukturların yenidən qurulması, həyati vacib ənənəvi sistem və qurğuların yeni platformaya transformasiya olunması, sənayenin modernləşdirilməsi və IV Sənaye İnqilabının tələblərinə uyğunlaşdırılması, hazırda ölkə başçısı tərəfindən bir vəzifə və çağırış kimi alim və mütəxəssislərin qarşısına qoyduğu "yaşıl iqtisadiyyat"ın, "yaşıl infrastruktur"un formalaşdırılması və s. kimi istiqamətlərdə həyata keçirilən tədbirlər təqdirəlayiqdir. Bütün bunlar artıq kompleks olaraq, rəqəmsal dövlət platformasında texnoloji innovasiyalara əsaslanan yeni infrastrukturların kibertəhlükəsizliyi və kiberdayanıqlılığının təmin olunması ilə bağlı ciddi işlərin görülməsini zəruri edir.



Əşyaların İnterneti texnologiyalarının tətbiq olunması insanların həyat və fəaliyyətinə dair fərdi məlumatların mühafizəsi məsələsini də aktuallaşdırır. Beləliklə, bütün növ texnologiyaların təhlükəsizliyinin təmini, etibarlı istismar olunması və s. kimi mühüm məsələlər hər zaman gündəmdə olmalıdır. İstənilən texnoloji innovasiyadan bəhrələnməklə yanaşı, onun yaradacağı təhlükələrə qarşı sistemli mübarizə aparmağa da hazır olmaq lazımdır.

**– Süni intellekt texnologiyalarının ictimai həyatın bütün sferalarına dərindən nüfuz etməsi cəmiyyətdə yeni ictimai münasibətlərin yaranmasına səbəb olur. Bu da ölkənin hüquq sisteminin təkmilləşməsini, yeni münasibətlərin qanunla tənzimlənməsini tələb edir. Bu istiqamətdə ölkəmizdə aparılan işlərin vəziyyəti necədir?**

– Əlbəttə ki, müasir çağırışlar, ölkəmiz də daxil olmaqla, bütün dövlətlərin hüquq sisteminin müasir dövrün texnoloji çağırışlarına, həmçinin süni intellekt texnologiyalarına adekvat olaraq inkişaf etdirilməsini zəruri edir.

Ölkəmizdə də müxtəlif dövrlərdə bu istiqamətdə müəyyən normativ-hüquqi sənədlər qəbul olunub. Lakin bu gün ölkəmizdə sürətlə reallığa çevrilən süni intellekt texnologiyaları ilə bağlı yeni qanunların qəbul edilməsinə ehtiyac vardır. Çünki insanlar öz gündəlik həyatında və əmək fəaliyyətində dronlar, robotlar və digər müxtəlif qurğular və proqram sistemlərindən istifadə edirlər. Nəzərə almaq lazımdır ki, müasir texnologiyalar cəmiyyətə, insanların sağlamlığına, əmlakına və s. ziyan vura bilər. Ona görə də Azərbaycanda bu məsələyə diqqət daha da artırılmalı, beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq normativ-hüquqi baza formalaşdırılmalıdır.

Əlavə olaraq qeyd edim ki, süni intellekt texnologiyaları virtual platformada qlobal xarakter daşıdığı üçün həm ölkə, həm də beynəlxalq səviyyədə ciddi problemlər yarada bilər. Bu səbəbdən dünya ölkələri baş verə biləcək təhlükələrlə birgə mübarizə aparmalı, onların qarşısının alınmasında yaxından iştirak etməlidirlər.

**– Rasim müəllim, bu yaxınlarda sizin Fransanın Marsel şəhərində keçirilən "İnsan Beyni Layihəsi üzrə Sammit"də ("Human Brain Project Summit: 2023"- red) iştirakınız və səfərin nəticələri barədə verdiyiniz hesabat cəmiyyətdə böyük maraq doğurdu. Bu məsələ haqqında bir qədər ətraflı məlumat verməyinizi istərdik.**

– Ümumiyyətlə, süni intellekt texnologiyalarının təkamülünə diqqət yetirsək, görərik ki, bu texnologiyalar, əsasən, insanın təbii intellektindən yararlanır. Süni intellekt texnologiyaları, bir tərəfdən, insanların təbii intellektinin davamı, uzantısı kimi meydana çıxır, digər tərəfdən, bu texnologiyaların yararlandığı intellekt mənbələrindən biri də bioloji aləmdir. Belə ki, alimlər əvvəlcə təbii neyronların işini öyrəniblər, sonra onun əsasında süni neyron yaradıblar. Yəni, süni neyron şəbəkələri, eləcə də genetik alqoritmlər, qarışqa alqoritmi, süni immun sistemləri və s. bu gün süni intellekt texnologiyalarının inkişafının əsas qaynaqlarıdır. Bir sözlə, süni intellekt texnologiyaları həm təbii intellektin yaratdığı elmi-nəzəri və praktiki üsullar, həm də real həyatda olan varlıqların fəaliyyət və davranışlarının öyrənilməsi, təqlid olunması, modelləşdirilməsi əsasında inkişaf edir.

Hazırda dünyanın müxtəlif elm sahələri üzrə alimləri artıq beyinin özünün təbiəti, mahiyyəti, fəaliyyəti, strukturu, onun necə idarə olunması, modelləşdirilməsi və insan düşüncəsi, təfəkkürü ilə bağlı tədqiqatlar aparırlar.

Sammitin qarşısında duran məsələləri, əsas etibarilə, iki istiqamətdə qruplaşdırmaq olar. Birincisi, beyində olan müxtəlif xəstəliklərin araşdırılması və həmin problemlərin aradan qaldırılması üçün süni intellekt texnologiyalarına əsaslanan xüsusi mikroçiplərdən, qurğulardan, müxtəlif sistemlərdən istifadəni nəzərdə tutur. Bu, o deməkdir ki, alimlər ənənəvi tibbi yolla müalicəsi hələlik mümkün olmayan müxtəlif beyin xəstəliklərinin (parkinson, epilepsiya, alzheymer və s.) müalicəsi üçün süni intellekt texnologiyalarından istifadə etməyi, beyinin ayrı-ayrı funksiyalarının rəqəmsal əkizlərini yaratmağı düşünürlər. Alimlər artıq bu məsələ ilə bağlı tədqiqatlar aparırlar və müəyyən elmi nəticələr də əldə edirlər.

Digər bir istiqamət isə beyinin özünün funksiyalarının öyrənilməsi, dərindən təhlil edilməsi, hər hansı bir ideyanı əldə edərək onun süni intellektə transformasiyasının həyata keçirilməsidir. Yəni, söhbət insan beyninin funksiyalarını qismən öz üzərinə götürə biləcək yeni nəsil süni intellekt sistemlərindən gedir.

Sammitdə müzakirə olunan mövzular bu gün Azərbaycan alimlərinin də maraq dairəsindədir. Hesab edirəm ki, süni intellekt, neyro və koqnitiv elmlərin kəsişməsində multidissiplinar araşdırmaların aparılması və yüksəkixtisaslı kadrların hazırlanması məqsədəuyğundur.

**– Bəs süni intellektin yaxın gələcək üçün perspektivləri haqqında nə deyə bilərsiniz?**

– İnternet meydana çıxan ilk zamanlarda insanlara xidmət etmək, kommunikasiya yaratmaq və onların informasiya tələbatını ödəmək üçün nəzərdə tutulmuşdu. Son illərdə isə artıq İnternetin yalnız insanları əhatə etmədiyinin, zaman və məkandan asılı olmayaraq, istənilən təyinatlı əşya və qurğuların müxtəlif sensorlar vasitəsilə İnternetə qoşulmasının şahidi oluruq. Bu imkanlardan yararlanaraq baş verən transformasiyalar kontekstində süni intellekt texnologiyaları cəmiyyətdə yeni reallıqlar yaradır.

Smart sistemlərin, qurğuların, robotların yaranması və insanların həyatının tərkib hissəsinə çevrilməsi nəticəsində sivilizasiyanın yeni inkişaf mərhələsinə qədəm qoyacağı proqnozlaşdırılır. Bu səbəbdən son zamanlar V və VI sənaye inqilablarının çox da uzaqda olmadığından bəhs edilir. İnternetin, "hörümçək toru"nun intellektuallaşdırılması, kollektiv süni intellektin yaranması artıq süni intellekt texnologiyalarının inkişafının növbəti mərhələsi kimi, bəşər tarixində ilk dəfə olaraq, yeni sosio-texnoloji cəmiyyətin əsasını formalaşdırır. Sosio-texnoloji cəmiyyətdə insanlar robotlarla, yəni birgə fəaliyyət çərçivəsində robotlarla işləyəcək, onlarla iş yoldaşı olacaqlar ki, bu da yeni münasibətlər, yeni davranış qaydaları tələb edir. Kollektiv təbii intellekt və kollektiv süni intellektin birgə yaşayışı, biri-biri ilə ünsiyyət qurması, biri-birinə yararlı olması, bəzi hallarda ziyan vurması, müəyyən təhlükələr yaratması nəticəsində proqnozlaşdırıla bilməyən müəyyən perspektivlər ortaya çıxa bilər. Təbii olaraq, bununla bağlı bir sıra futuroloji fikirlər də mövcuddur.

Bildiyiniz kimi, süni intellekt insan həyatına böyük sürətlə daxil olur, cəmiyyətin inkişafına dəstək verir. Bu zaman müxtəlif əşyalara qoşulmuş sensorlar, videokameralar və s. kimi smart qurğulardan böyük həcmli informasiyanın toplanması və emal edilməsi məsələləri aktuallaşır. Artıq mövcud kompüter sistemləri, serverlər, əlaqə kanalları və s. bu informasiya partlayışının qarşısında acizdirlər. Ona görə də, bütün bu texnoloji mühitin özəyi olan informasiyanın emalı məsələlərinə də yeni yanaşmalar ortaya çıxır. Artıq kvant kompüterləri, kvant serverləri və s. kimi kvant texnologiyaları informasiya partlayışı şəraitində çıxış yollarından biri kimi qeyd olunur. Hazırda qabaqcıl ölkələrin təcrübəsi kvant texnologiyalarının böyük strateji əhəmiyyətə malik olduğunu göstərir. Bu baxımdan, kvant texnologiyalarının təkmilləşdirilməsi və tətbiqi inkişaf etmiş ölkələrin qarşısında dayanan prioritet vəzifələrdən biri hesab edilir.

Süni intellekt texnologiyaları, biotexnologiyalar, biotibbi texnologiyalar, nanotexnologiyalar və s. kimi qabaqcıl texnologiyaların bir-biri ilə çulğalaşması cəmiyyətimiz və gələcəyimiz üçün yeni perspektivlər açır. Xüsusən, tibb sahəsində, insan həyatının müxtəlif sferalarında inqilabi yeniliklər proqnozlaşdırılır.

Son olaraq qeyd edim ki, hazırda texnologiyaların "ağıllanması" nəticəsində superintellektin yaranmasının, onun gələcəkdə insanı üstələyə bilməsi ehtimalının cəmiyyətdə müəyyən mülahizələr doğurması da təbii haldır. Lakin bu məsələdə realist, eyni zamanda, nikbin olmaq lazımdır. Belə ki, qlobal inkişaf kontekstində dövlətin texnoloji potensialının gücləndirilməsi nəticəsində texnoloji suverenlik təmin olunarsa, bu kimi intellektual texnologiyalar bütün sahələrdə ölkənin inkişafına xidmət edər. Odur ki, artıq IV Sənaye İnqilabının vətəndaşları formalaşmalı, cəmiyyətdə texnoloji mədəniyyət aşılanmalı, eləcə də insanlar texnologiyaların sürətli inkişaf tempinə uyğun olaraq dayanmadan zəruri texnoloji bilikləri mənimsəməlidirlər.

*"Xalq qəzeti"*

# Azərbaycan və Rusiyanın gəncləri "Kür"də görüşürlər

**Mayın 17-də Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Mingəçevirdəki "Kür" Olimpiya Tədris İdman Mərkəzində "Azərbaycan və Rusiyanın III Gənclər Təşəbbüsləri Forumu" öz işinə başlayıb.**

Vaxtaşırı olaraq keçirilməsi ənənəyə çevrilmiş forum Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Dövlət Himnlərinin səsləndirilməsi ilə açılıb. Sonra iştirakçılara Azərbaycanın Gənclər paytaxtı seçilən Mingəçevir şəhəri haqqında məlumat verilib və ardınca çıxışlar dinlənilib. Qeyd edək ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş mərasimdə gənclərlə yanaşı, 120 qonaq, o cümlədən 66 nəfər Rusiya Federasiyası təmsilçisi də iştirak edir. Ölkələrimizin tanınmış dövlət və ictimai xadimləri də tədbirə qatılıblar.

Forumda Azərbaycan Respublikasının Gənclər və İdman nazirinin müavini İndira Hacıyeva, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Rusiya Federasiyasının elm və ali təhsil nazirinin müavini Konstantin Moqilyovski, Rusiya Federasiyası Prezidentinin Xarici ölkələrlə Regionlararası və mədəniyyət əlaqələri Departamentinin təmsilçisi Pavel Kuznetsov çıxış edərək iki ölkənin qarşılıqlı əlaqələrdən danışıb və forumun işinə uğurlar arzulayıblar.



Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov iştirakçıları salamlayaraq tədbirin önəmini açıqlayıb: "Gənclərlə iş Azərbaycanda dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir. Bu gün gənclərimiz ictimai həyatın bütün sahələrində kifayət qədər fəaldırlar. Onlar ölkə rəhbərliyinin siyasi, iqtisadi, humanitar, sosial istiqamətlər üzrə həyata keçirdiyi tədbirlərə hər zaman dəstək verir, cəmiyyətdə dayanıqlı sabitliyin və ardıcıl inkişafın təmin olunmasında yaxından iştirak edirlər. Prezident İlham Əliyev öz çıxışlarında daim gənclərin ictimai-siyasi və humanitar proseslərdə göstərdiyi səyləri nəzərə alaraq bu təbəqəni novator, yeniliyə can atan və vətənpərvər insanlar kimi təqdim edir".

Mərasimdə bildirilib ki, ötən il dövlətlərimizin başçıları arasında çox mühüm sənəd – Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzalanıb. Bu, iqtisadi və mədəni sahələrdə, həmçinin siyasi platformada yaxınlıq üçün yeni üfüqlər və imkanlar açan çox mühüm sənəddir. Bu baxımdan məhz "Nur şəhəri"ndə belə bir tədbirin keçirilməsi təqdirəlayiqdir. Çünki indiki vaxtda gənclərin daha sıx qarşılıqlı fəaliyyət göstərmələri, işgüzar ünsiyyətdə olmaları xüsusilə vacibdir.

Birgə sosial-mədəni layihələrin dəstəklənmə mexanizmləri, layihələrin uğurlu variantları və başqa mövzularda təqdimatlarla zəngin olan forum öz işini mayın 19-da başa çatdıracaq.

*İlqar HƏSƏNOV,*
*"Xalq qəzeti"nin bölgə müxbiri*

*Azərbaycan Dillər Universiteti – 75*

# Şərq və Qərb mədəniyyətinin qovşağında yerləşən ali təhsil ocağı

**Dünyanın istənilən ölkəsində təhsilin əsas istiqamətlərindən biri xarici dildir. Hər bir elm adamı, tədqiqatçı bunu təsdiq edə bilər ki, xarici dildə kifayət qədər bilik, mənbə və informasiya mübadiləsi yoxdursa, araşdırılan elm, dünya arenasına çıxmır, sadəcə dar çərçivədə ilişib qalır. Bu gün müxtəlif dünya universitetlərində fəaliyyət göstərən alimlərin özünəməxsus ORCID kodu ilə tanınması, elmi əsərlərinin DOI kodu vasitəsilə Beynəlxalq Elmi Kitabxanaya, Crossref təşkilatı bazasına, o cümlədən, SCOPUS, WEB OF SCIENCES indeksli jurnallara çıxışı məhz xarici dilləri bilməyin sayəsindədir.**

Hələ ötən əsrin 20-ci illərindən Azərbaycanda xarici dillərin tədrisi önəmli hesab edilmiş, Azərbaycan Pedaqoji İnstitutunda Xarici dillər kafedrası və onun əsasında fakültə yaradılmışdır. Daha sonra isə xarici dil mütəxəssislərinin hazırlanmasını yaxşılaşdırmaq məqsədilə 1948/1949-cu tədris ilindən Bakı şəhərində APİ-nin Xarici dillər fakültəsinin bazasında Pedaqoji Xarici Dillər İnstitutu yaradıldı. Bəli, həmin tarixdən artıq 75 il keçir. Dövlətimiz, o cümlədən, dünyanın bir çox ölkələrinə kifayət qədər potensiallı kadr hazırlayan Azərbaycan Dillər Universitetinin indi 75 yaşı var və bu təhsil ocağı hazırda dünyanın müasir standartları ilə ayaqlaşmağa çalışaraq, qapılarını tələbələrinin üzünə geniş açır.

Mədəni ruhu, pozitiv atmosferi ilə seçilən bu universitet qədim ənənələri qorumaqla yanaşı, Şərq mədəniyyətini və Qərb təfəkkürünü özündə cəmləşdirir. Əbəs yerə ADU-nu Şərqlə Qərbin qovşağında olan bir təhsil ocağı adlandırmadıq. Burada aparıcı dünya ölkələrinin – Almaniya, Fransa, İtaliya, İspaniya, Koreya, Amerika, Yaponiya, İndoneziya, Avstriya və s. ölkələrin mərkəzləri fəaliyyət göstərir. Tələbələr müvafiq ixtisaslar üzrə seçdiyi ölkəni yalnız nəzəri biliklər əsasında deyil, həm də aidiyyatı olan mərkəzlərdə o ölkənin mühitini, ənənələrini və ab-havasını duyaraq, həmin ölkələrin səfirləri və nümayəndələri ilə tez-tez görüşərək təhsil alırlar.

Fərəhlə vurğulamaq lazımdır ki, son dövrlər ADU-nun multikultural əlaqələri akademik Kamal Abdullayevin sayəsində daha da genişlənmişdir. Burada Serbiya, Macarıstan, Pakistan, Yunanıstan kimi ölkələrin mərkəzləri də fəaliyyət göstərməyə başlamışdır. Yeni yaradılmış mərkəzlərdən Erməni Araşdırmalar Mərkəzinin isə rolu 44 günlük Vətən savaşında daha çox önəm kəsb etmişdir. Bundan başqa, 2018-ci ildən bəri Serbiyada, İndoneziyada, Rusiyada, Çində və Pakistanda açılmış Azərbaycan dili mərkəzləri, əslində, yalnız ADU üçün deyil, həm də bütöv Azərbaycan üçün əhəmiyyətli addımdır. Həmin mərkəzlərdə fəaliyyət göstərən ADU mütəxəssislərinin məqsədi yalnız Azərbaycan dilinin tədrisi deyil, həmçinin Azərbaycan mədəniyyətinin, tarixinin tanınmasına, o cümlədən, ölkənin maraqlarının qorunmasına xidmət edir. 2018-ci ildə Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçə fəxri doktor diplomunun verilməsi üçün məhz ADU-nun seçilməsi də universitetin nüfuzunun göstəricilərindəndir. Bundan başqa, Prezident İlham Əliyevin sərəncamı ilə 2017-ci ildə Azərbaycanın digər ali təhsil müəssisələri arasında ilk olaraq, ADU-ya publik hüquqlu şəxs statusu verilməsi də ölkə başçısının universitetə olan diqqətinin göstəricisidir.

L.Berne demişkən, alim bank xəzinədarına oxşayır, onun əlində böyük xəzinələrin açarı var, amma bu xəzinələr onun deyil. Dillər Universitetinin alimləri, müəllimləri də əllərində xəzinə açarı daşıyırlar. O açarlar ki, dünyanın müxtəlif ölkələrində xəzinələri açmaq potensialına malik kadrlardır. Danılmaz faktdır ki, bu universitetin yetirmələri istər tərcüməçi, istər siyasətçi, istər tədqiqatçı kimi bir çox ölkələrdə çalışırlar. Hazırda Azərbaycanın digər təhsil ocaqlarında xarici dillər üzrə fəaliyyət göstərən kadrların da böyük əksəriyyəti ADU-nun payına düşür.

Bütün dünyanı hazırlıqsız saran koronavirus pandemiyası zamanı tədris prosesinin pozulmaması məqsədilə ADU-da elektron kitabxana, Pdf. dərs vəsaitləri tələbələrə əlçatan olmuş, informasiya texnologiyaları, virtual məkanın idarə olunması üzrə təkmilləşdirilmə təlimləri keçirilmişdir. Bununla yanaşı, artıq universitetin elektronlaşdırılması istiqamətində əsaslı addımlar atılmış, növbəti tədris ilindən etibarən elektron jurnal, tələbə-müəllim kabineti və s. innovativ yeniliklərin tətbiqinin nəzərdə tutulmasını isə şəffaflığın artmasına xidmət edəcək nüanslardan biri kimi dəyərləndirmək olar.




Bu gün Essex və Strazburq universitetləri ilə ikili proqramlar Erasmus + və Mövlanə kimi mübadilə proqramlarını həyata keçirən ADU TURFLİ proqramı, CLS yay məktəbi, OPI təlimi və s. kimi beynəlxalq təlim və tədris layihələrində iştirak tədrisin keyfiyyətinə xidmət edir.

Sokrat deyirdi ki, təhsil bir qığılcımla atəşi yandırmaqdır, boş bir qabı doldurmaq deyil. Bu baxımdan da təhsilin səmərəliliyinin təşkili məqsədilə, universitetin potensiallı qığılcımlarını atəşə çevirmək üçün mütəxəssislərin cəlb olunduğu ixtisasartırma kursları, beynəlxalq konfranslar, Nizami layihəsi və PETRA layihəsində iştirak da son beş ildə ADU-nun inkişafı baxımından atılan önəmli addımlardandır. 2017–2018-ci illərdə şəxsən iştirak etdiyim Beynəlxalq PETRA layihəsi Azərbaycan, İspaniya, Finlandiya, Türkiyə, Macarıstan və Avstriyadan, ümumilikdə, 14 universitet ilə birlikdə Azərbaycan universitetlərində ali təhsilin keyfiyyətinin inkişaf etdirilməsi məqsədi daşıyır. Müxtəlif ölkələrin universitetlərində təşkil olunan seminarlardan ən əsası isə 2018-ci ilin iyun ayında Finlandiyada təşkil edilənlər idi. Çünki bu seminarlar hələ xəbərsiz olduğumuz, 2020-ci ildə dünyanı bürüyəcək koronavirus zamanı xüsusi önəm kəsb edəcək distant təhsilə həsr olunmuşdu. ADU-nu təmsil edən mütəxəssislər olaraq, biz, artıq 2018-ci ildə distant təhsil – elektron təhsil – elekron kitabxana – elektron laboratoriyaların yaradılması, müəllim və tələbələr üçün xüsusi bir portal olan MOODLE-nin seçilməsi, dərs materiallarının, qiymətləndirmə meyarlarının, tələbələrin iştirakının hətta müzakirəsinin bu portalda izlənməsi mexanizminin izahatı ilə tanış olmuşduq.

Bütün bu qeyd etdiklərimizin, bəlkə qeyd etməyi unutduqlarımızın fonunda ADU-da son dövrlərdə rektor, akademik Kamal Abdullayev tərəfindən aparılan islahatlar, innovativ addımlar bu gün 75 yaşını qeyd edən universitetin təbriki üçün ən gözəl hədiyyələrdir. Yeri gəlmişkən, beynəlxalq arenaya doğru irəliləmənin təsdiqi olaraq, Azərbaycan ali təhsil məkanında ilk dəfə olaraq universitetimizin QS beynəlxalq reytinq cədvəlində 301-340-cı yerə layiq görülməsi münasibətilə bütün universitet kollektivini və rektor, akademik Kamal Abdullayevi ürəkdən təbrik edirik.

Yetmiş beş yaşlı ADU-nun gövdəsi ilə budaqlarını müqayisə etdikdə, onun böyük bir inkişaf yolu keçdiyini görməmək mümkün deyil. Yazın gəlişi ilə çiçəklənən tumurcuqlar kimi universitetin inkişafı və müəllim-tələbələrin rifahı üçün atılan hər bir addım və yenilik gələcəyin meyvələrindən, faydalı bəhərindən xəbər verir.

***Vüsalə AĞABƏYLİ,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

**P.S. "Xalq qəzeti"nin kollektivi də Azərbaycan Dillər Universitetinin 75 yaşını təbrik edir, ADU-nun professor-müəllim heyəti və tələbələrinə uğurlar arzulayır.**

# Azərbaycan–Türkiyə futbol əlaqələrində yeni mərhələ

**İki fikir ola bilməz: Azərbaycan–Türkiyə futbol əlaqələrində yeni mərhələ başlamışdır və bu, hər iki qardaş ölkədə dünyada 1 nömrəli idman növü olduğunu çoxdan təsdiq etmiş futbolun daha da inkişafına öz töhfələrini verəcək, münasibətlərin zənginləşməsində mühüm rol oynayacaqdır. İki dost ölkə təmsilçilərinin istər Azərbaycanda, istərsə də Türkiyədə keçirdikləri və keçirəcəkləri yoldaşlıq görüşlərinin, birgə tədbirlərin sayı artdıqca təcrübə də, uğurlar da çoxalacaq.**




Bu il martın 26-da Bakı Olimpiya Stadionunun tamaşaçılarla dolu tribunaları qarşısında Azərbaycan Premyer Liqası və Türkiyə Superliqasının liderləri – Ağdamın "Qarabağ" və İstanbulun "Qalatasaray" komandaları arasında keçirilmiş xeyriyyə matçının (1:2) necə parlaq idman bayramına çevrildiyi xatirələrdə hələ təzədir. Beynəlxalq Futbol Federasiyasının azərbaycanlı hakimi Əliyar Ağayevin idarə etdiyi görüşdən əldə olunan vəsaitin qardaş ölkədə baş vermiş zəlzələdən əziyyət çəkənlərə yardım fonduna yönəldilməsi futbolun xeyirxahlığa xidmət edən idman növü olduğunun, çətin günlərdə möhkəm birliyin, sarsılmaz həmrəyliyin növbəti təsdiqi idi.



Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa stadionun tribunasından oyunun gedişini izləmələri qardaşlıq görüşünə dövlətimiz tərəfindən böyük əhəmiyyət verildiyini bir daha sübut edirdi. Nəticədə, Azərbaycan və Türkiyə milli bayraqlarının əsl dostluq nümunəsi kimi bütün 90 dəqiqə ərzində al-əlvan tribunalarda tamaşaçıların əllərində yanaşı dalğalanması ilə müşayiət edilən və möhtəşəm bayram tamaşasına çevrilən oyun iki qardaş ölkənin futbol əlaqələrində yeni mərhələyə start verdi.

Bu mərhələnin ilk və çox mühüm addımı, "Qarabağ" – "Qalatasaray" görüşü dost-rəqiblərin baş məşqçiləri Qurban Qurbanov və Okan Buruk münasibətlərində də zəruri məqamdır. Gələcək əlaqələrdə onlar bir-birindən çox şey öyrənə bilərlər.

Həmin oyundan heç iki ay keçməmiş, mayın 13-də isə futbol tariximizdə növbəti əlamətdar hadisəyə sevindik. İstanbulun digər nəhəng klubu, 1903-cü ildə yaradılmış və artıq bir əsrlikdən də çox tarixə malik "Beşiktaş"ın Bakıya səfəri, hələ çox gənc, yenicə adını futbol aləminə tanıtdırmağa başlamış 2017-ci il "təvəllüdlü", yəni, cəmi 6 yaşlı "Sabah" ilə görüşü Azərbaycan–Turkiyə futbol əlaqələrinin yeni mərhələsində ikinci ciddi təşəbbüs idi.

Yüksək məşqçilik bacarığı heç kimdə şəkk-şübhə doğurmayan Şenol Günəşin və onun futbolçularının paytaxtımızda böyük sevgi və coşqu ilə qarşılanması, azarkeşlərin hələ Bakı Hava Limanında qonaqlara böyük rəğbətlərini gül-çiçəklə, alqış sədaları ilə bildirmələri, oyunu işıqlandırmaq üçün Türkiyədən xeyli jurnalistin gəlməsi də çox şeydən xəbər verirdi. Ən başlıcası isə, təkrar edək ki, əlaqələrimizin yaxşı gələcək vəd edən yeni mərhələsində ikinci addımın ilk cəhdə dəstək olması çox vacib məqamdır. Yaxın keçmişdə "Xəzər Lənkəran"ın, "Qarabağ"ın, eləcə də, "Beşiktaş"ın baş məşqçisi olmuş türkiyəli təcrübəli mütəxəssis Rasim Karanın matçdan əvvəl bizim azərisport-a verdiyi müsahibədə belə oyunların adi hal alması barədə fikri də iki qardaş ölkə futbolu arasında möhkəm və daimi əlaqələrin vacibliyini təsdiq edir.

Güman etmək olar ki, bu oyunla hər iki klubun rəhbərliyi, xüsusən də artıq əmin olduğumuz kimi, yüksək iddialarla yaşayan "Sabah"ın istedadlı gənc baş məşqçisi Murad Musayevlə onun "Beşiktaş"dakı zəngin təcrübəli həmkarı Şenol Günəş arasında da hər iki mütəxəssis üçün çox gərəkli ola biləcək yaxşı əlaqələr yaranmışdır.

Tofiq Bəhramov adına Respublika Stadionunda azarkeşlərə birdən-birə 6 qol sevinci, 2 penalti həyəcanı, ilk beş dəqiqədə eyni qapıya 2 erkən qol heyrəti yaşadan və "dinc" nəticə ilə (3:3) başa çatan "Sabah" – "Beşiktaş" qarşılaşması göstərdi ki, belə oyunlarda qazanılan cüzi təcrübə belə, gələcəkdə hər iki klubun xeyrinə olar. Həmin görüşlərin keçirilməsinə səbəb olan əlaqələrin Azərbaycanda da, Türkiyədə də milli çempionatların inkişafına əlavə təkan verəcəyi şübhəsizdir.

Azərbaycan və Türkiyənin futbol komandaları arasında beynəlxalq yoldaşlıq görüşlərinin qədim tarixi var. Statistika təsdiq edir ki, hələ 63 il əvvəl, 1960-cı il iyulun 11-də "Neftçi" Bakıda "Qalatasaray"ı qəbul etmiş və azarkeşlər həmin axşam dörd qolun şahidi olmuşlar. İstanbul klubunun 3:1 hesabı ilə qalib gəldiyi görüşdə bakılılardan yeganə qolun müəllifinin Kamil Eynullayev olduğu da tarixin "yadındadır".

Sonralar da hərdən belə oyunlar keçirilmişdir. Ancaq əlaqələrin təzəcə start götürmüş yeni mərhələsi xüsusi məna daşıyır və onun təsir gücü daha aydın hiss olunacaq. Yaxın gələcəkdə "Qalatasaray" və "Beşiktaş"dan sonra Türkiyə klub futbolunun digər nəhəngləri "Fənərbaxça"nı, "Trabzonspor"u, habelə başqa təmsilçilərini də ölkəmizdə görə bilərik. Eləcə də Azərbaycan komandalarının yoldaşlıq görüşləri üçün Türkiyəyə daha tez-tez səfərə çıxa biləcəkləri ehtimalı gündən-günə artır. Bu isə o deməkdir ki, iki qardaş ölkənin futbol əlaqələrinin yeni mərhələsi tərəflər üçün daha faydalı olacaq.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

*"Söz" jurnalı – 30*

# "Söz" bölgə deyil, ölkə jurnalı oldu

**...Xalq şairi Məmməd Araz Lənkəranda yaşayıb-yaradan Şəkər Aslanın şeirlərini təqdir edərək yazmışdı ki, sən bölgə şairi deyil, ölkə şairisən. İndi bu fikri elə Şəkər Aslanın 30 il əvvəl təsis edib yadigar qoyduğu "Söz" jurnalının da haqqında demək olar. 30 ildən bəri mütəmadi nəşr olunan, əhatə dairəsi ilə bölgə hüquqlarını çoxdan aşmış bu ədəbi-publisistik jurnal rəngarəng mövzuları ilə seçilən, sevilə-sevilə oxunan mətbu orqandır.**




Şəkər Aslandan sonra həmkarımız Sevda Əlibəylinin baş redaktoru olduğu "Söz" jurnalı 10 il əvvəl Prezident təqaüdünə layiq görülüb. Həmçinin "Rəsul Rza" mükafatı, "Dədə Qorqud" və "Qızıl qələm" media mükafatı mətbu orqanlar arasında ilk dəfə olaraq "Söz" jurnalına verilib. Müəlliflərinin sevdalı könülləri ədəbi varislik ənənələrini yaşadıb, vaxtaşarı ünlü söz adamlarından – akademik, professor, şair və yazıçılardan, lap elə ilk qələm təcrübələrini təqdim edən gənc istedadlardan bəhs edən bir-birindən maraqlı, zövq oxşayan yazıları ilə "Söz"ü urvata mindiriblər.

Xalq yazıçısı Anar, Xalq şairi Nəriman Həsənzadə, akademik Rafael Hüseynov , Əməkdar jurnalist Əflatun Amaşov və başqaları "Söz" haqqında öz ürək sözlərini həvəslə dilə gətirib, jurnalın yaradıcı heyətinə davamlı uğurlar arzulayıblar. Uzun illər Mətbuat Şurasının sədri olmuş Ə.Amaşov ölkəmiz müstəqillik əldə etdikdən sonra çox sayda mətbu orqanların işıq üzü gördüyünü xatırladaraq deyib: "Həmin dövrdə Ədliyyə Nazirliyində 500-dən çox qəzet və jurnalın qeydiyyatdan keçməsinə baxmayaraq, təəssüf ki, onların bəziləri 1, 5 və ya 10 il yaşadı. Obyektiv və subyektiv səbəblərdən o mətbu orqanlar nəşrlərini dayandırdılar. Ancaq o vaxtdan bəri yol gələn bir dərgi var: "Söz" jurnalı". Bundan sonra da davam etdirəcəyinə əminəm".

Şəkər Aslanın yadigarı olan "Söz"ün cəfakeş baş redaktoru Sevda Əlibəylinin dediyinə görə, unudulmaz şair jurnalın cəmi 6 sayını imzalaya bilib, bu gün o, "Söz"ün mənəvi atası sayılır.

Akademik, millət vəkili Rafael Hüseynovun 30 yaşlı jurnalla bağlı dedikləri: "Sözü"ün diqqəti ən əvvəl bir bölgəyə yönəldərək həmin istinad nöqtəsindən Azərbaycana üz tutması da çox doğru və məntiqlidir. Zamanında məşhur "Fövc ül-füsəha" məclisi Lənkəranda fəaliyyət göstərsə də, tək Cənub bölgəsinə üz tutmamışdı ki! Mirzə İsmayıl Qasirin, Molla Ələkbər Acizin, Mirzə İsa Xəyalinin, Hüseynqulu Şurişin və digərlərinin qələm təcrübələri bütün Azərbaycan üçün idi.

30 illik yolu boyunca "Söz" həm Lənkəranın ədəbi-mədəni həyatını layiqincə işıqlandırmağı, o tərəflərdəki söz həyatını salnamələşdirməyi, həm də bütöv Azərbaycanınkı olmağı bacarıb. "Söz" bir böyüdücü şüşə kimi Lənkəran və ətrafındakı ədəbi-mədəni mühiti bizə daha yaxın etmək vəzifəsinin öhdəsindən layiqincə gəlib və gəlməkdədir".

Akademikin dediklərinə əlavə olaraq, "Söz"ün cəfakeş yazarlarını jurnalın 30 illik yubileyi münasibətilə təbrik edirik, həmkarlarımıza gərəkli fəaliyyətlərinin dördüncü onilliyində daha böyük uğurlar arzulayırıq.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

# “Mir Cəlal və ədəbi-tarixi proses”



**Dünən AMEA-nın Humanitar Elmlər Bölməsi, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə görkəmli yazıçı, ədəbiyyatşünas Mir Cəlal Paşayevin anadan olmasının 115 illik yubileyinə həsr edilmiş “Mir Cəlal və ədəbi-tarixi proses” mövzusunda elmi sessiya keçirilib.**

Elmi məclisdən əvvəl Mir Cəlalın əsərlərini əks etdirən kitab sərgisi ilə tanışlıq olub. Sərgi Azərbaycan Milli Kitabxanası tərəfindən təşkil edilib.

Elmi sessiyanı AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq bildirib ki, unudulmaz ədibimiz Mir Cəlalı fərqləndirən başlıca cəhət onun universal, çoxcəhətli fəaliyyətə malik olmasıdır. O, yazıçı, ədəbiyyatşünas, publisist, pedaqoq kimi məşğul olduğu bütün sahələrin peşəkarı olub. Mir Cəlalın yaşadığı dövrü ideallaşdırmadan, sərt kommunist rejiminin ideologiyasını təbliğ etmədən yalnız obyektiv gerçəkliyi, insanın real həyatını, obyektiv gerçəkliyi meydana qoyduğunu deyən AMEA prezidenti ədibin bu dəst-xətinin roman, povest, satirik-yumoristik əsərlərində də müşahidə olunduğunu söyləyib..

İsa Həbibbəyli alimin “Füzulinin poetik xüsusiyyətləri” monoqrafiyası ilə şairin poetikasına dair nadir bir əsəri meydana qoyduğunu deyib, Mir Cəlalın “Azərbaycanda ədəbi məktəblər” mövzusunda mükəmməl doktorluq işi ilə Azərbaycanda ədəbi məktəblərin tarixinə nəzər yetirdiyini vurğulayıb. AMEA rəhbəri qeyd edib ki, Mir Cəlal həm də görkəmli pedaqoqdur və onun “XX əsr Azərbaycan ədəbiyyatı” və “Ədəbiyyatşünaslığın əsasları” dərslikləri bu gün də ali məktəblərdə tədris olunur.

Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov “Mir Cəlal Paşayevin ictimaiyyətə az məlum olan əsərlərinin nəşri haqqında”, filologiya üzrə fəlsəfə doktorları, dosent Aslan Salmansoy “Səməd Vurğun və Mir Cəlal”, professor Asif Rüstəmli “Mir Cəlalın həyatı və yaradıcılığının ilkin dövrü”, filologiya elmləri doktoru İsmayıl Kazımov “Mir Cəlal romanlarında bədii dil xüsusiyyətləri”, filologiya elmləri doktoru Əlizadə Əsgərli “Füzuli sənətkarlığı” və “Ədəbi məktəblər” monoqrafiyalarında poetika haqqında”, filologiya üzrə fəlsəfə doktoru Sevinc Əliyeva “Mir Cəlal hekayələrində folklor və milli-mənəvi dəyərlər”, Dilarə Adilova “Mir Cəlal hekayələrində müasirlik” və Fidan Rzayeva “Mir Cəlal yaradıcılığı səhnədə” mövzularında məruzələrlə çıxış ediblər.

AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru akademik Teymur Kərimli və Ədəbiyyat İnstitutunun şöbə müdiri filologiya üzrə elmlər doktoru Vaqif Yusifli Mir Cəlalla bağlı xatirələrini bölüşüblər.

Sonda çıxış edən ADA Universitetinin rektoru professor Hafiz Paşayev çıxışlarda indiyədək məlum olmayan məsələlərə toxunulduğunu, belə tədqiqatların davam etdirilməsinin gələcəkdə onun yaradıcılığının yeni tərəflərinin açılmasına gətirib çıxaracağını bildirib.

Tədbirdə AMEA-nın Humanitar Elmlər Bölməsinə daxil olan elmi müəssisə və təşkilatların baş direktorları və əməkdaşları iştirak ediblər.

**“Xalq qəzeti”**

**Bakıda bədii gimnastika üzrə 39-cu Avropa çempionatı başlanıb. “Ulduz kimi parla” şüarı ilə keçirilən qitə çempionatında 38 ölkədən 315 gimnast (böyüklər – 191, gənclər – 124) mübarizə aparır.**

# Bakıda bədii gimnastika üzrə 39-cu Avropa çempionatı

## Bədii gimnastlarımız yarışa uğurla start veriblər



Avropa çempionatının təntənəli açılış mərasimində əvvəlcə iştirakçı ölkələrin paradı keçirilib.

Sonra hakimlərin, gimnastların və məşqçilərin adından and içilib. İspaniya Gimnastika Federasiyasının nümayəndəsi Monika Fornie Qarsia hakimlər, azərbaycanlı gimnast Güllü Ağalarzadə atletlər, Monteneqro yığma komandasının məşqçisi Vesna Podniç isə məşqçilər adından təntənəli şəkildə and içiblər. Bu andlar bütün iştirakçılara və tamaşaçılara sağlam rəqabət, ədalətli hakimlik və idmanda ədalət prinsip və ideallarına riayət edilməsinin ən yüksək prioritetə sahib olduğunu bir daha xatırladıb.

Avropa Gimnastikasının prezidenti, Azərbaycanın Gənclər və İdman naziri



Fərid Qayıbov açılış mərasimində iştirakçıları təbrik edərək uğurlar arzulayıb. Azərbaycanın artıq beşinci dəfədir bədii gimnastika üzrə Avropa çempionatına evsahibliyi etdiyini xatırladan F.Qayıbov ölkəmizdə gimnastikanın bu növü üzrə iki dəfə dünya çempionatının təşkil olunduğunu deyib. Bildirib ki, bir neçə gün əvvəl Beynəlxalq Gimnastika Federasiyası Şurası 2027-ci il dünya çempionatını yenidən ölkəmizə həvalə edib. Yarışın yüksək səviyyədə təşkilinə görə Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevaya, yerli Təşkilat Komitəsinə və könüllülərə təşəkkürünü bildirən F.Qayıbov qeyd edib ki, belə mötəbər yarışın keçirilməsində dövlətin qayğısı danılmazdır. Azərbaycan Prezidenti İlham Əliyev həmişə idmana və idmançılara böyük diqqətlə yanaşır.

İştirakçılara uğurlar arzulayan F.Qayıbov çempionatı açıq elan edib.

Daha sonra tanınmış müğənni Vaqif Nağıyev Azərbaycan Respublikasının Dövlət Himnini səsləndirib.

Açılış mərasimi bədii hissə ilə davam edib.

Çempionatın ilk günündə gənclər arasında çoxnövçülük proqramında beş ip və beş topla hərəkətlərin icrasında qaliblər müəyyənləşib.

Azərbaycanın gənclərdən ibarət qrup hərəkətləri komandasının üzvləri Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova, Zəhra Cəfərova çoxnövçülük proqramında (58.450 xal) və 5 topla hərəkətlərin icrasında (29.000) bürünc medala layiq görülüblər.

Beş iplə çıxışa görə isə komandamız hakimlərdən 29.450 bal alaraq yarışı 4-cü pillədə başa vurub.

Çoxnövçülük üzrə birinci yeri İsrailin gənclərdən ibarət komandası (61.600 bal), ikinci yeri isə Bolqarıstan yığması (59.250 bal) tutub.

Gənclər arasında qrup hərəkətləri komandalarının beş iplə proqramında isə Bolqarıstan komandası 30,500 xalla qızıl medala sahib olub. İsrail gimnastları 30,400 xalla gümüş, İtaliya kollektivi isə 29,550 xalla bürünc mükafat qazanıblar.

Yarış mayın 21-dək davam edəcək.

**Leyla AZAD,**
**“Xalq qəzeti”**

# Azərbaycanda “Caspian Agro” və “InterFood Azerbaijan” sərgiləri

## *Ekspozisiyada 31 ölkədən 479 şirkət təmsil olunur*



**Mayın 17-də Bakı Ekspo Mərkəzində regionun ən böyük sərgiləri – 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı “Caspian Agro” və 28-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi “InterFood Azerbaijan” sərgiləri fəaliyyətə başlayıb.**

Açılış mərasimində çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov sayca 16-cı olan bu sərginin ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunduğunu bildirib. Nazir qeyd edib ki, müstəqil Azərbaycan dövlətinin, eyni zamanda, Azərbaycanda aqrar sahənin inkişafı ulu öndərin fəaliyyəti ilə sıx bağlıdır. Heydər Əliyevin aqrar siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da innovasiyaların və müasir texnologiyaların tətbiqi dövlət tərəfindən dəstəklənir.

Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli bildirib ki, beynəlxalq sərgilərdə kənd təsərrüfatı və qida sahəsində məhsul və xidmətlərin nümayiş etdirilməsi yeni işgüzar əlaqələrin qurulmasına və genişləndirilməsinə imkan verəcək. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədov sərgilərin kiçik və orta bizneslərin (KOB) satış imkanlarının genişləndirilməsi, məhsul və xidmətlərinin tanıdılmasında önəmini qeyd edib. Çıxış edən digər natiqlər Bakı sərgilərinin aqrar sahənin və qida sənayesinin inkişafına göstərəcəyi önəmli köməyi vurğulayıblar.

Sərgilərdə, ümumilikdə, 31 ölkədən 479 şirkət iştirak edir, 9 ölkə isə milli stendlərlə təmsil olunur. “Caspian Agro” və “InterFood Azerbaijan” sərgilərində ABŞ, Almaniya, Belarus Respublikası, Gürcüstan, İtaliya, Niderland Krallığı, Şri-Lanka, Rusiya Federasiyasının regional qrupları, eləcə də builki debütant ölkə Tunis və Çexiyadan olan milli qruplar iştirak edirlər.

Üç gün davam edəcək “Caspian Agro” sərgisi zamanı kənd təsərrüfatı sahəsində innovativ texnologiyalar müzakirə olunacaq. Sərginin əsas istiqamətlərindən birini “yaşıl kənd təsərrüfatı” təşkil edir. Bu mövzu sərgi çərçivəsində keçiriləcək Aqrar İnnovasiyalar Forumunda da gündəmdə olacaqdır. “InterFood Azerbaijan” sərgisi isə keyfiyyətli malları bazara çıxarmaq və sərgi iştirakçıları ilə ziyarətçilər arasında birbaşa əlaqə yaratmaq məqsədi daşıyır.

“Caspian Agro” və “InterFood Azerbaijan” sərgilərində KOBİA dəstəyi ilə qida sənayesi və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektləri də öz məhsul və xidmətlərini təqdim edirlər.

Sərgi günlərində Aqrar İnnovasiyalar Forumu keçiriləcək. Forumda “Kənd təsərrüfatının inkişafında Heydər Əliyevin uğurlu aqrar siyasəti”, “Kənd təsərrüfatında innovativ həllərə əsaslanan texnologiyalar”, “Orqanik kənd təsərrüfatı”, “Rəqəmsal kənd təsərrüfatı” və digər mövzular müzakirə ediləcək.

Sərgilər çərçivəsində dekorativ yeməklərin kompozisiyasından ibarət “Qida – sənət əsəri” sərgisi, ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Qızıl Şah – Qızıl Yüzlük” III Milli Kulinariya Çempionatı təşkil ediləcək.

**“Xalq qəzeti”**

# Bakıda “SHE Congress” beynəlxalq qadınlar konqresi keçirilib

**Dünən Bakıda “SHE Congress” beynəlxalq qadınlar konqresi təşkil edilib.**




Məclisdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Azərbaycanda qadınların hüquqlarının qorunmasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb. O, Şərqdə qadına seçmək və seçilmək hüququnun ilk dəfə Azərbaycanda 1918-ci ildə verildiyini diqqətə çatdırıb.

Komitə sədri qeyd edib ki, ümummilli lider Heydər Əliyev qadınların idarəetmədə iştirakına və irəli çəkilməsinə hər zaman önəm verib. Bu gün bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanda qadın sahibkarlığının inkişafı, qadınların hüquqlarının qorunması istiqamətində bir sıra önəmli sənədlər imzalayıb.

Vurğulanıb ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva müasir Azərbaycan qadın hərəkatının lideri kimi ölkəmizin tərəqqisi naminə mühüm işlər görür.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib ki, qadınların ölkəmizin ictimai, siyasi və iqtisadi həyatında rolunun artırılması dövlətimizin daim diqqət mərkəzində olub. Əgər 2018-ci ildə fərdi sahibkarlığın arasında qadınların çəkisi 19 faiz civarında isə, 2023-cü ilin aprel ayının statistikasına əsasən bu rəqəm artıq 22 faizi keçib. Eyni zamanda, ölkəmizdə iqtisadi fəal əhalinin 49 faizini qadınlar təşkil edirlər.

Tədbirdə Azərbaycan Biznes Qadın Təşkilatının təsisçisi Tatyana Mikayılova, “Yelo Bank”ın icraçı direktoru Anar Həsənov və digər çıxış edənlər “SHE Congress” layihəsi barədə məlumat veriblər. Xatırladaq ki, “SHE Congress” beynəlxalq qadınlar konqresinin əsası 2014-cü ildə Kiyevdə qoyulub.

**“Xalq qəzeti”**

# III Məktəblilərarası Astronomiya Olimpiadası başa çatıb

**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçirilmiş III Məktəblilərarası Astronomiya Olimpiadasının qalibləri elan olunub.**



Bakı Dövlət Universitetində (BDU) keçirilmiş olimpiadada 189 nəfər iştirak edib. Onlardan 6-sı birinci yerə, 7-si ikinci yerə, 13-ü üçüncü yerə, digərləri həvəsləndirici mükafat-diploma layiq görülüb. Yüksək bal toplamış şagirdlər bu il avqustun 10–20-də Polşada keçiriləcək XVI Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlıq dərslərinə cəlb olunacaqlar.

Olimpiadanı Bakı Dövlət Universiteti, Təhsil İnstitutu, Şamaxı Astrofizika Rəsədxanası, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və Beynəlxalq Astronomiya İttifaqının Astronomiya Təhsili İdarəsi təşkil edib və Tusi-Bohm Planetariumun baş sponsorluğu ilə keçirilib.

**“Xalq qəzeti”**

# Şuşa artıq Türk dünyasının da mədəniyyət paytaxtıdır

**Cənnət Qarabağımızın tacı, sevgilərimizin qibləgahı olan Şuşa indilər özünün çox mübarək günlərini yaşayır. Prezident İlham Əliyev və ailə üzvləri növbəti səfərləri ilə "zirvə" şəhərə üstün bir şərəf verdilər.**



Neçə-neçə mədəni-sosial obyektin açılışı reallaşdı, yeni layihələrə start verildi. Erməni işğalından azad edilmiş ruhumuzun paytaxtının ötən həftə "Türk dünyasının mədəniyyət paytaxtı" kimi də yeni bir statusu rəsmiləşdi. Eyni zamanda, burada növbəti "Xarıbülbül" musiqi festivalı uğurla keçdi. Cıdır düzündən qanad açan musiqi sədaları dalğa-dalğa aləmə yayıldı. Axşam atəşfəşanlığına isə bədxahlarımız aşağılardan həsədlə, kin-küdurətlə baxdılar.

Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşaya daim yüksək dəyər verən, "Şuşasız Azərbaycan yoxdur" – deyən ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə elə bu uca dağların qoynundan xalqa müraciət edərək, Şuşanın önəmini bir daha dünyaya bəyan etdi: "...Hesab etdim ki, mən bu gün burada olmalıyam. Şuşada olmalıyam. Bu binanın önündə olmalıyam. Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hisssəsi idi. Bildiyiniz kimi, ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atmışdır".

Möhtərəm Prezidentimiz xalqa müraciətində özünün müdrik siyasəti, atdığı tarixi addımları, arxasında gerçək əməllər duran qətiyyətli sözləri ilə bir daha ürəklərimizə sonsuz sevinc, misilsiz fərəh, tükənməz inam bəxş etdi. Dünya bir daha gördü və əmin oldu ki, ermənilərin əzəldən burada yaşamış olduqlarını iddia etmələri, olsa-olsa, cəfəngiyyatdır, tarix nağılbazlığıdır.

Bəli, düz 28 il 6 aylıq ayrılıqdan sonra, nəhayət, vüsalına qovuşduğumuz Qarabağ, o cümlədən də Şuşa yenidən çal-çağırlı günlərini yaşayır. Pənahəli xanın, İbrahimxəlil xanın, Molla Pənah Vaqifin, Xurşidbanu Natəvanın, Qasım bəy Zakirin, Mir Mövsüm Nəvvabın, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, əslən şuşalı olmuş Səməd bəy Mehmandarovun, Üzeyir bəy Hacıbəylinin, Cabbar Qaryağdıoğlunun, Bülbülün, Süleyman Ələsgərovun ruhları şaddır ki, artıq erməni qəsbkarlarının murdar nəfəsindən təmizlənmiş Şuşa dirçəldilir, vəfalı sakinlərini, əzəli və əbədi sahiblərini qoynuna almağa hazırlaşır.

Yadımıza 2021-ci ildə dağların qoynunda tarixi Şuşa Bəyannaməsinin imzalandığı 15 iyun günü düşür. Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətlərini rəsmiləşdirən həmin Bəyannamənin qüvvəyə minməsi ilə Şuşa bir az da əzəmətli, bir az da arxa-dayaqlı göründü. Başının üstündəki duman dağıldı, daha parlaq sabahlara bağlı xətircəmliyi xeyli gücləndi. Bunun nə böyüklükdə hüquqi, siyasi, mənəvi stimul olduğunu təsəvvürə gətirdiyimiz hər an ürəyimiz sonsuz qürur və iftixarla döyünür. Şuşa bu gün qucaq açdığı əsrarəngiz tədbirlərlə şərəf və şan tariximizi daha da möhtəşəm edir.

...Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Türk dünyasının mədəniyyət paytaxtı Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının qala-konserti möhtəşəmliyi ilə hər kəsə unudulmaz təsir bağışladı. Səhnədə festivala qatılmış ölkələrin incəsənət ustaları istedad və məharətlərini göstərdilər. "Xarıbülbül" musiqi kompozisiyası, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkiyə və Türkmənistan incəsənət ustalarının təqdimatında "Söz meydanı" vokal-instrumental kompozisiyası, "Türk dünyası virtuozları" ansamblının ifasında "Çahargah bəhsi", "Əfsanə Turan", "Xalq xəzinəsi" kompozisiyaları və iştirakçı ölkələrin ifaları, rəqs qruplarının digər rəngarəng çıxışları ecazkarlığı ilə seçildi. Qala-konsert bütün iştirakçıların ifasında "Odlar yurdu Azərbaycan" kompozisiyası ilə başa çatdı. Amma onun xoş təəssüratları könülləri uzun zaman tərk etməyəcək. Cıdır düzü, Üzeyir Hacıbəylinin heykəlinin qarşısı, Bülbülün ev-muzeyi və Şuşanın digər məkanlarını əhatə edən festival tədbirləri ilə mədəniyyət salnaməmizə əlvan və silinməz sətirlər yazıldı.

Xatırladaq ki, ötən il martın 31-də Türkiyənin Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı"elan edilmişdi. TÜRKSOY-un bu münasibətlə düzənlədiyi rəsmi açılış mərasimində təşkilata üzv ölkələrin nümayəndə heyətləri, türk dostluq və əməkdaşlıq təşkilatlarının rəhbərləri, digər qonaqlar iştirak etdilər. Vurğulandı ki, bu gün Şuşa və bütün Qarabağ özünün intibah dövrünü yaşayır. Qələbədən az vaxt keçməsinə baxmayaraq, şəhərlərimizin, kəndlərimizin, tarix-mədəniyyət abidələrimizin, məhv edilən meşə massivlərinin və bütövlükdə yaşayış infrastrukturunun qısa müddətdə kompleks bərpası və yenidən qurulması istiqamətində Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi ilə intensiv işlər aparılır. Şuşa şəhərinin tarixi-mədəni siması bərpa edilir, Şuşaya yenidən mədəni həyat qayıdır.

Tədbirdə ürək sözlərini söyləyənlər – mədəniyyət naziri Adil Kərimli, Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, TÜRKSOY-un baş katibi Sultan Rzayev, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Xalq artisti Polad Bülbüloğlu, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar və başqaları, ilk növbədə, könüllərimizin paytaxtı olan Şuşaya yeni missiyasında xeyir-dualarını verdilər. Onlar inamla bildirdilər ki, ölkəmizdə davam edən "Heydər Əliyev İli" Azərbaycanın dünyada nüfuzunun daha da artmasına vəsilə olacaq. Türk dünyası ölkələrindən gəlmiş musiqi və folklor kollektivlərinin təqdim etdiyi konsert proqramları mərasimə əlavə rəng qatdı...

Festival və rəsmi tədbir başa çatsa da, Şuşada Türk dünyası mədəniyyətinin təntənəsi hələ bir çox layihə və mərasimlərlə ilin sonunadək davam edəcək. Nadir şəhərsalma və memarlıq sənətinin açıq səma altında möhtəşəm muzeyi olan 271 yaşlı Şuşa Türk dünyasının mədəniyyət paytaxtı kimi şuşasevərləri öz orbitində hələ çox saxlayacaq. Heydər Əliyev Fondu burada müxtəlif yerli və beynəlxalq tədbirlər keçirməyi davam etdirəcək, mədəni irsimizin bərpası üzrə geniş işlər görüləcək. Qarşıdakı dövrdə Şuşada "Qorqud Ata" Türk dünyası 3-cü Film Festivalı, eləcə də Birinci Türk Dünyası Mədəniyyət Forumu təşkil olunacaq.

Göründüyü kimi, Şuşanın öz əzəli sahiblərinə qayıtması qəhrəmanlığın zirvə həddi olmaqla, bütün türk dünyasında xüsusi bir canlanma yaradıb. Şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Bu isə dostlarımızı sevindirir, düşmənlərimizi xar eləyir.

Özünəməxsus cazibəsi, qançəkərliyi olan Şuşamızın göylərində ruhumuz, beləcə, pərvaz etməkdədir!

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***

# Poladlıda məktəb binası tikilir

**Azərbaycan Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində yalnız paytaxtda deyil, regionlarda da müasir tələblərə cavab verən məktəblər tikilir. Bu tədris müəssisələri müasir avadanlıq, istilik sistemi, zəngin kitabxana, əyani vəsait və kompüterlərlə təchiz olunaraq maddi-texniki bazası möhkəmləndirilir.**



Belə məktəblərdən biri Heydər Əliyev Fondu tərəfindən Ağcabədi rayonunun Poladlı kəndində inşa edilir. Ağcabədi Rayon İcra Hakimiyyəti başçısının kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Əhməd Əhmədov deyir:

– Poladlı kənd tam orta məktəbi təmirsiz, qəzalı vəziyyətdə idi. Fənn kabinetlərinin sadəcə adı vardı, laboratoriya təcrübələri keçirilmirdi. Lazım olan avadanlıqlar çatışmırdı, olanlar isə köhnə, yararsız vəziyyətdə idi. Siniflərdə şagird sıxlığı təhsilin keyfiyyətini aşağı salırdı. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Poladlı kənd tam orta məktəbinin tikintisi valideynləri çox sevindirdi.

Yeri gəlmişkən, təhsil müəssisəsi yeni tədris ilində – sentyabrda istifadəyə veriləcək. Bu barədə inşa olunan məktəbin iş icraçısı Samir Rəhimov bildirdi: – "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində məktəbin inşasına fevral ayından başlanılıb. Əsas məqsəd Poladlı kəndində təhsillə bağlı mövcud olan problemlərin aradan qaldırılması, müasir standartlara cavab verən məktəb binasının tikintisidir. Əvvəlki məktəb binası qəzalı vəziyyətdə idi. Onu sökərək yerində ikimərtəbəli, 300 yerlik tam orta məktəb binası tikirik. Binanın birinci və ikinci korpusları tədris məqsədilə, üçüncü korpusu bufet və akt zalı, dördüncü korpusu isə idman zalı üçün lahiyələndirilib. Binanın dam örtüyü metal kirəmitlə, akt və idman zallarının damı–metal ferma üzərindən sendvic panellərlə örtüləcək.

İş icraçısı bildirdi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə məktəbin həyətində müasir oyun meydançası da tikiləcək. Lahiyə üzrə stadionun sahəsi 968 kvadratmetr nəzərdə tutulub. Bundan başqa, təhsil ocağının həyətində 4500 kvadratmetr sahədə abadlıq işləri görüləcək, park salınacaq. Həmçinin təhsil müəssisəsinin həyətində qazanxana, transformator yarımstansiyası, içməli, çirkab və yanğın əleyhinə su anbarları inşa ediləcək.

Beləliklə, tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almasına şərait yaradacaq və tədrisin keyfiyyətinə müsbət təsir göstərəcək. Nəticədə ümumi təhsil göstəricilərində, xüsusilə də buraxılış imtahanları və ali məktəblərə qəbulun nəticələrində əvvəlki illərlə müqayisədə nəzərəçarpan irəliləyişlər müşahidə ediləcək.

***Pünhan ƏFƏNDİYEV, "Xalq qəzeti"nin bölgə müxbiri***

*18 May Beynəlxalq Muzeylər Günüdür*

# Milli və bəşəri incilər saxlancı

**Beynəlxalq Muzeylər Günü hər il müxtəlif deviz altında keçirilir. Bu günün devizi isə "Muzeylər, dayanıqlılıq və rifah"dır.**



Ölkəmizdə muzeylərə, sadəcə, qiymətli əşyaların, maddi-mənəvi sərvətlərin saxlanıldığı yer kimi baxılmır. Muzeylərimizdə qorunub-saxlanılan hər bir eksponat, əşya xalqımızın tarixini, qədimliyini və milliliyini əks etdirir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti sayəsində "Şirvanşahlar Sarayı Kompleksi", Qız qalası və Qobustan Milli Tarix-Bədii Qoruğu, "Xan Sarayı" ilə birgə Şəkinin tarixi mərkəzi" UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Fondun həyata keçirdiyi müxtəlif layihələr çərçivəsində Qarabağ muzeyləri haqqında məlumatlar mötəbər beynəlxalq təşkilatlara çatdırılır.

Bayram ərəfəsində Bakıda Azərbaycan professional musiqi sənətinin banisi, Şərqdə ilk operanın müəllifi kimi tanınan ictimai xadim **Üzeyir bəy Hacıbəylinin ev-muzeyinə** baş çəkdik. Memorial və inzibati binalardan ibarət olan muzey 1975-ci il noyabrın 20-də ümummilli lider Heydər Əliyevin göstərişi və iştirakı ilə açılıb. Muzeydə bəstəkarın zəngin həyat və yaradıcılığını əks etdirən materiallarla yanaşı, şəxsi əşyaları, əlyazmaları, eyni zamanda qədim kitablar qorunur. Azərbaycanın görkəmli rəssamlarının və heykəltəraşlarının əsərlərindən ibarət nümunələr, xalçalar, milli musiqi alətləri və müxtəlif qiymətli hədiyyələr də nümayiş etdirilən qiymətli eksponatlar sırasındadır.

**Muzeyin ekspozisiya şöbəsinin müdiri Gülnarə Ələsgərova** bəstəkarın həyat və yaradıcılığını, eləcə də onun məişətini əks etdirən ekspozisiyanın böyük maraq doğurduğunu bildirdi.

10 mindən çox eksponatı olan muzeyi Bakı ilə yanaşı, digər şəhər və rayonlarımızdan gələnlər, eləcə də xarici qonaqlar ziyarət edir, dolğun təəssüratla buradan ayrılırlar.

Qeyd edək ki, Gülnarə Ələsgərovanın tərtib etdiyi "Üzeyir Hacıbəylinin ev-muzeyi" kitabında muzeyin keçdiyi yol, strukturu, gələn qonaqlar, eksponatlar barədə müfəssəl məlumat verilib.

Beynəlxalq Muzeylər Günü münasibətilə Açıq qapı günündə bir sıra tədbirlərin təşkili nəzərdə tutulub. Muzeyin nəzdində fəaliyyət göstərən "Nur" Uşaq Xorunun ifasında rəngarəng musiqi kompozisiyaları təqdim ediləcək. Eyni zamanda, ev-muzeyin direktoru Sərdar Fərəcovun Heydər Əliyevə həsr etdiyi oda səsləndiriləcək. H.Sarabski adına 7 nömrəli Uşaq musiqi məktəbinin kollektivi ev-muzeyin qonağı olacaq, rəngarəng çıxışlar edəcək. Daha bir müəssisənin – Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin üzvləri isə bir həftə ərzində muzeylə yaxından tanış olacaqlar.

Ölkəmizdəki ilk muzeylərdən biri olan, hazırda 17 mindən çox eksponat saxlanılan **Azərbaycan Milli İncəsənət Muzeyində** də mayın 18-də bir sıra mədəni-kütləvi tədbirlər keçiriləcək.

**Muzeyin elmi-kütləvi işlər şöbəsinin müdiri Rəfiqə Quliyeva:** Builki Beynəlxalq Muzeylər Gününün devizi ekologiya, sosial problemli və psixi problemli insanların sağlam yaşamasını təmin etmək və rifahını yaxşılaşdırmaq, ekoloji sənətkarlıq və s. mövzularla bağlıdır. "Qorunan təbiət" multimedia layihəsi çərçivəsində isveçli Lyudmila Kristeseva və azərbaycanlı Günel Ravilova tərəfindən yaradılan "Dayanıqlı moda" multimedia dialoqu, Aqil Abdullayevin müəllifi olduğu unikorn və idarə olunan günəş sistemləri kimi futuristik və mifoloji elementlər vasitəsilə iqlim dəyişikliyi və ətraf mühitə təsirləri tədqiq edən "Xəzər dənizinin sahilində" qısametrajlı filmi təqdim ediləcək. Bunlarla birgə ənənəvi musiqi üçlüyündən ibarət Azərbaycan etnik musiqi alətlərinin səsləri və elektron musiqi ilə harmoniya yaradaraq suyun, təbiətin gözəlliyini və gücünü əks etdirən Fərhad Fərzəliyev, İbrahim Babayev və Timur Əmirxan tərəfindən yaradılan "Əkssəda" adlı audiovizual müasir incəsənət layihəsinin nümayişi baş tutacaq.

Muzeydə hazırda 3 sərgi nümayiş etdirilir. Ümummilli liderin yubileyinə həsr olunan "Heydər Əliyev – 100: sevimli əsərlər" sərgisi ziyarətçilərdə xüsusi maraq doğurur. Sərgiyə baxmağa gələn Bəsti Məmmədova qeyd edib ki, Tahir Salahov imzalı rəngkarlıq və Ömər Eldarovun müəllifi olduğu heykəltəraşlıq əsərlərində təsvir olunan Heydər Əliyevin obrazları sərginin xüsusi maraq doğuran eksponatlarındandır. Muzeydə sərgilənən sonuncu Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvana həsr edilmiş "Tək inci", eləcə də "Çin incəsənəti Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından" adlı sərgilərdə ziyarətçilərin diqqətini cəlb edən çoxlu eksponatlar var.

Bəli, Azərbaycanın muzeyləri ölkəmizin muzey sərvətlərinin qorunub saxlandığı dövlət xəzinəsi kimi çox böyük dəyərlərin daşıyıcısıdır.



***Leyla QURBANOVA, "Xalq qəzeti"***

Türkiyə: 14 may seçkiləri

# Bütün parametrlər üzrə parlaq uğur qazanılıb

**Türkiyədəki 14 may seçkiləri öz möhtəşəmliyi ilə bütün dünyanı heyrətə gətirib. Son onilliklər ərzində heç bir sivil, hüquqi, demokratik dövlətdə Türkiyədə olduğu kimi, yüksək seçici fəallığı qeydə alınmayıb. Bu səviyyədə azad, şəffaf səsvermə nümunəsi də tapmaq çətindir.**



Bəli, qardaş ölkə seçkilərin bütün parametrləri üzrə tarixi uğura imza atıb. Bu, çox qürurverici bir reallıqdır. Görünən budur ki, Türkiyə 14 mayda son dərəcə şəffaf və demokratik seçkilər keçirməklə, dostlarını sevindirib, rəqiblərini məyus edib. Bəzi toplumlar bunu açıq şəkildə etiraf edirlər.

*Ekspert rəyi*



**Fikrət SADIQOV,**
**professor, siyasi icmalçı**

Türkiyədə 14 may seçkilərinin nəticələri, ilk növbədə, onu göstərir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan birinci turda yenidən dövlət başçısı seçilə bilməsə də, səslərin çoxunu qazana bilib. Fikrimcə, bu, böyük uğurdur. Çünki AKP lideri ilə rəqibi CHP rəhbəri Kamal Kılıçdaroğlu arasında seçkilərin nəticələrinə görə əldə olunan səslərdə aşkar fərq hiss olunur.

Onu da qeyd etmək lazımdır ki, parlamentə seçkilərdə hakim partiya səs çoxluğu ilə qələbə çalıb. Belə ki, ali qanunverici orqanda altı yüz deputat yerinin yarıdan çoxunu R.T.Ərdoğanın lideri olduğu "Cümhur İttifaqı" əldə edib. Yəni, hakim partiyanın, onun müttəfiqi Milliyyətçi Hərəkat Partiyasının və nisbətən kiçik partiyaların namizədləri parlamentdə səs çoxluğunu təmin edə biliblər.

Əlbəttə, indidən ikinci turun gözlənilən nəticələri barədə dəqiq proqnozlar vermək çətindir. Amma Türkiyədə hazırkı daxili siyasi vəziyyət göstərir ki, əhali arasında hakim partiyanın tərəfdarları daha çoxdur və onların indiki durumda dövlət başçısına açıq şəkildə dəstəyi göz qabağındadır.

Türkiyə bizə qardaş dövlətdir, tarixən müttəfiqimizdir, bütün hallarda münasibətlərimiz sıx olacaq, strateji xarakter daşıyacaq. Düşünürəm ki, bizim gələcək əlaqələrimiz də etibarlı qardaşlıq münasibətləri zəmini üzərində inkişaf edəcək.

Qeyd etmək lazımdır ki, Türkiyənin son illərdəki sürətli inkişafı onun rəqiblərini çox narahat edir. Onlar ən müxtəlif yollarla bu uğurlara kölgə salmağa cəhd edirlər. Türkiyəni haqsız olaraq ən çox avtoritar idarəçilikdə günahlandırırdılar. Lakin onların Ankaranı nüfuzdan salmaq niyyətləri gözlərində qaldı.

Məlum olduğu kimi, bu il mayın 28-də Türkiyədə prezident seçkilərinin ikinci turu keçiriləcək. Bu turda hazırkı dövlət başçısı, AKP lideri R.T.Ərdoğan və ana müxalifətin rəhbəri, CHP-nin sədri Kamal Kılıçdaroğlu dövlətin ali postu uğrunda mübarizə aparacaqlar. Hər iki namizədin seçkilərin birinci turunda prezidentliyə namizəd olan Sinan Oğanın səslərini əldə etməyə çalışacağı gözlənilir.

Bir çox təhlilçilər hesab edirlər ki, birinci turda Sinan Oğana səs verənlər arasında Məmələkət Partiyasının rəhbəri, səsvermə gününə üç qalmış namizədliyini geri götürən Məhərrəm İncənin də dəstəkçiləri var. Onların hər ikisi milliyyətçi siyasətçi hesab olunur. Türkiyədəki bu seçkilərdə cəmiyyətin millətçi kəsiminin fəal iştirakı müşühidə olunub.

Ümumilikdə, hesab olunur ki, Sinan Oğana səs verənlərin böyük əksəriyyəti bu dəfə R.T.Ərdoğana səs verəcək, çünki onа səs verənlər əsasən milliyyətçilərdir, onlar isə məlum səbəblərdən Kamal Kılıçdaroğluna səs verməyəcəklər.

Bu arada məlum olub ki, Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı Türkiyə Böyük Millət Məclisinə müvəqqəti sədrlik edəcək. Prezident R.T.Ərdoğan dünən "CNN türk" və "Kanal D"nin ortaq yayımında deyib: "Sayın Dövlət Baxçalı müvəqqəti Türkiyə Böyük Millət Məclisinin sədri olacaq, biz onunla bu prosesi keçmişik. Onun haqqıdır!".

Qeyd edək ki, mayın 14-də Türkiyə parlamentinə keçirilən seçkilərdə MHP 51 deputat yeri əldə edib. Şübhə yoxdur ki, MHP lideri seçkilərin ikinci turunda da R.T.Ərdoğana güclü dəstək verəcək. Budəfəki turda qalibi müdrik türk xalqının iradəsi müəyyən edəcək.

Bakı Dövlət Universitetinin Türk filologiyası kafedrasının müdiri, professor Rüfət Rüstəmov hesab edir ki, qardaş ölkənin bu parlaq uğuru heç də təsadüfi deyil, əksinə, tarixi bir qanunauyğunluqdur. Belə ki, türk xalqı heç vaxt seçki saxtakarlığına yol verməyib. Çünki öz yenilməz, azad ruhu ilə seçilən türk insanları səs oğurluğu kimi miskinliyi özlərinə rəva bilməzlər.

Professorun fikrincə, hər bir ölkədə seçkilər yüksək siyasi və mənəvi mədəniyyətin göstəricisidir. Türk xalqı həm siyasi cəhətdən yüksək yetkin millətdir, həm də zəngin milli-mənəvi, əxlaqi dəyərlərə sahibdir.

Çağdaş dünyada yüksək seçki mədəniyyəti nümayiş etdirmək böyük vətənpərvərlik missiyası hesab olunur. R.Rüstəmovun sözlərinə görə, məhz 14 may seçkiləri Türkiyə vətəndaşlarının yüksək vətənpərvərlik duyğularını bir daha bariz surətdə nümayiş etdirdi.

Türkiyədə seçkilərin birinci turundan artıq beş gün keçməsinə baxmayaraq, bu mühüm siyasi kampaniya qlobal medianın gündəmindən düşmür. Məsələn, ABŞ mətbuatı yazır ki, Türkiyədə mayın 14-də keçirilən yüksək səviyyəli demokratik və şəffaf seçkilər çoxları üçün gözlənilməz oldu. Bütün dünya KİV-inin gözü Türkiyədə idi. Oradakı müşahidəçilər seçkilərin azad, sərbəst və şəffaf aparıldığını bildiriblər. Bu, həqiqətdir və bunu danmaq qeyri-mümkündür!

"Əl-Cəzirə" telekanalının şərhçisi bildirib ki, Türkiyədə keçirilən seçkilər bütün dünyaya bir daha göstərdi ki, bu ölkə, həqiqətən, müsəlman dünyasının ən aparıcı və bir nömrəli demokratik dövlətidir. Türkiyə bu gün vacib region dövlətidir, dünya gücüdür, onunla hesablaşırlar.

Bu seçkilər həm də onu nümayiş etdirdi ki, Türkiyə əhalisinin ən azı yarısı hazırkı iqtidarı dəstəkləyir. Bir çox nüfuzlu siyasi təhlilçilər hesab edirlər ki, seçkilərin ikinci turunda böyük ehtimalla R.T.Ərdoğan 50 faizdən çox səs toplayıb, hakimiyyətdə qalacaq.

*Məsaim ABDULLAYEV,*
*"Xalq qəzeti"*

Türkiyədən məktub

# "Cumhur İttifaqı"nın qələbəsi Türk dünyası üçün də önəmli olacaq

**"Türkiyə parlamentində MHP yenə də səs üstünlüyü qazandı və bu faktın can Azərbaycanla əlaqələrimizi daha da genişləndirəcəyinə əminəm". Bu fikirləri "Xalq qəzeti"nə açıqlamasında Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının (MHP) Ərzurum millət vəkili Kamil Aydın bildirib.**



MHP-nin Türk dünyası və beynəlxalq əlaqələr üzrə sədr müavini olan millət vəkili deyib ki, parlamentdə Azərbaycan da daxil olmaqla Türk Dövlətləri Təşkilatları ilə əməkdaşlığın gücləndirilməsi nəzərdə tutulub:

–Yeni tərkibli parlamentimizin fəaliyyəti xeyirlərə vəsilə olsun. Əminəm ki, türk və islam dünyası ilə daha uğurlu fəaliyyətlərimiz olacaq, bununla da bütün maneələrin öhdəsindən birlik-bərabərlik içində gəlməyi bacaracağıq.

Kamil Aydın deyib ki, dünyanın maraqla izlədiyi 14 may prezident və 28.dönəm parlament seçkiləri demokratik şəraitdə keçib:

–Bu seçkinin demokratik mühitdə keçdiyinə şahid olduq. İlk növbədə Qərb demokratiyasında çox nadir rast gəlinən fəal seçici faktoru özünü bir daha göstərib. Belə ki, Qərb demokratiyasında əhalinin seçkidə iştirakı 50 faizi keçə bilmədiyi halda Türkiyədə bu göstərici 90 faizə çatdı. Bu isə türk millətinin demokratiyaya olan sayğısının və azad ruhlu olmasının bariz nümunəsidir. İkinci önəmli nüans seçkilərin 86 milyonluq Türkiyə Cümhuriyyətində təhlükəsiz şəkildə gerçəkləşdirilməsidir. Belə ki, biz Türkiyənin kənd, rayon və böyük şəhərlərində effektiv, təhlükəsiz, narahatlıq yaratmayan seçki prosesini müşahidə etdik.

Bir sözlə, bu, Qərb demokratlarına dərs verən bir seçki oldu. Digər tərəfdən, həm beynəlxalq müşahidəçilər, həm də Türkiyənin seçki üzrə səlahiyyətli şəxslərinin verdiyi məlumatlara görə, seçkilər şəffaf keçirildi. Bu prosesin ən önəmli bir tərəfi də öncədən müəyyən edildiyi kimi - səhər saat 8.00-da start verilən axşam saat 17.00-da başa çatan seçkinin nəticələrinin ictimaiyyətin gözləri önündə açıqlanması idi.

Kamil Aydın əvvəlki seçkilərdən fərqli olaraq "Əsrin fəlakəti" adı verilən dağıdıcı zəlzələdən sonra Türkiyədə bu seçki prosesinin təhlükəsiz şəkildə keçirilməsini də təqdir edib:

–Təxminən, iki Hollandiya böyüklüyündə olan coğrafiyada baş verən zəlzələ dağıntılarının çox sürətlə aradan qaldırılması ilə yanaşı, həm də o bölgədəki vətəndaşlarımızın təhlükəsiz, sağlam bir şəkildə səs verməsini təmin etmək də önəmli idi.

Millət vəkili ölkə daxilində və xaricdə bu seçki prosesinə mane olmaq istəyən qüvvələrə rəğmən "Cumhur İttifaqı"nın bu seçkidə yüksək nəticə qazanmasını diqqətəlayiq hesab edir:

– Əziz millətimiz "Cumhur İttifaqı" ilə artıq 21-ci əsri gerçəkdən Türk əsri etmək yoluna çıxıb, dövlətimiz daha bir yüzüncü ilinə qədəm qoyur, bu yolda xalqın etimadına güvənərək Türkiyə bu seçkilərin qalibi "Cumhur İttifaqı" ilə həm ölkəmiz, həm də türk dünyası üçün çox gözəl layihələrə imza atacaq.

Prezident seçkiləri ikinci tura qalsa da, qalibin kim olacağı indidən məlumdur. Başqa bir tərəfdən müdafiə sənayesindən iqtisadiyyata, iqtisadiyyatdan səhiyyəyə, kommunikasiya və infrastruktura qədər inkişaf edən Türkiyənin etibarı qüvvəsindədir. Regionda söz sahibi lider olan Türkiyəmiz beynəlxalq anlamda da önəmli bir rol oynayaraq daha böyük layihələrə imza atacaq. Bu seçkilərin qazananı uca Türk milləti oldu.

**Hazırladı:**
**M.SULTANOVA**

**Ankara**

# Nikola Sarkozi həbsdə saxlanıldı

**Parisin apellyasiya məhkəməsi korrupsiya və nüfuz alveri işi üzrə bir il həbs cəzasına məhkum olunan Fransanın sabiq prezidenti Nikola Sarkozi barədə hökmü qüvvədə saxlayıb.**



France-Presse agentliyi xəbər verir ki, apelyasiya məhkəməsi sabiq prezidenti seçkilərdə namizədliyini irəli sürmək hüququndan da məhrum edib.

Xatırladaq ki, bundan əvvəl məhkəmə 2007-ci ildə Nikola Sarkozinin seçki kampaniyasının Liviya tərəfindən maliyyələşməsi üzrə təhqiqat çərçivəsində ona bir il həbs və iki il şərti azadlıqdan məhrumetmə cəzası vermişdi. Cinayət işi sabiq dövlət başçısının öz vəkili ilə telefon danışığının dinlənilməsi nəticəsində 2014-cü ildə açılmışdı.

Beləliklə, Nikola Sarkozi Fransanın real həbs cəzasına məhkum edilən ilk prezidenti olub.

# Küveytdə yubiley konfransı



**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan Respublikasının Küveyt Dövlətindəki səfirliyi tərəfindən Küveytin "Regency" mehmanxanasında konfrans təşkil edilib.**

Azərbaycanın Küveytdəki səfiri Emil Kərimov ümummilli lider Heydər Əliyevin həyatı və fəaliyyəti barədə geniş nitq söyləyib. Diplomat qeyd edib ki, xalqının böyük təəssübkeşi olan Heydər Əliyev Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirib. Ümummilli lider Heydər Əliyev həm də müasir və yeni Azərbaycanın memarı və qurucusu olub.

Küveyt parlamentinin keçmiş deputatı Saleh Aşur 2001-ci ildə Küveyt–Azərbaycan parlamentlərarası dostluq qrupu nümayəndə heyətinin tərkibində Bakıda səfərdə olarkən Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşündən söz açıb. Küveyt Dövlətindəki diplomatik korpusun duayeni, Tacikistanın Küveytdəki səfiri Zubaydullo Zubaydov, Müqəddəs Taxt-Tacın Küveytdə apostol nunsisi Ögen Martin Nugent, Türkiyənin Küveytdəki səfiri xanım Tuba Nur Sönməz, Rusiyanın Küveytdəki səfiri Vladimir Jeltov, Küveytin "Mübarək Əl-Kəbir" Sağlamlıq Mərkəzinin direktoru Valid Əl-Buseyri, Gürcüstanın Küveytdəki səfiri Konstantin Zgenti, Ukraynanın Küveytdəki səfirliyinin diplomatı Olha Seheda, tədqiqatçı alim, Küveyt Alternativ Tibb Cəmiyyətinin sədri Zaben Əl-Uteybi, Qazaxıstanın Küveytdəki səfiri Azamat Berdibay, Küveytin Azərbaycandakı sabiq səfiri Qəssan Əl-Zəvavi, Küveyt parlamentinin sabiq deputatı Camal Əl-Ömər ulu öndər Heydər Əliyevin öz ölkələri ilə əlaqələrin inkişafında rolundan danışıb, onunla bağlı xatirələrini bölüşüblər.

Tədbirin sonunda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti barədə sənədli film nümayiş etdirilib.

*"Xalq qəzeti"*

# İlon Mask: Qlobal çətin bir il gəlir



**Qlobal iqtisadiyyatı qarşıda çətin bir il gözləyir, həmin dövr ərzində kompaniyaların bir çoxu iflasa uğrayacaq.**

"Euronews" agentliyi "xəbər verir ki, bu barədə amerikalı milyarder İlon Mask sahibi olduğu "Tesla" kompaniyasının səhmdarlarının iclasında deyib. Onun proqnozuna görə, makroiqtisadi vəziyyət, azı, bir il mürəkkəb olaraq qalacaq, lakin növbəti 12 ay ərzində geri dönüş baş verəcək və kompaniyanın maliyyə vəziyyəti daha da yaxşılaşacaq.

Bundan başqa, kompaniya avtomobil bazarındakı bütün texnologiyaları üstələyən iki yeni məhsulunu təqdim edəcək və "Cybertruck" pikaplarının istehsalına başlayacaq.

İlon Mask, həmçinin icraçı direktor postundan gedəcəyi barədə şayiələri təkzib edib.

Mayın 16-da keçirilən hərraclarda "Tesla"nın səhmləri 1,2 faiz bahalaşıb, kompaniyanın kapitallaşması isə ilin əvvəlindən bəri 35,2 faiz artıb.

*"Xalq qəzeti"*

# "Taliban" hökumətinin Baş naziri istefa verib

**Əfqanıstandakı "Taliban" hökumətinin Baş naziri Məhəmməd Həsən Axund səhhəti ilə əlaqədar istefa verib. "Al Jazeera" telekanalı bildirir ki, bu barədə "Taliban" qruplaşması məlumat yayıb.**



Qeyd edək ki, Abdul Kəbir müvəqqəti hökumət başçısı təyin edilib. Bundan əvvəl o, Baş nazirin müavini işləyib. Molla Məhəmməd Həsən Axund 2021-ci il sentyabrın 7-dən Əfqanıstan Baş nazirinin səlahiyyətlərini icra edirdi. O, Qəndəhar əyalətinin Pəncva mahalının Paşmul şəhərində anadan olub.

Xatırladaq ki, Molla Məhəmməd Həsən Axund "Taliban"ın qurucularından və liderlərindən biridir. Əfqan mücahidlərinin səhra komandiri olub. İlk "İslam Əmirliyi" Əfqanıstanın böyük hissəsini faktiki olaraq nəzarətdə saxladığı zaman, 1997–1999-cu illərdə Məhəmməd Həsən Axund "Taliban"ın nəzarətində olan ərazidə xarici işlər naziri və Baş nazirin müavini vəzifələrində çalışıb. O, həm də Qəndəhar şəhərinin qubernatoru olub. 2001-ci ilin yanvarından BMT M.H.Axunda sanksiya tətbiq edib.

O, "Taliban"ın 2011-ci ildə ölən lideri Molla Məhəmməd Ömərin siyasi məsələlər üzrə müşaviri işləyib.

# Yeddi oğul istərəm

## *Bir kəndin əbədiyyət ünvanlı şəhid övladları*

**Dağlar diyarı Yardımlının da igidləri Birinci və İkinci Qarabağ müharibələrində hünər göstərərək düşmənin sinəsinə dağ çəkiblər. Onlardan 80 nəfəri şəhidlik zirvəsinə ucalıb, 26 gənc isə müharibədə qazi olub. Yardımlıdan olan 130 döyüşçü müharibə veteranı adını alıb.**

Rayonun Çayüzü kəndi Vətən uğrunda döyüşlərdə yeddi şəhid verib. Tural Aslanov, İlham Qəhrəmanov, Mahir Aslanov, Nizami Cəbiyev, Cavid Səhratov, Aslan Kərimov və Yusif Nəciyev ərazi bütövlüyümüzün təmin olunması naminə canlarından keçiblər. Şəxsi həyatla bağlı arzuları yarımçıq qalsa da, "Öncə Vətəndir!" – deyərək gözlərini belə qırpmadan irəli şığıyıb, düşmənə qan uddurub, əbədiyyətə qovuşublar.





Ötən ilin yanvarında Çayüzü kəndinin mərkəzində Vətən Müharibəsi şəhidlərinin adının əbədiləşdirilməsi məqsədilə ucaldılmış bulaq-abidə kompleksinin açılış mərasimi keçirilib. Güclü qar yağmasına baxmayaraq, hamı mərasimə qatılıb və şəhidlərin əziz xatirəsinə dərin ehtiramını bildirib. Rayon icra hakimiyyətinin başçısı Ayaz Əsgərov, hüquq-mühafizə orqanlarının, ictimai-siyasi təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri, şəhid ailələri və qazilər daim yaddaşlarda yaşayacaq şəhid hərbçilərimizin şücaət və vətənpərvərliyinin gənc nəsil üçün nümunə olduğunu bildiriblər.

RİH başçısı və onun aparatının, o cümlədən Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Yardımlı Rayon Şöbəsinin, Gənclər və idman idarəsinin işçiləri tez-tez şəhid ailələrini və qaziləri ziyarət edir, onların problemləri ilə maraqlanırlar. Belə görüşlərin biri şəhid Elşən Sultanlının ailəsində olub. Vətən müharibəsində qazanılan Qələbədən söz açılıb, şəhidlərin əziz xatirəsinin qəlblərdə əbədi yaşayacağı, heç zaman yaddaşlardan silinməyəcəyi xüsusi vurğulanıb. Vətən müharibəsində göstərdiyi igidlik və şücaətə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Elşən Nazim oğlu Sultanlıya verilən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni şəhidin ailəsinə təqdim olunub. Şəhidin atası göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

Çayüzünün camaatı öz şəhidlərindən söz açanda "Yeddi oğul istərəm" filmini yada salır. Onlar həm Birinci, həm də İkinci Qarabağ müharibəsində adlarını tarixə yazmış igidlərdir. Tural Aslanov leytenant idi. Döyüş əməliyyatları zamanı hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Prezident sərəncamı ilə ölümündən sonra "3 dərəcəli Vətənə Xidmətə görə ordeni", "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Mahir Aslanov 20 yaşı tamam olan gün – 1992-ci il yanvarın 10-da haqq dünyasına qovuşub. Nizami Cəbiyev isə 20 yaşına beş gün qalmış – 1994-cü il dekabrın 12-də düşmənlərin atəşkəsi pozması nəticəsində şəhid olub. İlham Qəhrəmanov həmin il itkin düşüb, hələ də haqqında məlumat yoxdur.

Aslan Kərimov Bakıda xüsusi təyinatlı dəstədə təlim keçmişdi. Füzuli rayonunun Alxanlı kəndi ərazisində silahdaşlarını itirdikdən sonra belə döyüş meydanını tərk etməyib, təkbaşına son nəfəsinədək, zirehli döyüş maşınında yanıb külə dönənə qədər aslan kimi vuruşub. Şəhid olanda onun da 20 yaşı vardı. Aslanın vaxtilə təhsil aldığı kənd orta məktəbi indi onun adını daşıyır. Şagirdlər və məzunlar bu adı qürurla çəkir, hər işdə məhz Aslana bənzəməyə çalışırlar.

Bəli, Çayüzü kəndinin yeddi şəhidinin hər biri haqqında belə örnək hekayətlər var. Kəndin inzibati ərazi dairəsi üzrə nümayəndəsi Elvin müəllim bizə bu barədə maraqlı məlumatlar verərək dedi ki, şəhidlərin hər birinin xatirəsi əzizdir. Onlar ən isti xatirələrdə yaşayırlar. Doğma Qarabağımız, Şərqi Zəngəzurumuz dirçəldildikcə, işğalın və müharibənin vurduğu yaralar sağaldıldıqca, o yerlər məskunlaşdırıldıqca şəhidlərimizin də ruhu şad olur.

***Əli ƏLİYEV,***
***"Xalq qəzeti"***

# "İgidi torpağa elə qan çəkir!"

**Onların əbədiyyət yolçuluğu doğacaq günəşli sabahlarımızın, zirvələrdə əbədi dalğalanacaq bayraqlarımızın müjdəçisi olub. Milyonların vətən nisgilinə son qoyan oğullarımızdan biri yevlaxlı Toğrul Məmməd oğlu Bərxudarovdur.**

Yaxından tanıyıram bu ailəni. 33 yaşı vardı Toğrulun. Əvvəlcə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində oxumuşdu. Rəhmətlik atası çox istəyirmiş ki, Toğrul hərbçi olsun, poqonlarına general ulduzları taxsın. O da atasının arzusunu həyata keçirmək üçün ömrünü qürurla hərb sənətinə həsr etmişdi. Ali Hərbi Məktəbi motoatıcı ixtisası üzrə bitirərək, elə həmin il Təlim-Tədris Mərkəzinə daxil olmuş və 2009-cu ildə buranı müvəffəqiyyətlə başa vurmuşdur. Bu sənətə sevdalanan gənc 2013-cü ilə qədər "N" saylı hərbi hissədə, həmin ildən 2017-ci ilədək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində motoatıcı taqım komandiri, sonra bölük üzrə komandir-müəllim, başqa hərbi hissədə motoatıcı tabor komandirinin müavini, sonra həmin hərbi hissədə motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət etmişdir.

Hər şey «bir canım var, o da Vətənimə qurban olsun» deyimilə başla-



yıb. Müharibənin ilk günündən ən ağır əməliyyatlara atılıb. Döyüş yoldaşları danışır ki, əsgərləri ruhlandırmaq üçün tankın üstündə dimdik duraraq gedirdi, özünü sipər edirdi, həm əsgərlərinə, həm vətəninə. Sonuncu dəfə qardaşı Bəxtiyarla danışıb: "Qardaş, mənə görə narahat olma, anamı da televizora baxmağa qoyma, ha..." demişdi. Yəqin, ürəyinə dammışdı ki, şəhid olacaq. Çox sevdiyi qardaşına bir də: "Mənə bir şey olsa, uşaqlarım sənə əmanət" – deyə tapşırmışdı.

Sentyabrın 29-da anası Güllü xanımla danışıb. "Hər şey əladır, ana", – deyərək, onu sakitləşdirib. Sabahı gün Tərtər–Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub...

Öz şəhid izini torpağa salan Bərxudarov Toğrul Məmməd oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə 3-cü dərəcəli «Rəşadət» ordeni, «Vətən uğrunda», «Hərbi xidmətlərə görə» və «Suqovuşanın azad olunmasına görə» medalları ilə təltif edilib.

Toğrul Bərxudarov qızını həkim, oğlunu isə özü kimi hərbçi zabit görmək istəyirdi. Ailəsi, övladları ilə bağlı gözəl xəyalları vardı. Vətənin azadlığı və bütövlüyü uğrunda qəhrəmancasına şəhid olan Toğrulun əziz ruhu qarşısında baş əyirik.

***Əminə YUSİFQIZI,***
***Əməkdar jurnalist***

# Mikayıl Yaqub oğlu Vahabzadə

**Unudulmaz Xalq şairimiz Bəxtiyar Vahabzadənin soyadını daşıyan Mikayıl şəhid olmasaydı, bəlkə o da könül duyğularından dəstə bağladığı şeirləri ilə tanınacaq, seviləcəkdi. Görün, necə mübariz şeirlər yazırmış:**

*Şəhid qanı yerdə qalıb,*
*Tələs, Azərbaycan əsgəri!*
*Qoyma düşmən alıb-versin*
*Nəfəs, Azərbaycan əsgəri!*

Amma Mikayılın qismətinə şəhid kimi bir ali mərtəbəyə yüksəlib sevilmək düşdü.

Mikayıl 1993-cü il iyulun 25-də İsmayıllı rayonunun Tircan qəsəbəsinin Maçaxı kəndində doğulub. Sumqayıt Dövlət Universitetinin fizika və elektroenergetika fakültəsini 2015-ci ildə əla qiymətlərlə bitirdikdən iki ay sonra həqiqi hərbi xidmətə yollanıb. 2016-cı ilin iyul ayında geri dönərək, öz kəndində fizika və riyaziyyat fənnindən dərs deyəcəkdi. Lakin həqiqi hərbi xidmətdə olan Mikayıl 2016-cı ilin Aprel döyüşlərində qəhrəmanlıqla həlak olaraq şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif olunub. Onun qardaşı Rüfət Vahabzadənin təqdim etdiyi şeirlərdən biri ilə siz də tanış olun.

**QƏRƏNFİL**

*Şəhid qanı bulanıbdı üstünə,*
*Qan içində boğulmusan, qərənfil.*
*Səpilirsən şəhidlərin üstünə,*
*Bəxti qara doğulmusan, qərənfil.*

*Şəhid qanı müqəddəsdir, qəm yemə,*
*Taleyinlə fəxr eylə sən, qərənfil.*
*"Gərək düşməyəydim bu günə" – demə,*
*Azadlıq rəmzisən, gözəl qərənfil.*



*Bəzi güllər – gül əllərin bəzəyi,*
*Mənim üçün sən – gözəllər gözəli.*
*Sənin adın şəhidliyin özəli,*
*Bizim üçün müqədəssən, qərənfil,*
*Azadlığın rəmzi sənsən, qərənfil.*

***"Xalq qəzeti"***

**Masallıda Elgün Aqil oğlu Mikayıllının adı çəkiləndə bütün camaatın qəlbi qürurla döyünür. 19 yaşında şəhid olmuş Elgünü həm Tanrı dərgahında, həm də insanlar arasında belə mötəbər edən onun mənəvi saflığı, bir də iç dünyasından qaynaqlanan halal Vətən, torpaq sevgisidir. O, Azərbaycanın 2020-ci il sentyabrın 27-də başlanan haqq savaşında bahar qoxulu ömrünü qurban verdi ki, qarı düşmən Vətənin şərəfinə toxunmasın, 30 il əsarətdə qalan doğma torpaqlar azad olunsun...**

# El-oba aşiqi olan Elgün

Yaradanın bu dünyaya igidlik rəmzi, qeyrət mücəssəməsi kimi əta elədiyi Elgün Masallı rayonunun Xıl kəndində boya-başa çatmışdı. İnsanlara gərək olmaq, el-obaya fayda vermək onun əsas amalı idi. Müstəqil həyata qədəm qoyduğu gündən ülvi məqsədlərə can atması, nəcib, xeyirxah işləri əhatəsində olduğu cəmiyyətdə Elgünə hörmət gətirmişdi. 2019-cu ildə Milli Ordu sıralarına yola düşəndə ürəyindən keçirdiyi ilk istək əlinə silah alıb döyüş meydanında erməni işğalçılarını əzmək olmuşdu. Məqsədinə çatmaq üçün xidmət etdiyi Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində bütün təlimlərdə fəallıq göstərir, bacarıqlı və səriştəli bir hərbçi kimi əsgərlərin, zabitlərin arasında tanınırdı.



...Nəhayət, Elgünün arzuladığı gün gəlir. Qarabağın azadlığı naminə Vətən müharibəsi başlanır. Elgün xüsusi tapşırıq gözləmədən, qəlbində dığalara nifrət Füzuli uğrunda gedən ölüm-dirim savaşına atılır. Saysız-hesabsız qeyrətli oğullar sırasında düşmənə istədiyi sarsıdıcı zərbələri vurur. 17 gün müharibə meydanında torpaq iddiasında olan haylara qan uddurur. Aşiqi olduğu, canından artıq sevdiyi Vətən, torpaq uğrunda mərdliklə döyüşür, göstərdiyi şücaət əsgər yoldaşlarını da qələbəyə ruhlandırır. Onun şəhidliyi isə tarixi zəfərimizə gedən yolu bir qədər də açmış olur.

Bəli, onun özü gənc yaşında bu fani dünyanı tərk etsə də, canından artıq sevdiyi Vətən torpaqları azadlığa qovuşdu. Elə Elgün də həyatının mənasını bunda görürdü. Qısa ömür yaşadı, amma şərəfli ölümü ilə qərinələr boyu unudulmaz, neçə-neçə nəsillərə örnək olan bir zirvəyə ucaldı.

Onu da qeyd edək ki, Prezident İlham Əliyevin sərəncamlarına əsasən "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunanlar arasında şəhid Elgün Mikayıllı da var.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# "Rəşadət" ordenli şəhid-şair

**Polkovnik-leytenant Elzamin Təhməzov həm silahı, həm də qələmi ilə Vətəni qorumuş mərd igidlərimizdən idi. 1979-cu ildə Bərdə rayonunun Şirvanlı kəndində doğulmuşdu. 90-cı illərin əvvəllərində xain qonşularımızın torpaq iddiaları yeniyetmə Elzamini daim qəzəbləndirmiş və o, nankorlara qarşı mübarizənin ön sıralarında olmağı özünün həyat amalına çevirmişdi.**



Həmin məqsədlə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olan Elzamin kursantlıq dövründə bütün nəzəri və praktiki təlimlərdə fərqlənib. Məktəbi uğurla bitirdikdən sonra isə gənc zabit dəfələrlə Amerika, Almaniya, Pakistan, İraq, Sloveniya, Türkiyə, həmçinin NATO təlimlərində ölkəmizi şərəf və ləyaqətlə təmsil edib.

Həmkarımız Aida Eyvazlı özünün "İgidlərin sözü" kitabında Elzaminin də haqqında təsirli qeydlərini qələmə alıb. 2019-cu ildə bir toy şənliyindəki çıxışından gətirilən sitatda da o, özünü əsl vətənpərvər igid kimi göstərib: "Tanrı bizə güc versin, torpaqlarımızı düşmən tapdağından azad edək. Tanrı bizə Şuşaya, Laçına ayaq basmağı, o yerlərdə yaşamağı nəsib etsin. Biz əslən Laçındanıq. Dağlardan gəlmişik. Biz nəslimizi-kökümüzü unutmarıq. Tanrı heç kimə Laçın, Şuşa nisgilini unutdurmasın. O yerləri geri almaq uğrunda mübarizə aparaq. Qoy, yeni qurulan ailələrdə elə övladlar yetişsin ki, onlar bizim gələcəyimiz üçün, bizim Vətənimiz, millətimiz üçün xeyirli övladlar olsun. Vətənimizi bütöv, dövlətimizi güclü edək!"

İkinci Qarabağ müharibəsi başlananda o, artıq polkovnik-leytenant idi. Cəbhənin ön sıralarında döyüşlərə atıldı. Elə davanın ilk gündəcə təcrübəli zabit Suqovuşanın alınmasında xüsusilə fərqləndi. Gözündə zərrəcə qorxu yox idi. Ağır döyüşlər zamanı misilsiz şücaəti ilə hərbçi dostlarını mühasirəyə düşmək təhlükəsindən qurtardı.

Təəssüf ki, ona Qarabağda Böyük Zəfərimizi görmək qismət deyilmiş. Vətən müharibəsinin üçüncü günü – 2020-ci il sentyabrın 29-da elə uğrunda ölüm-dirim mübarizəsinə atıldığı Suqovuşanda polkovnik-leytenant Elzamin Təhməzov qəhrəmancasına şəhid oldu, ondan cəmi 41 gün sonra rəşadətli ordumuz Şuşada qələbə bayrağını qaldırdı. Zəfər salnaməmizə öz qanıyla silinməz sətirlər yazan Elzamin Təhməzovun qəhrəmanlığı da layiqli qiymətini aldı. O, ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeninə, "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görüldu.

Ölməz xatirəsi könlümüzdə əbədidir Elzaminin! Özündən sonra övladları əmanət, şeirləri isə yadigar qalıb. Onun bir şeirini oxuculara təqdim edirik.

**VƏTƏNİM...**

*Sinəsi yaralı doğma Vətənim,*
*Görəsən varmıdır dərdini çəkən?!*
*Dörd bir yanı düşmən olanım mənim,*
*Haçan azalacaq, axı, təhlükən?*

*Sən mənim sevincim, sən mənim qəmim,*
*Bir tək düşündüyüm sənsən, ey Vətən!*
*Sənin düşmənlərin mənim düşmənim,*
*Müqəddəs dərgaha tənsən, ey Vətən!*

***"Xalq qəzeti"***

# Vətən müharibəsi qəhrəmanı yad edilib

**Şair Ədalət Salmanın rəhbərlik etdiyi Cəlilabad rayon Veteranlar Təşkilatının üzvləri Göytəpə şəhərində Vətən Müharibəsi Qəhrəmanı, şəhid kapitan Rəşad Abdullayevin ailəsi ilə görüşüblər.**

"Qarabağ qaziləri" ictimai birliyinin sədri Maşallah Əliyev, "Qarabağ əlillərinə Qayğı" ictimai birliyinin rəhbəri Asəf İsmayılov, Milli Məclisin vitse-spikeri Fəzail İbrahimlinin köməkçisi Faiq Ağayev və iş adamı, xeyriyyəçi Rafiq Abışov da onlarla birlikdə görüşə qatılıb və şəhidin məzarını ziyarət ediblər.



Qəhrəmanın atası Arif Abdullayev oğlunun həyat və döyüş yolundan fəxrlə danışıb, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevə şəhid ailələrinə, qazilərə göstərdiyi diqqət və qayğıya görə minnətdarlığını bildirib. Rəşad Abdullayevin anası Sevil Abdullayeva isə şəhid analarının adından yazdığı şeiri oxuyub. O, həmçinin ziyarətə gələnləri qəhrəman oğlunun ev-muzeyinin açılışına dəvət edib.

Xatırladaq ki, Cəlilabad şəhər 2 saylı tam orta məktəb Vətən Müharibəsi Qəhrəmanı Rəşad Abdullayevin adını daşıyır. Şəhid kapitan ailəli idi, iki övladı Vətənə əmanət qalıb.

***Ə.ƏLİYEV,***
***"Xalq qəzeti"***

Təkrar

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi məktəbəqədər təhsil müəssisələrinə "digər malların alınması" xərc maddəsi üzrə malların satın alınması məqsədilə

# TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayevdən, tel - (+99412) 465 73 48) ala bilərlər.

Təşkilat - Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

Bankın adı - "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı
Kod - 805603
VÖEN - 9900001881
M/h - AZ03NABZ01350100000000002944
S.W.I.F.T. İBAZAZ 2X
H/h - AZ88IBAZ38030019441856517211
VÖEN - 1500016711

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- qeydiyyatdan keçdiyi ölkə (təqdim olunması məcburidir. Dövlət reyestrindən çıxarış və VÖEN notarial qaydada təsdiq olunub PDF formatında əlavə edilməlidir.);
- nizamnamə (təqdim olunması məcburidir. Notarial qaydada təsdiq olunmuş sənəd PDF formatında əlavə edilməlidir.);
- rekvizitlər (təqdim olunması məcburidir. Müvafiq sənəd PDF formatında əlavə edilməlidir.);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (təqdim olunması məcburidir. Təsdiq olunmuş son arayışı təqdim etməlidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti təqdim edilməlidir. Notarial qaydada təsdiq olunmuş sənəd PDF formatında əlavə edilməlidir);
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (təqdim olunması məcburidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən bank arayışı təqdim edilməlidir. 2023-cü il mayın 1-dən sonra alınmış arayış PDF formatında əlavə edilməlidir);
- iddiaçının 2022-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (təqdim olunması məcburidir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);
- vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 2023-cü il mayın 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 2023-cü il mayın 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- tender təklifini və satınalma müqaviləsini imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə təqdim edilməlidir. Sənəd PDF formatında əlavə edilməlidir);
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş sənəd təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi haqqında sənəd (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir, təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);
- iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (əlavə 1) (təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);
- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;
- iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);
- iddiaçının tender təklifinin bank təminatı (təminatın qüv-vədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalı və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 100 təqvim günü ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda qeyd olunan sənədləri 9 iyun 2023-cü il saat 16.00-a, tender təklifi və tender təklifinin bank təminatını isə 20 iyun 2023-cü il saat 16.00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 21 iyun 2023-cü il saat 16.00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

# AÇIQ TENDER ELAN EDİR

Lot - 1. Bakı şəhəri ərazisində dövlət mənzil fonduna aid binaların əsaslı təmirinin satın alınması .

Tender iştirakçılarına təklif olunur ki,öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər (əlaqələndirici şəxs- Əhməd Məmmədov, 496-52-05).

İştirak haqqı 3000 manatdır.
İştirak haqqı heç bir halda qeri qaytarılmır.
İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti
H\h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi tender zərflərinin açıldığı gündən sonra azı 100 bank günü təşkil etməlidir;
- tender təklifinin 1 faizi həcmində bank təminatı ;
- tender təklifi təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;
- müqavilənin yerinə yetirilməsinin təminatı müqavilənin yerinə yetirilmə müddətindən sonra 30 bank günü çox olmalıdır. Müqavilənin yerinə yetirilməsi təminatı- 5faizdir.
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin , habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd;
- mənfəət vergisinin bəyannaməsi (2022-ci ili əhatə etməli və hesabat vergi orqanı tərəfindən məktubla təsdiq olunmalıdır. Təsdiq məktubu elektron qaydada əldə olunduqda notarial təsdiqlı təqdim edilməlidir);
- maliyyə vəziyyəti haqqında , mənfəət və zərər haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat. (2022-ci ili əhatə etməli və hesabatlar müstəqil auditor tərəfindən təsdiq olunmalıdır);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;
- iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçı oxşar təyinatlı və analoji işlər sahəsində azı 3 milyon manat həcmində müqavilələr və təhvil - təslim aktları təqdim etməlidir.
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin,habelə işlərini idarə edənlərin,qulluqçularının peşəkar fəaliyyətləri,yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması,yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;
- iddiaçının texniki imkanları barədə məlumat (qaldırıcı kran 3 ədəd, özüboşaldan mexanizm 3 ədəd);
- müvafiq kadr imkanları barədə məlumat (azı 1 nəfər mühəndis, 5 il təcrübəsi olan 2 layihə rəhbəri, 2 nəfər SƏTƏM mühəndisi olmalı, əmək müqavilə bildirişləri ilə təqdim olunmalıdır);
- sahibkarlıq subyektinin meyarını müəyyən edən sənəd.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir).

İddiaçılar tenderlə bağlı sualları tender komissiyasına yazılı şəkildə ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 23 iyun 2023-cü il saat 17.00-a, tender təkliflərini və tender təkliflərinin təminatlarını isə möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana 7 iyul 2023-cü il saat 17.00-a qədər təqdim etməlidirlər.

İddiaçıların təklifləri 10 iyul 2023-cü il saat 10.00-da Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri təkliflərin açılışı prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

# "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs

## *"Cəbrayıl rayonunun Horovlu kənd yaşayış məntəqəsinin yenidənqurulması layihəsi çərçivəsində kəndin ümumi ərazisinin şaquli planlaşdırılması üçün torpaq işlərinin satın alınması" məqsədilə*

# AÇIQ TENDER ELAN EDİR (2-ci elan)

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, 8 noyabr prospekti, Ağ şəhər ofis binasının 4-cü mərtəbəsində yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs-satınalma şöbəsinin müdiri- Emil Ağazadə.
E-mail: emil.aghazada@shzbti.gov.az
Telefon- +99450-506-06-60.

Tenderdə iştirak haqqı 1500,00 ( bir min beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxs
VÖEN- 5200287501
BANK-"KAPİTAL BANK" ASC-nin 28 may filialı
Kod- 200123
VÖEN- 9900003611
M/h- AZ37NABZ01350100000000001944
H\h- AZ31AIIB380300D9447648156112
S.W.İ.F.T. : AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- Tenderdə iştirak etmək üçün ərizə.
- İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.

1. Tender təklifi 45 bank günü qüvvətə olmalıdır (tender təkliflərinin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır). Tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
2. Tender təklifi qiymətinin 1 faizi məbləğində tender təklifinin təminatı (bank zəmanəti, tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox qüvvədə olmalıdır (konsorsium müqaviləsinə əsasən tenderdə iştirak edən iddiaçıların hər ikisi tərəfindən təqdim edilməlidir).
3. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış.
4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.
5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.
6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi və qeydiyyatdan keçdiyi ölkə.
7. Rekvizitlər.
8. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.
9. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması.
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması zəruridir.
11. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin və etibarlılığının olması zəruridir.
12.İddiaçının hansı sahibkarlıq subyektinə malik olması barədə sənəd (Dövlət Statistika Komitəsindən alınmalıdır).
13.İddiaçının müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilməlidir).
14.Subpodratçılar haqqında məlumat (əgər yerli subpodratçı cəlb edilərsə, yuxarıda qeyd olunan sənədlər eyni zamanda həmin təşkilatlar üçün də təqdim edilməlidir).
15.Əsas şərtlər toplusunda tələb olunan digər sənədlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 18 may 2023-cü il saat 10.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 2 iyun 2023-cü il saat 17.00-a qədər Bakı şəhəri, 8 noyabr prospekti, Ağ şəhər ofis binasının 4-cü mərtəbəsində yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender iştirakçılarının təklifləri Bakı şəhəri, 8 noyabr prospekti, Ağ şəhər ofis binasının 4-cü mərtəbəsində yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"ndə 5 iyun 2023-cü il saat 10.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

## tabeliyindəki idarələr üçün tökmə sahəsinə lazım olan malların satın alınması məqsədilə

# MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il mayın 26-sı saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1053.
Ünvan- Bakı şəhəri, Neftçilər prospekti 2.

# "Boradigah Çay–2" ASC səhmdarlarının nəzərinə!

"Boradigah Çay–2" ASC səhmdarlarının illik ümumi yığıncağı 30 iyun 2023-cü il saat 11.00-da Masallı rayonunun Boradigah qəsəbəsində ASC-nin inzibati binasında keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**1.** ASC-nin idarəetmə orqanlarının 2022-ci ilə aid illik hesabatı.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

Əlaqə telefonu-050-537-04-08.

# BİLDİRİŞ

"Xalq qəzeti"nin 17 may 2023-cü il tarixli nömrəsində dərc edilmiş "Xalq Həyat" Sığorta Şirkəti ASC səhmdarlarının ümumi yığıncağının çağırılması barədə məlumatın son abzasında 2021-ci sözü 2022-ci il kimi oxunmalıdır.

# "Xalq Həyat" Sığorta Şirkəti ASC səhmdarlarının ümumi yığıncağının çağırılması barədə məlumat

29 iyun 2023-cü il saat 15.00-da "Xalq Həyat" Sığorta Şirkəti ASC səhmdarlarının ümumi yığıncağı Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti 106A nömrəli ünvanda keçiriləcəkdir.

Səhmdarların ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələ daxil edilmişdir:

Cəmiyyətin 2022-ci il üzrə maliyyə hesabatlarının təsdiq edilməsi.

***İdarə Heyəti***

# "Bakqazmaş" ASC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.00-da "Bakqazmaş" ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. ASC-nin 2020–2021 və 2022-ci illər üçün maliyyə-təsərrüfat fəaliyyətinin müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.

Bütün səhmdarların iştirakı vacibdir.

Ünvan-Bakı şəhəri, Albalılıq qəsəbəsi, "Koroğlu" metro stansiyasından 107 nömrəli avtobusla gəlmək olar.

***İdarə heyəti***

SON səhifə

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 103 (30219) 18 may 2023-cü il, cümə axşamı

veb-sayt: www.xalqqazeti.az

## Süni intellekt heyvanlarla danışa biləcəkmi?!

**Heyvanlarla danışa bilmək elmdə fantastika ola bilər! Yoxsa, bu, yaxın gələcəyin reallığıdır? Süni intellekt bu mövzuda bizi ümidləndirməyə davam edir.**



Elm adamları bu yaxınlarda şimpanzelərin öz dillərinə sahib olduqlarını və ünsiyyət qura bildiklərini kəşf ediblər. Bir gün ev heyvanımızla əsl söhbət edə bilsək və ya onların fikirlərini anlaya bilsək, nə baş verər? Cavab isə çox sadədir –heyvanlarla danışmağımıza imkan verən süni intellekt yarana bilər.

Bu sizə film ssenarisi kimi görünə bilər. Lakin bunun sayəsində heyvanlarla necə ünsiyyət qurmağımız üçün yeni qapılar açıla bilər. Belə ki, bu əsas dil modelləri kimi istifadə edilən süni intellekt modelləridir. Bu modellər insan dilini anlamağı və şərh etməyi hədəfləyir.

Əsas məqsəd ondan ibarətdir ki, insan dilini daha asan qavranılan etdikcə, heyvanlar eyni anlama səviyyəsindən istifadə edərək sözləri və cümlələri deşifrə edə bilsinlər. Belə olan halda insanlarla heyvanlar arasında ünsiyyəti artırmaq mümkün olacaq.

Alimlər arasında süni intellektin bəşəriyyətə təhlükə yarada biləcəyini düşünənlər də var. Bununla belə, qeyd edirlər ki, heyvanlarla danışmaq üçün süni intellektdən istifadə ideyası, çox həyəcanverici ola bilər. Süni intellekt vasitəsilə bir heyvanla ünsiyyət qurmaq onu anlamaq demək deyil. Bu tip tədqiqatın tətbiqi üçün hələ çox uzun bir yol var. Uzun və eyni zamanda da maraqlı...

***Səadət RZAYEVA, "Xalq qəzeti"***

*Yeni tamaşa*

## Türk yazıçının əsəri Naxçıvan səhnəsində





**Bugünlərdə 140 yaşı tamam olan Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının səhnəsində türkiyəli yazıçı Mehmet Ümit Görgülünün psixoloji dram janrında olan "Cibimizdəki dəlilik" əsəri əsasında səhnələşdirilən tamaşa təqdim edilib.**

Azərbaycan teatr səhnəsində ilk dəfə səhnələşdirilən "Cibimizdəki dəlilik" tamaşasında insanın insana yadlaşması, özündən, öz dəyərlərindən uzaqlaşması acı bir həqiqət kimi öz səhnə həllini tapır. İnsanlığın sevgidən, sədaqətdən, bütün müsbət insani keyfiyyətlərdən yoxsullaşdığının fərqində olan insanlar ya dəli olur, ya da zamanın axarına uyub yaşayırlar.

Tamaşanı Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Birinci Naxçıvan Kitab Sərgisində iştirak edən ziyalılar, Qazaxıstan Respublikasının incəsənət ustaları və ictimaiyyət nümayəndələri böyük maraqla izləyiblər.

Sonda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli yaradıcı heyətlə görüşərək kollektivi Naxçıvan teatrının 140 illiyi münasibətilə səmimi təbrik edib.

**Səbuhi HƏSƏNOV, "Xalq qəzeti"**

*Sosial şəbəkələrdən seçmələr*

## "Hər yerdə kitab!"



**Jalə Əhmədova adlı bir nəfər fəal sosial şəbəkə izləyicisi dünən özünün "Facebook" səhifəsində maraqlı bir paylaşım edib. Orada yazılır:**

"Bu gün (dünən-M.H) bir qrup gəncin iştirakı ilə Bakı Metropoliteninin "İçərişəhər" stansiyasından "Həzi Aslanov" stansiyasına qədər "Hər yerdə kitab!" devizi ilə maarifləndirici aksiyaya start verilib. Tədbir çərçivəsində tələbələr elmi, bədii və publisistik kitablar oxuyublar.

Aksiyanın keçirilməsində məqsəd insanları oxumağa və mütaliəyə təşviq etmək, onları "Kitab oxumaq üçün vaxtım yoxdur" düşüncəsindən uzaqlaşdırmaqdır.

Məkan olaraq metronun seçilməsi də məhz bununla əlaqəlidir. Buradakı incə mesaj hər kəsə göstərir ki, şəraitdən və məkandan asılı olmayaraq, hər yerdə kitab oxumaq mümkündür.

Sonda aksiya iştirakçıları ilə bir yerdə oxunan kitablar təhlil edilib və xatirə şəkli çəkilib. Hörmətli gənclər! Siz də oxuduğunuz kitabla şəkil çəkdirərək aksiyaya qoşula bilərsiniz.

**P.S.** Dünyanın bir çox ölkələrində uzun illərdir metroda kitab oxumaq ənənəsi var. Bu, eyni zamanda vaxta qənaət deməkdir.

***Təqdim etdi: M.HACIXANLI, "Xalq qəzeti"***

## Gürcüstanda 6 nəfər İŞİD üzvü saxlanılıb

**Gürcüstan Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Terrorla mübarizə mərkəzinin keçirdiyi genişmiqyaslı əməliyyat nəticəsində "İslam Dövləti" (İŞİD) terror təşkilatının bir neçə üzvü həbs edilib.**

Bu barədə Gürcüstan DTX-nin məlumatında bildirilir ki, antiterror əməliyyatı eyni vaxtda 4 yerdə keçirilib və İŞİD üzvü olmaqda şübhəli bilinən 6 nəfər Gürcüstan vətəndaşı saxlanılıb. Məlum olub ki, "İslam Dövləti" terror təşkilatı və onun təbliğiyindəki qruplar bir neçə ölkədə müxtəlif terror fəaliyyətləri planlaşdırıblar.

İstintaq tədbirləri nəticəsində terror təşkilatının rəmzləri, elektron məlumat daşıyan qurğular, döyüş sursatı, partlayıcı maddələr və istintaq üçün vacib olan müxtəlif sübutlar aşkar edilib.

**"Xalq qəzeti"**

*İdman xəbərləri*

## Afrika yarışlarında böyük uğurumuz



**Azərbaycan ağırlıqqaldıranları Tunisdə keçirilən 33-cü Afrika çempionatında uğurla çıxış edərək 3 medal qazanıblar.**

Təmsilçilərimizdən sonda körpücük üzərinə çıxan Ömər Cavadov (73 kq) birdən qaldırma hərəkətində 143, təkanla qaldırmada 167 kq çəkini ram edib və toplam 310 kq (143+167) nəticə göstərib. O, bu nəticə ilə birdən qaldırma hərəkətində 2-ci, təkanla qaldırma hərəkətində 5-ci, toplamda isə 4-cü olub.

Qeyd edək ki, daha əvvəl qadınlardan Nazilə İsmayılova (45 kq), kişilərdən isə İsa Rüstəmov (67 kq) Afrika çempionu olub.

Azərbaycan yığmasının başqa qitənin çempionatında çıxışına səbəb bu ilin aprelində İrəvanda keçirilən Avropa çempionatında erməni təxribatına görə iştirak edə bilməməsidir. Tunisdə təşkil olunan yarış da Paris-2024 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır.

AZƏRBAYCAN PREMYER LİQASI

## "Sabah" böyük hesabla qələbə qazanıb

**Futbol üzrə Azərbaycan Premyer Liqasında XXXIV tura yekun vurulub.**

Təxirə salınmış oyunda "Sumqayıt" komandası "Sabah"ı qəbul edib. "Kapital Bank Arena"da keçirilən matçda "Sabah" "Sumqayıt"ı böyük hesabla məğlub edib (4-0).

Hazırda paytaxt klubu 80 xalla turnir cədvəlində ikinci, "Sumqayıt" isə 28 xalla səkkizinci pillədə qərarlaşıb.

Xatırladaq ki, turun əvvəlki oyunlarında "Zirə" evdə "Kəpəz"lə, "Neftçi" "Şamaxı" ilə 1:1 hesablı sülhə razılaşıb, "Turan Tovuz" Qəbələdə eyniadlı komandanı 2:1, "Qarabağ" isə səfərdə "Səbail"i 3:0 hesabı ilə məğlub edib.

***Leyla SABİRQIZI, "Xalq qəzeti"***

*Sağlamlıq guşəsi*

## Qədim iksir – şam qozaları

**Fitoterapevtlərin fikrincə, şam ağacının qozalarından ağciyər və allergik xəstəliklərdə–xroniki ağciyər çatışmazlığında, allergik bronxit, astma, pnevmaniyanın müxtəlif növlərində (adi və ya iltihablı) və vərəmdə istifadə olunur. O, həmçinin yüksək xolesterini aşağı salır, həzmə kömək edir.**



Şirəni hazırlamaq üçün qozalar yuyulub, qurudulur. Üç ədəd qoza 3 stəkan suda 10 dəqiqə qaynadılır. Süzülüb yeməkdən yarım saat qabaq içilir.

Bundan başqa, qozanı qaynadaraq, buxarı ilə burun qaşınmaları, axmaları və tutulmalarında, öskürək zamanı qarqara təbii inhalyasiya etmək olar. Qozalardan, həmçinin mürəbbə və doşab da hazırlanır.

Allergiyası olanlar yazda ağacların tozlanması zamanı havada uçan zərrəciklərdən əziyyət çəkirlər. Mütəxəssislərin fikrincə, şam ağaclarının tozlanmasının allergik xəstəliklər üçün heç bir zərəri yoxdur. Əksinə, bu tozcuqlar havada uçaraq "dişi" tozcuqlarla birləşir və mayalanır.

Qeyd edilən erkək tozlar daxili xəstəliklərin sağalmasında böyük rol oynayır. Həmin tozlardan 200 qram toplayıb 1 kiloqram bala qatılsa, immun sisitemini artıran mükəmməl vasitə əldə edilər.

***Z.HÜSEYNOVA, "Xalq qəzeti"***

## "Google" yeni dil modellərini təqdim edib

**"Google" şirkəti yeni nəsil dil modeli olan texnologiyalarını təqdim edib.**



Yeni texnologiya vasitələri bunlardır:

1. PALM2 - bu texnoloji qurğu təkmilləşdirilmiş çoxdilli, əsaslandırma və kodlaşdırma xüsusiyyətlərinə malik ən müasir dil modelidir. Şirkətin fundamental tədqiqatlarına və ən son infrastrukturuna əsaslanan bu vasitə müxtəlif tapşırıqları yerinə yetirmək qabiliyyətinə də malikdir.

2. İmmersive view - immersiv görünüş adlanan bu vasitədən yerin yüksək keyfiyyətli təsvirini yaratmaq üçün istifadə olunur. İnsanlar bu qurğunu mobil cihazlarına əlavə edərək yerin panoramik təsvirinə baxa və dünyanı yenidən kəşf edə biləcəklər.

İndi şirkət bu texnologiyanı daha da genişləndirərək səyahət marşrutları üçün "İmmersiv Görünüşü" tətbiq edib. Bu qurğu vasitəsilə istifadəçilər səyahət edəcəkləri məkanı əvvəlcədən müəyyən edə biləcəklər.

Bundan əlavə, şirkət "Duet AI Slides" və "Meet" alətlər panelində mətn təsvirlərindən şəkillər yaratmaq, cədvəldə fərdi planlar qurmaq və s. üçün əlavə vasitələr də təqdim edir.

***Fidan HÜQUQQIZI, "Xalq qəzeti"***

*Proqnoz*

## Bakıda hava yağmursuz, rayonlarda isə...



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən mayın 18-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub küləyi əsəcək. Gecə 9-14°, gündüz 18-23° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-14°, gündüz 20-25° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 5-10° isti olacaq.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***



## "MateBook" E 2023 noutbuk–planşetdir

**"Huawei" şirkəti mayın 18-də növbəti təqdimat tədbirini keçirəcək. Xarici medianın verdiyi xəbərə görə, həmin tədbirdə bir sıra yeni məhsulların təqdim ediləcəyi gözlənilir. Qeyd olunur ki, yeni məhsullar arasında MateBook noutbukları da olacaq.**

Hazırda isə şirkət həmin yeni noutbuklardan birinin xarici görünüşünü sərgiləyib. Söhbət, MateBook E 2023-dən gedir. Qeyd etmək lazımdır ki, bu cihaz həm noutbuk, həm də planşet rolunda çıxış edəcək. Cihaz 120 Hz-lik təsvir yenilənməsinə sahib IPS ekran ilə təchiz olunacaq və ekran stilus dəstəyinə sahib olacaq.

Mediada yayılan məlumata əsasən, MateBook E 2023 Windows 11 vasitəsilə çalışacaq.

***Z.BƏŞİRQIZI, "Xalq qəzeti"***

BAŞ REDAKTOR

ƏFLATUN AMAŞOV

TELEFONLAR:

Reklam və elanlar: 493-82-21

Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64

Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az

+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:

AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.

*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5183
SİFARİŞ 1231
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00